Xalqın qəzeti!

# Xalq qəzeti

№ 75 (31044) 1 may 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycanda idmanın inkişafına və idmançıya qayğı dövlət siyasətidir

## Prezident İlham Əliyev Avropa çempionatında komanda hesabında çempion olan güləşçiləri qəbul edib



**Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniyanın paytaxtı Tiranada keçirilmiş Avropa çempionatında komanda hesabında Avropa çempionu olan yunan-Roma güləşi və sərbəst güləş, həmçinin qadın güləşi üzrə medal qazanmış idmançıları və onların məşqçilərini qəbul edib. Dövlətimizin başçısı görüşdə çıxış etdi.**

### Prezident İlham Əliyevin çıxışı

– Salaməleyküm, əyləşin.

İlk növbədə, milli komandamızı Tiranada keçirilmiş Avropa çempionatında qazandığı böyük qələbə münasibətilə təbrik edirəm. Bu qələbə bizim hamımızı sevindirdi. Azərbaycan güləşçiləri bir daha göstərdilər ki, onlar Avropada birincidirlər. Avropa çempionatında komanda hesabında birinci olmaq, əlbəttə ki, böyük nailiyyətdir. Xüsusilə nəzərə alsaq ki, bu gün həm dünyada, həm Avropada güləş üzrə mübarizə daha gərgin keçir, bir çox ölkələrdən olan tanınmış güləşçilər böyük nəticələr göstərirlər və mübarizə də çox gərgin idi. Bəzi yarışları mən də izləmişəm və görmüşəm ki, bizim idmançılarımız öz peşəkarlığını göstərərək rəqibləri ədalətli mübarizədə məğlub etmişlər. Bu, əlbəttə, bütün xalqımızı sevindirir və bir daha göstərir ki, güləşimiz uğurla inkişaf edir. Güləşimizin böyük ənənələri var və biz bu ənənələri yaşadırıq. Şadam ki, tanınmış güləşçilərlə bərabər gənc güləşçilərimiz də böyük nəticələr əldə edirlər. Bu onu göstərir ki, məşq prosesi, seleksiya prosesi düzgün qurulubdur. Bu münasibətlə federasiyanı təbrik edirəm, məşqçiləri təbrik edirəm və əlbəttə ki, ilk növbədə, idmançıları.

Hər dəfə beynəlxalq yarışlarda bizim bayrağımız qaldırılanda bütün Azərbaycan xalqı qürur hissi keçirir, sevinir. Bu qələbə sevincini idmançılarımız xalqımıza bəxş edir və bu da öz növbəsində gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etmək üçün çox önəmli amildir. İdman, ümumiyyətlə, cəmiyyətimizin ayrılmaz hissəsidir və xüsusilə son illər ərzində idmanda gedən müsbət proseslər, əlbəttə ki, hamımızı sevindirir.

*(ardı 2-ci səhifədə)*

## İrəvan görüşü və Cənubi Qafqazda yeni nizamın ilkin konturları



Səhifə ⇨ 6

## İranla sərhəddə daha bir gömrük məntəqəsi



Səhifə ⇨ 7

## Tikənlərin izi qalar...



Səhifə ⇨ 8

## BƏƏ-nin karteldən çıxması OPEC-in dağılmasına yol aça bilərmi?




Səhifə ⇨ 11

## Ağverəndə ilk: Bakı–İrəvan sülhünün rəmzi və əməli yönü

Səhifə ⇨ 4

## Xəzər sahilindən Avropanın şimalına sabitlik və rifah marşrutu



Səhifə ⇨ 5

## Fars körfəzində ikiqat blokada və beynəlxalq hüquq



Səhifə ⇨ 5

## Erməni diasporunun muzdlu vəkili ifşa edildi



Səhifə ⇨ 4

## Aİ-nin Ermənistana dəstək sammiti



Səhifə ⇨ 6

## Qeyri-neft ixracında yüksəliş



Səhifə ⇨ 7

## Layiqli əməyin təntənəsi uğrunda həmrəylik



Səhifə ⇨ 8

## Müxtəlifliyin vəhdətinə tarixi Bakı çağırışı



Səhifə ⇨ 10

# Prezident İlham Əliyev Avropa çempionatında komanda hesabında çempion olan güləşçiləri qəbul edib





(əvvəli 1-ci səhifədə)

Federasiyaya gəldikdə onu da qeyd etməliyəm ki, bizim tanınmış idmançılarımız, Olimpiya çempionları federasiya rəhbərliyində təmsil olunurlar. Məşqçilər arasında da tanınmış idmançılar təmsil olunur. Bu gün məşqçi kimi fəaliyyət göstərən idmançıların yarışlarını vaxtilə mən özüm izləmişəm, həm Bakıda, həm Olimpiya Oyunlarında onlara azarkeşlik etmişəm. İndi isə onların yetirmələri bizi sevindirir. Bax belə, nəsillər dəyişdikcə güləş və bütövlükdə idman Azərbaycanda nəinki yaşayır, hətta inkişaf edir və yeni zirvələrə çatır. Nəsillər dəyişir, amma bir şey dəyişmir, o da Azərbaycan idmanının uğurları.

Əlbəttə, indi federasiya, xüsusilə bölgələrdə olan gənc idmançıları məşq, təlim toplanışlarına cəlb etmək üçün işini bundan sonra da təkmilləşdirəcək. Çünki bu gün hər bir bölgədə həm Olimpiya İdman kompleksləri var, eyni zamanda, güləş zalları. Ona görə bu seleksiya işi, əlbəttə ki, gələcək uğurlarımızın əsasını təşkil edəcək.

Azərbaycan idmanının ümumi inkişafına gəldikdə hər şey göz qabağındadır. Həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında bizim idmançılarımız ölkəmizi ləyaqətlə təmsil edirlər. Əlbəttə ki, uğurlarla bərabər məğlubiyyətlər də olur. Amma idmanda hər şey mümkündür. Əsas odur ki, idmançılarımızda qələbə əzmi çox güclüdür və bir daha ölkəmizin ümumi inkişafını əks etdirir. Bu gün qalib dövlət və qalib xalq kimi yaşayan dövlətimiz, xalqımız, o cümlədən idman uğurları ilə fəxr edir.

Mən sizi bu münasibətlə bir daha təbrik edirəm. Mənim idmançılarla görüşlərim müntəzəm xarakter daşıyır. 30 ilə yaxın müddət ərzində Azərbaycan Olimpiya Komitəsinə rəhbərlik edirəm. Bu 30 ilə yaxın müddət ərzində, əlbəttə ki, bir çox müsbət məqamlar olub. Əsas odur ki, idmanın dayanıqlı inkişafı, uğurlarımızın ardıcıl şəkildə davam etməsi və gənc nəslin yetişməsi – hər şey mənim gözümün önündə keçib. Görün, neçə nəsil dəyişib, amma bu gün biz yenə də uğurlarla fəxr edirik. Əsas budur və əminəm, həm Güləş Federasiyası, həm bizim digər federasiyalarımız gələcəkdə öz işlərini elə quracaqlar ki, Azərbaycan xalqı



idman yarışlarına baxanda daim sevinc hissləri keçirsin.

Əlbəttə, ölkəmizdə keçirilən idman yarışları idman növlərini populyarlaşdırır. Bizim təcrübəmiz də böyükdür, çox böyük beynəlxalq yarışlar keçirmişik, həm Avropa Oyunlarını, həm İslam Həmrəyliyi Oyunlarını. Bunlar demək olar ki, Yay Olimpiya Oyunlarının səviyyəsinə çox yaxındır. Keçən il MDB Oyunlarını özü də paytaxtda yox, bölgələrdə keçirmişik. Yəni bu onu göstərir ki, çox güclü potensial var və idmana, idmançılara qayğı dövlət siyasətidir. Əminəm ki, idmançılar da bunu görür və hiss edirlər. Bir daha sizi təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

***

Sonra idmançılar çıxış etdilər.

Sərbəst güləşçi **Turan Bayramov** dedi: Cənab Prezident, ilk növbədə, dəyərli vaxtınızı ayırıb bizi qəbul etdiyiniz üçün sərbəst güləş milli komandası adından Sizə təşəkkürlərimizi bildiririk. Ölkəmizi Avropa çempionatında layiqincə təmsil etdik. Komandamız ardıcıl surətdə ikinci dəfədir Avropa çempionu olur. Sizin bizi qəbul etməyiniz məsuliyyətimizi daha da artırır, bizə böyük bir stimul verir. Mən də inanıram və əlimdən gələni edəcəyəm ki, gələcəkdə qarşınıza qızıl medalla çıxım.

Yunan-Roma güləşçisi **Həsrət Cəfərov** dedi: Cənab Prezident, ilk növbədə, Sizi salamlayıram. Bizi qəbul etdiyiniz üçün çox sağ olun. Bildiyiniz kimi, Albaniyanın paytaxtı Tiranada keçirilən Avropa çempionatında qızıl medal qazandım. Bu, mənim ümumilikdə dördüncü qızılımdır və yarış həqiqətən də çox çətin keçdi. Dördqat Avropa çempionu kimi Azərbaycan yunan-Roma güləşi tarixində bir rekorda imza atdım. Bizi belə dəstəklədiyiniz, bizə göstərdiyiniz diqqət və qayğı üçün Sizə öz təşəkkürümüzü bildiririk. Sizin diqqət və qayğınız bizim üçün ən böyük məsuliyyətdir. Çox sağ olun.

Qadın güləşçi **Jalə Əliyeva** dedi: Cənab Prezident, bu gün burada çıxış etmək mənim üçün böyük şərəfdir. Mən dörd il bundan qabaq da Sizinlə görüşdə iştirak etmişdim. 23 yaşadək güləşçilər arasında Avropa çempionu olmuşdum. Bu dəfə isə böyüklərdən ibarət yarışda Avropa mükafatçısı oldum. Biz Sizin diqqət və qayğınızı hər zaman hiss edirik. Bizi dəvət etdiyiniz üçün təşəkkür edirəm. Çox sağ olun.

***

**Prezident İlham Əliyev** dedi: Çox sağ olun. Komandamız çoxmillətlidir, hələ hamı Azərbaycan dilini kifayət qədər bilmir, ona görə də rus dilində bir neçə söz demək istərdim. Hamını bir daha təbrik etmək və Azərbaycanı beynəlxalq arenada belə layiqincə təmsil etdiyinizə görə təşəkkürümü bildirmək istərdim. Əlbəttə, Avropa çempionatında belə bir mühüm, deyərdim ki, tarixi qələbədən danışarkən xüsusi qeyd etmək istərdim, həm yunan-Roma güləş növündə, həm də sərbəst növdə güləşçilər birinci yeri qazanıblar. Yəni bu, çox əhəmiyyətlidir.

Qızlara gəldikdə onların da medalçılar arasında olmalarına çox şadam. Bu, qızlar arasında da gənc nəslin güləşə böyük maraq göstərdiyindən xəbər verir. Əminəm ki, gələcəkdə də qızlar qızıl medal qazanacaqlar, mən buna şübhə etmirəm. Qızlar arasında medalçılar daha çox ola bilərdi, amma kiminsə bəxti gətirmədi. Ola bilər ki, hər hansı səhvlər də oldu, lakin bu mühümdür, çünki həm sərbəst, həm yunan-Roma, həm də qadın güləşi üzrə bütün istiqamətlər Azərbaycanda inkişaf edir.

Milli komandada belə yaxşı ab-havanın, ruh yüksəkliyinin olmasına çox şadam, hamı vahid ailə kimi bir-birinin qələbəsinə sevinir və bu, çox qiymətlidir.

Əlbəttə, qeyd etməli olduğum daha bir vacib məqam ondan ibarətdir ki, tanınmış idmançılar daim cəmiyyətin diqqət mərkəzindədirlər. İdmançılarımızın həm cəmiyyətdə, həm də məişətdə özlərini layiqincə aparmaları məni medallardan da çox sevindirir. Məşhur idmançıların, çempionların adi həyatda məhz bu səviyyəni saxlaya bilmədiklərinə dair tarixdə çoxlu nümunələr var və bir müddət sonra onlara idmançı kimi münasibət həmin səhvlər və ya yanlış hərəkətlər ucbatından pis istiqamətdə dəyişir. Bizdə isə artıq dediyim kimi, ən azı mənim təqribən 30 ildir Milli Olimpiya Komitəsinə rəhbərlik etdiyim dövrdə xatırladığıma görə, belə hallar olmayıb. Bu, çox vacibdir. Medallardan heç də az əhəmiyyətli olmayan odur ki, çempionlar və mükafatçılar, həmçinin cəmiyyətdə və çalışdıqları kollektivlərdə yüksək mənəvi keyfiyyətlər nümayiş etdirsinlər. Bu belə də olmalıdır. Əlbəttə ki, burada çempionlarımızın – Olimpiya çempionlarının, Avropa çempionlarının və dünya çempionlarının nümunəsi var. Dediyim kimi, vaxtilə federasiyaya rəhbərlik edənlərə və məşqçilərə azarkeşlik etmişəm, bu gün isə onlar öz tələbələrinə azarkeşlik edirlər. Bu, bizim regionumuzda ənənələrin davamlılığıdır. Tarixdə ənənələr həmişə mühüm rol oynayıb və bu, Azərbaycan cəmiyyətində və bütövlükdə Qafqaz regionunda davam edir. Bu, bizi daha da yaxınlaşdırır.

Buna görə də idmançılarımızın həm mübarizə meydanında, həm də ondan kənarda özlərini necə ləyaqətli apardıqlarını xüsusi vurğulamaq istərdim. Hakim səhvləri və ya ədalətsizliklər baş verdikdə belə, ləyaqətli davranışı qorumaq həmişə vacibdir. Çünki bəzən qərəzlilik olur – biz bunu Azərbaycan idmançılarına qarşı təkcə güləşdə deyil, xüsusən də Avropa yarışlarında dəfələrlə görmüşük. Maraqlıdır, bir qayda olaraq Avropa yarışlarında Azərbaycan idmançılarına qarşı ədalətsizlik dünya çempionatlarına nisbətən daha çox olur. Yəqin ki, Avropada heç də hamı Azərbaycanın Avropa çempionatlarında iştirak etməsinə və təkcə iştirakına deyil, həm də bütün Avropa ölkələrinə qalib gəlməsinə sevinmir.

Məhz bu səbəbdən bir daha məmnunluqla qeyd etmək və arzulamaq istərdim ki, harada olmağınızdan asılı olmayaraq, – xalça üzərində və xalçadan kənarda, – layiqli davranış prinsiplərinə daim sadiq qalmağa davam edəcəksiniz. Bu, ölkəmizi təmsil edən bütün idmançılara aiddir.

Beləliklə, bir daha təbrik edirəm və yeni qələbələr arzulayıram. Sağ olun.

***AZƏRTAC***

# Lətif Kərimovun 120 illiyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2026-cı ilin noyabr ayında Azərbaycan təsviri sənətinin böyük ustası, görkəmli xalçaşünas, pedaqoq və sənətşünas alim, SSRİ Dövlət mükafatı laureatı, Xalq rəssamı Lətif Hüseyn oğlu Kərimovun 120 illiyi tamam olur.

Dünya mədəni irs xəzinəsində şərəfli mövqeyə malik Azərbaycan xalça mədəniyyətinin hazırkı inkişaf səviyyəsinə yüksəlməsində Lətif Kərimovun təqdirəlayiq xidmətləri vardır. Onun eskizləri əsasında toxunmuş xeyli sayda süjetli, portret xalçalar və monumental xalılar milli xalçaçılığın parlaq ənənələrini özündə yaşadan misilsiz sənət nümunələridir. Fitri istedadla yaradılan və naxışlarının ifadəliliyi, bitkin üslubu ilə seçilən dərin koloritli əsərləri sənətkara dövrün məşhur xalça ustalarından biri olaraq xüsusi şöhrət qazandırmışdır. Lətif Kərimov Azərbaycan xalçalarının ornamental, kompozisiya xüsusiyyətlərini müəyyənləşdirmiş və mükəmməl sistemli təsnifatını işləyib hazırlamışdır. Xalça sənətinin beynəlxalq miqyasda mahir bilicisi kimi tanınmış alimin bu istiqamətdə apardığı fundamental tədqiqatlar indi də ən çox istinad olunan mötəbər mənbələrdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalq tətbiqi sənətinin inkişafı, tədqiqi və təbliği işinə dəyərli töhfələr vermiş görkəmli xalça rəssamı Lətif Kərimovun 120 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Xalq rəssamı Lətif Kərimovun 120 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 aprel 2026-cı il**

# Y.P.Kamayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə və vəzifə borcunu yüksək peşəkarlıqla yerinə yetirdiyinə görə Yuriy Petroviç Kamayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 aprel 2026-cı il**

# "Dövlət orqanları (qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** "Dövlət orqanları (qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin həyata keçirilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 aprel 2026-cı il**

# Ermənistana növbəti tranzit yük yola salınıb

**Azərbaycan ərazisindən tranzit keçməklə Rusiyadan Ermənistana növbəti yük tədarükü həyata keçirilib.**



4 vaqondan ibarət, ümumi çəkisi 279 ton olan taxıl və 3 vaqondan ibarət, çəkisi 203 ton təşkil edən gübrə dünən Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə yola salınıb.

Yüklərin dəmir yolu vasitəsilə daşınması müəyyən olunmuş qrafikə uyğun şəkildə həyata keçirilib və tranzit prosesində bütün zəruri logistika və təhlükəsizlik tədbirləri təmin edilib.

Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 25 min tondan çox taxıl, 1600 tondan çox gübrə və 68 ton qarabaşaq göndərilib.

Xatırladaq ki, tranzitlə yanaşı, Azərbaycandan Ermənistana neft məhsullarının ixracı da davam edir. İndiyədək Azərbaycandan Ermənistana 8500 tondan çox dizel, 979 ton Aİ-92 və 2955 ton Aİ-95 benzini ixrac olunub.

***XQ***

# Milli Məclisdə qəbul və görüşlər



**Milli Məclisin Sədri Sahibə Qafarova Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auld ilə görüşüb.**

Görüşdə dost və tərəfdaş ölkələr olan Azərbaycan və Birləşmiş Krallıq arasında münasibətlərin qarşılıqlı etimad və dəstəyə əsaslanaraq, siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Yüksəksəviyyəli səfərlərin və görüşlərin ölkələrimiz arasında əməkdaşlığın gündəliyinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti önə çəkilərək, Prezident İlham Əliyevin Birləşmiş Krallığa səfərləri, Birləşmiş Krallığın Baş naziri Kir Starmerin COP29-da iştirak üçün ölkəmizə səfəri, həmçinin qarşı tərəfdən reallaşdırılan bir sıra digər yüksəksəviyyəli səfərlər qeyd olunub.

Söhbət zamanı bildirilib ki, iqtisadi əlaqələr ölkələrimiz arasında ikitərəfli münasibətlərin əsas tərkib hissələrindən biridir. Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Birləşmiş Krallıq iqtisadiyyatımıza ən çox investisiya yatıran ölkədir. Milli Məclisin Sədri bu kontekstdə enerji sahəsində əməkdaşlıq əlaqələrini xüsusi vurğulayıb.

Səfir Fergus Auld ölkələrimiz arasında mövcud olan sıx əməkdaşlıq və tərəfdaşlıqdan məmnunluğunu ifadə edərək, iki ölkə arasında əməkdaşlığın uğurla davam etdiyini və energetika, alternativ enerji, təhsil, yüksək texnologiyalar və bir sıra digər istiqamətlərdə geniş perspektivlərin olduğunu bildirib.

***

**Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Yunanıstanın ölkəmizdəki səfiri Maria K.Papakonstantinu ilə də görüşüb.**

Səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən Sahibə Qafarova ona işində uğurlar arzulayıb.

Görüşdə ölkələrimizin müxtəlif sahələrdə əməkdaşlıq etdiyi diqqətə çatdırılaraq, siyasi dialoq və yüksəksəviyyəli səfərlərin və görüşlərin münasibətlərin inkişafında müstəsna rolu vurğulanıb.

Söhbət zamanı parlamentlərarası münasibətlər də nəzərdən keçirilib.

Görüşdə Maria K.Papakonstantinu ölkəmizə səfir təyin olunmasından şərəf hissi keçirdiyini bildirərək, fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin daha da dərinləşdirilməsinə töhfə verməyə çalışacağını söyləyib.

***

**Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Postkolonial dövrdə gənclərin rolunun gücləndirilməsi" mövzusunda paytaxtımızda keçirilən beynəlxalq gənclər forumunun bir qrup iştirakçısı dünən Milli Məclisdə olub.**

Əvvəlcə plenar iclas zalı ilə tanış olan qonaqlara parlamentin tarixi, fəaliyyəti, burada işin təşkili və onun strukturları haqqında ümumi məlumat verilib.

Sonra qonaqlar Milli Məclisin inzibati binasını gəziblər. Müstəqil Azərbaycanın memarı, ümummilli liderin adını daşıyan Heydər Əliyev xatirə zalı ilə tanışlıq zamanı qonaqlar ulu öndər Heydər Əliyevin həyat yolunu, siyasi və dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

*XQ*

# Azərbaycan–Kolumbiya mina problemi müzakirəsi



**Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycanda səfərdə olan Kolumbiyanın xarici işlər nazirinin müavini Xuana Kastro Santamaria ilə görüşüb. H.Hacıyev bu barədə "X" sosial media hesabında paylaşım edib.**

Prezidentin köməkçisi bildirib ki, xanım Santamaria ilə səmərəli müzakirələr aparıb:

"Ölkələrimiz arasında siyasi dialoqun hazırkı səviyyəsi ümidvericidir. İqtisadi və ticari, mədəni və humanitar, turizm və insanlararası mübadilələr sahələrində əməkdaşlığı genişləndirmək üçün mühüm potensial mövcuddur".

Həm Azərbaycan, həm də Kolumbiyanın mina problemindən əziyyət çəkdiyini vurğulayan H.Hacıyev Kolumbiyanın XİN başçısının mina ilə bu sahədə əməkdaşlıq və təcrübə mübadiləsi imkanlarını müzakirə etdiklərini diqqətə çatdırıb.

"Azərbaycanda ispan dilinin təşviqinə verdiyi dəstəyə görə Kolumbiya tərəfinə minnətdarlığımızı bildiririk", – PA-nın şöbə müdiri vurğulayıb.

***

**Dünən Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri İssam bin Saleh əl-Cuteyli ilə də görüşüb.**

Bu barədə Səudiyyə Ərəbistanının Azərbaycandakı səfirliyinin "X" sosial şəbəkə hesabında məlumat yayılıb.

"İssam bin Saleh əl-Cuteyli Azərbaycan Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ilə görüşüb", – paylaşımda bildirilib və əlavə olunub ki, söhbət zamanı qarşılıqlı maraq doğuran mövzular müzakirə edilib.

*XQ*

# Heydər Əliyev Fondunun Vatikanda yeni layihələri





**Vatikan şəhər-dövlətinin qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında bərpa işlərinə dair daha bir müqavilə imzalanıb.**

Vatikanda keçirilən görüşdə sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini imzalayıblar.

Yeni layihə çərçivəsində Müqəddəs Pavel Bazilikasının daxilində yerləşən Müqəddəs Pavel və Müqəddəs Pyotr heykəllərinin, həmçinin Bazilikanın həyətində Müqəddəs Pavel və Müqəddəs Luka heykəllərinin bərpası nəzərdə tutulub.

Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvinin müşayiəti ilə bazilika kompleksinə baxış zamanı Heydər Əliyev Fondu tərəfindən aparılmış işlər və növbəti mərhələlərdə nəzərdə tutulan işlər barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Müqəddəs Pyotr Kilsəsindən sonra Vatikanın ikinci ən böyük kilsəsi olan Müqəddəs Pavel Bazilikası Roma şəhərində dörd əsas papalıq bazilikalarından biridir. Monumental ölçüləri, zəngin mozaikaları və uzun sütun sıraları ilə seçilən bazilika dini, mədəni abidə kimi böyük əhəmiyyət daşıyır və hər il minlərlə zəvvar və turist tərəfindən ziyarət olunur.

Bərpa işləri zamanı müasir texnologiyaların tətbiq olunması nəzərdə tutulur. Xüsusilə lazer texnologiyası vasitəsilə səthin təmizlənməsi və təbiətə zərər verməyən bioloji vasitələrlə konservasiya işlərinin aparılması planlaşdırılır.

Bazilikada, həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilmiş əvvəlki bərpa və tikinti işləri ilə tanışlıq olub.

Qeyd edək ki, 2024-cü il sentyabrın 11-də Müqəddəs Taxt-Tac tərəfindən 25 ildən bir qeyd edilən "Müqəddəs Yubiley İli" çərçivəsində Vatikan şəhər-dövlətinin qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasının mərmər örtüklərinin və dekorativ elementlərinin qorunmasını, təhlükəsizliyinin təmin olunmasını və bərpasını nəzərdə tutan sənəd imzalanmışdı. Həmin müqavilə çərçivəsində Bazilikada aparılan bərpa və konservasiya işləri artıq uğurla tamamlanıb.

*XQ*

# XİN-də BƏM hakimliyinə namizədlə görüş



**Aprelin 30-da xarici işlər naziri Ceyhun Bayramov Koreya Respublikasının Beynəlxalq Ədalət Məhkəməsinin hakimi vəzifəsinə namizədi Cin-Hyon Paiki ilə görüşüb.**

Görüş zamanı beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətlər, o cümlədən qarşıdan gələn Beynəlxalq Ədalət Məhkəməsinin hakimi seçkiləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Cin-Hyon Paik öz peşəkar fəaliyyəti, beynəlxalq hüquq sahəsində təcrübəsi və BƏM-də prioritet kimi irəli sürməyi planlaşdırdığı istiqamətlər barədə ətraflı məlumat verib.

Ceyhun Bayramov Azərbaycanın beynəlxalq hüququn aliliyinə, çoxtərəfli əməkdaşlığa və beynəlxalq məhkəmə institutlarının rolunun gücləndirilməsinə verdiyi önəmi vurğulayıb. Bu baxımdan Azərbaycanın BƏM hakimi seçkilərinə hərtərəfli yanaşdığı və namizədlərin peşəkar keyfiyyətlərinin diqqətlə nəzərdən keçirildiyi bildirilib.

*XQ*

# AYİB ölkəmizə 3,7 milyard avro yatırıb





**Aprelin 30-da maliyyə naziri Sahil Babayev ölkəmizdə səfərdə olan Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Türkiyə və Qafqaz üzrə İcraçı direktoru xanım Elizabetta Falçettinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə AYİB arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri, mövcud layihələrin icra vəziyyəti və gələcək təşəbbüslər müzakirə olunub.

Sahil Babayev bildirib ki, AYİB ilə əməkdaşlıq ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafında mühüm rol oynayır və bankın 2025–2030-cu illəri əhatə edən Ölkə Strategiyası çərçivəsində iqtisadi şaxələndirmə, özəl sektorun inkişafı, yaşıl keçid və regional əlaqəliliyin gücləndirilməsi istiqamətlərində davam etdirilir.

Qeyd olunub ki, indiyədək AYİB tərəfindən Azərbaycanda 202 layihə üzrə 3,712 milyard avro investisiya yatırılıb. Hazırda bankın ölkəmiz üzrə portfeli 898 milyon avro təşkil edir və bunun əhəmiyyətli hissəsi özəl sektorun payına düşür.

E.Falcetti Azərbaycan ilə əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edərək, AYİB-nin ölkəmizdə özəl sektorun dəstəklənməsi, yaşıl maliyyə alətlərinin genişləndirilməsi və dayanıqlı infrastrukturun inkişafı istiqamətlərində birgə təşəbbüslərin davam etdirilməsinə hazır olduğunu bildirib.

Görüş zamanı, həmçinin Şəki şəhəri üzrə su təchizatı və tullantı suları layihəsi, eləcə də Böyük Bakı–Abşeron Su Proqramı çərçivəsində nəzərdə tutulan təşəbbüslər ətrafında da fikir mübadiləsi aparılıb.

*XQ*

# Dayanıqlı inkişafın ailə hədəfləri





**Aprelin 30-da Bakıda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Dayanıqlı inkişaf: Ailə, qadın və uşaq siyasəti" mövzusunda konfrans keçirilib.**

Komitənin sədri Bahar Muradova açılış nitqi ilə çıxış edərək bildirib ki, son 30 il ərzində müstəqil Azərbaycan dövlətinin qurulması, möhkəmləndirilməsi və inkişafı prosesində insan kapitalına yönəlik siyasətin mərhələli şəkildə formalaşdığı və bu gün artıq sistemli bir xarakter aldığı aydın görünür. Bu inkişafın ilk 8 ili mürəkkəb, məsuliyyətli və taleyüklü bir mərhələ olub.

Dövlət Komitəsinin sədri qeyd edib ki, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi strateji kurs bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla və müasir çağırışlara uyğun şəkildə davam etdirilir. Bu kursun mərkəzində insan amili dayanır və bu yanaşma dövlət siyasətinin bütün istiqamətlərində öz əksini tapır.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva qeyd edib ki, bu il "Uşaq hüquqları haqqında" Qanunun və digər əlaqəli normativ aktların qəbulu uşaq hüquqlarının daha etibarlı təmini baxımından xüsusi önəm daşıyır.

Elm və təhsil naziri Emin Əmrullayev təhsilin mərkəzi, ən vacib iştirakçısının uşaqlar olduğuna diqqət çəkib: "Yeni təhsil uşaqlar üçündür və onlar haqqındadır. Ən vacibi isə uşaqların öyrənməsi ilə bağlıdır. Digər maraqlı tərəflər uşaqların həyatını, təhsilini daha yaxşı etmək üçün əllərindən gələni etməlidirlər".

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev isə vurğulayıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində 2018-ci ildən etibarən 4 milyon insanı əhatə edən 5 sosial islahat paketi reallaşdırılıb. Bu islahatların əsas məqsədi məhz cəmiyyətin həssas qrupların, o cümlədən aztəminatlı ailələrin, qadınların və uşaqların sosial müdafiəsinin gücləndirilməsidir.

Daha sonra "Ailə, qadın və uşaq məsələləri üzrə tematik istiqamətlərdə müzakirələr" mövzulu paneldə ailə, qadın və uşaq məsələləri müxtəlif aspektlərdən kompleks şəkildə təhlil olunub.

*XQ*

# Qubada WUF13 Festivalı

**Aprelin 30-da ölkə ictimaiyyətinin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) haqqında məlumatlandırılması məqsədilə Quba şəhərində WUF13 Festivalı keçirilib.**

Günün birinci yarısında Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında WUF13 ilə bağlı məlumatlandırma sessiyası təşkil edilib. İclasda universitetin müəllim və tələbə heyəti, Quba şəhərində yerləşən müxtəlif məktəblərin və liseylərin şagirdləri, eləcə də Özbəkistandan ADPU-ya gələn müəllimlər iştirak ediblər.

Quba Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər sektorunun müdiri Anar Məmmədov, ADPU Quba filialının direktoru Yusif Alıyev, WUF13 Azərbaycan Əməliyyat Şirkətinin kommunikasiya meneceri Emin Hüseynzadə WUF13 barədə ətraflı məlumat veriblər. WUF13-ün ölkəmiz üçün əhəmiyyəti və onun çərçivəsində müzakirə olunacaq əsas mövzular diqqətə çatdırılıb.

WUF13 Festivalı axşam saatlarında açıq havada ictimai proqramlarla davam edib.

*XQ*

# Ağverəndə ilk: Bakı–İrəvan sülhünün rəmzi və əməli yönü

## *Yaxud ümidlərə işıq salan ikitərəfli görüş*

**AZAL-a məxsus təyyarə İrəvanın Zvarnots Beynəlxalq Hava Limanındadır. İllər əvvəl bu barədə danışmaq, sadəcə, mümkünsüz idi, yuxu kimi görünürdü. O yuxu ki, onun nə vaxtsa çin olacağı barədə bəlkə heç düşünülmürdü də.**

Bəli, aprelin 29-da müstəqillik illərində ilk dəfə olaraq Azərbaycanın rəsmi nümayəndə heyəti Ermənistanda səfərdə oldu. Səfər zamanı Ermənistanın Ağverən bölgəsində hər iki ölkənin Baş nazirlərinin müavinləri – Şahin Mustafayevin və Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 13-cü iclası keçirildi. İclasda hansı məsələlər müzakirə edildi, bu barədə söz açacaq, müvafiq təhlillər aparacağıq. Hələlik isə...

**ARAYIŞ:** *Ağverən İrəvan quberniyasının Novobayazid qəzasında kənd olub. O kənd 1950-ci ildə ləğv edilib. 1590 və 1728-ci ilə aid mənbələrdə isə onun adı Aqviran kimi göstərilib. Azərbaycan dilində ağ (rəng bildirir) və viran(ə) "xarabalıq" sözlərindən ibarətdir. Kəndin digər adı isə Kəbir-Əli, daha doğrusu, "Kəbir eli"dir və mənşəcə türk mənşəli xəzərlərin Kəbər tayfasına mənsub ailələrin "Ağ viranə" adlı yerdə məskunlaşması nəticəsində yaranıb. Nəzərə alaq ki, XVIII əsrin əvvəllərinə aid mənbələrdə İrəvan əyalətində Qaraviran, Qaraörən, Qaracaörən, Tülküviran, Həsənviran, Ortaviran və başqa kənd adlarına rast gəlinir.*

Yeri gəlmişkən, ölkəmizin Laçın və Kəlbəcər rayonlarında da Ağverən toponimləri var. Yenidən Ermənistandakı Ağverənə diqqət yetirərək bildirək ki, 1949-cu ildə kəndin türk-müsəlman əhalisi Azərbaycana köçürülüb. Bundan əvvəl isə, yəni 1918-ci ildə Ağverənə Türkiyədən gəlmə haylar yerləşdirilib və beləliklə, ermənilərlə azərbaycanlılar kənddə birgə yaşayıblar.

Hesab edirik ki, məhz birgə yaşayış amili mühüm əhəmiyyət daşıyan iclasın məhz Ağverəndə keçirilməsi baxımından, kifayət qədər, tutarlı rəmzi anlam daşıyır. Yəni Azərbaycanın rəsmi nümayəndə heyəti Ermənistana ilk səfərini gerçəkləşdirir və danışıqlar hər iki xalqın nümayəndələrinin bir zamanlar birlikdə ömür sürdükləri bölgədə keçirilir. Deməli, keçmişin ənənələrinin bərpasının vacibliyi üzərində dayanılır. Digər tərəfdən, Ağverən hazırda Ermənistanın Kotayk vilayətində yerləşir və ölkənin tanınmış kurort və istirahət mərkəzlərindən biridir. Hər iki xalq müharibələrdən, qanlı qarşıdurmalardan bezib, artıq onlar rahat nəfəs almalı, dincəlməlidirlər. Növbəti rəmzi anlam da məhz bu sayıla bilər.



Bəli, Şahin Mustafayevin rəhbərlik etdiyi rəsmi nümayəndə heyətinin Ermənistana səfəri və bu zaman hər iki ölkənin müvafiq komissiyalarının iclasının keçirilməsi Bakı-İrəvan münasibətlərində müşahidə olunan praqmatik normallaşma və texniki institusionallaşma prosesini əks etdirir. Birincisi, tərəflər artıq siyasi bəyanatlardan daha çox praktik və texniki mərhələyə keçiblər. Nəinki keçiblər, o cümlədən bu mərhələni dolğunlaşdırmaqda israrlıdırlar. İkinci məqam kimi bilavasitə delimitasiya prosesinin fundamentallaşdırılması üzərində dayanmaq mümkündür. Nəzərə alaq ki, müstəqillik illərində Azərbaycan və Ermənistan arasında sərhəd olmayıb. SSRİ dövründəki sərhədə gəldikdə, onun xeyli dərəcədə şərti olduğu məlumdur. Elə eyni zamanda, buna görə də iclas zamanı 3 təlimatın razılaşdırılması irəliyə doğru atılmış mühüm addım sayılmalıdır. Söhbət ekspert qruplarının iş qaydasına, delimitasiya xəritəsinin hazırlanmasına və sənədlərin tərtibatı və nəşrinə dair təlimatlardan gedir.

Deməli, ümumən delimitasiya prosesi sistemli məcraya düşür, hüquqi çərçivəyə salınır və standartlaşdırılmış məzmun daşıyır. Başqa sözlə ifadə etsək, tərəflər sərhədi necə müəyyən etməkdən daha çox, müəyyənləşməni hansı qaydalarla aparma mərhələsindədirlər. Əlbəttə ki, bu, böyük irəliləyişdir.

Daha bir məqama nəzər salaq. İclasdakı müzakirələr onu göstərir ki, mövzu yalnız sərhəd məsələləri ilə məhdudlaşmır. Toplantıda bir neçə mühüm etimad elementi barədə söz açılır. Bu baxımdan tranzit daşımalarını, yəni Azərbaycan ərazisindən Ermənistana yüklərin çatdırılmasını – real əməkdaşlıq nümunəsini vurğulamaq mümkündür. İclasda, habelə, kommunikasiya xətlərinin açılması istiqamətində praktik addımlar diqqətə çatdırılır.

Digər məqam, belə demək mümkünsə, enerji əməkdaşlığıdır ki, indiki vəziyyətdə ölkəmizin Ermənistana neft məhsullarını tədarük etməsi həm iqtisadi münasibətlərin başlanğıcıdır, həm də qarşılıqlı asılılıq yaradan – ölkələri bir-birinə bağlayan faktordur. Bu onu göstərir ki, tərəflər siyasi dialoqu iqtisadi əməkdaşlıqla paralel aparır. Yəni sülh yolunda vaxt itkisinə yol verilmir. Əlbəttə, siyasi iradə faktoru önəmlidir. Heç şübhəsiz, iclas Azərbaycan və Ermənistan liderlərinin siyasi iradəsindən qaynaqlanır. Belə nəticəyə gəlmək olar ki, bütövlükdə Bakı-İrəvan sülh prosesi, necə deyərlər, yuxarıdan aşağıya idarə olunan trayektoriyaya malikdir. Bu isə, eyni zamanda, normallaşmadakı mümkün risklərin aradan qaldırılmasına son dərəcə böyük dəstək mahiyyəti daşıyır.

Risklərə gəlincə, delimitasiya xəritələri üzərində fikir ayrılıqlarının, daxili siyasi və mənəvi motivlərin mövcudluğu, xüsusən qarşıdan parlament seçkilərinin gəldiyinə görə Ermənistan hakimiyyətinə daxildəki revanşist və şovinistlərin təzyiqləri, habelə xarici aktorların təsiri üzərində dayanmağa dəyər. Məsələn, bu ay Niderland və Belçika parlamentləri yaydıqları qərarlı qətnamələrdə Azərbaycan və Ermənistan sərhədindəki durumu "gərgin" adlandırdılar, bildirdilər ki, guya hər an müharibə başlaya bilər. Haqqında söz açdığımız toplantıda müzakirəyə çıxarılan məsələlərin məzmunu onu göstərir ki, sülh prosesi bu sayaq, habelə barəsində söz açmadığımız digər neqativ ritorika və təmayüllərdən sığortalanmış durumdadır.

Ümumi nəticə budur ki, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın Ermənistanda, Ağverəndə keçirilmiş 13-cü iclası Bakı-İrəvan münasibətlərinin münaqişə mərhələsindən idarə olunan normallaşma mərhələsinə keçdiyini, sərhəd delimitasiyasının artıq real və geridönməz prosesə çevrildiyini, iqtisadi əməkdaşlığın siyasi prosesi dəstəkləyən əsas alətə çevrildiyini göstərdi.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Karapetyanın "fəlakət tezisləri"

## *Hay siyasi korafəhmliyinin məğlubiyyət unutqanlığı*

**Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca, siyasi səhnədə gərginlik artır. Gərginliyi artıran müxalifyönümlü revanşist və şovinist düşərgədir. Həmin düşərgədə yer alan, erməni əsilli rusiyalı biznesmen, hazırda ev dustaqlığında olan "Güclü Ermənistan" partiyasının lideri Samvel Karapetyanın yerli televiziya kanallarına müsahibəsi bu baxımdan diqqət çəkməkdədir.**

S.Karapetyan, əslində, müsahibə verməyib, əməlli-başlı sərsəmləyib. Onun dediklərindən gəldiyimiz qənaət fikrimizin sübutudur. Elə isə Rusiyanın Ermənistanı geri qaytarmaq məqsədli "pas" kartına çevrilmiş Samvelin hansı məqamları qabartdığına, nə kimi spekulyasiyalara baş vurduğuna nəzər salaq.



Birincisi, özünü ucuz populizmə kökləmiş Karapetyanın sözlərinə görə, son tədqiqatlar Baş nazir Nikol Paşinyanın reytinqinin çox aşağı olduğundan xəbər verir. Görəsən, o, bu ağ yalanı haradan götürüb? Paşinyanın reytinqi kifayət qədər yüksəkdir. Ən azı, göstərici baxımından Karapetyan onunla müqayisəyə gələ bilməz. Deməli, iş adamının "baş nazir vəzifəsini icra edən şəxsə qalib gəlmək tam realdır" fikri özünü aldatmaqdan, blefdən başqa bir şey deyil. Heç şübhəsiz, bu deyim dərin psixoloji sarsıntıdan qaynaqlanır. Axı vaxt daralır, gələn ayın ilk həftəsində seçkidir. İkincisi, S.Karapetyan deyib ki, əgər ona qarşı cinayət təqibi və erməni kimliyinə qarşı hücumlar olmasaydı, özünü siyasətdə təsəvvür etməzdi. Fikirdə məntiqsizlik var. Məlumdur ki, bu əbləhlə bağlı cinayət təqibinə səbəb qeyri-qanuni fəaliyyətidir. Kimliyə qarşı hücuma gəldikdə, burada da anlaşılmazlıq var.

Diqqət yetirək, S.Karapetyan hay hakim komandasının bütün ermənilərin katolikosu II Qareginə qarşı hücumları kontekstində "parlamış", ikincini müdafiə edən tərəfə çevrilmişdi. Sirr deyil ki, bu "parlamanın", Şimalın soyuq küləkləri ilə birbaşa əlaqəsi var. Yəni Karapetyan Moskvadan siyasi proseslərə qoşulmaq əmri alıb hərəkətə keçmişdi. Yeri gəlmişkən, vaxtilə oxşar əmri Qarabağdakı separatçı rejimdə oyuncaq "dövlət naziri" postunu tutmuş Ruben Vardanyan da almışdı. O Vardanyan ki, hazırda Bakıda həbsxana həyatı yaşayır və bu mənada, Rubenlə Samvel arasında aqibət yaxınlığı var...

Növbəti məqama keçərək bildirək ki, Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevin başçılığı ilə ölkəmizin nümayəndə heyətinin İrəvana səfəri və sərhəd komissiyalarının Ağverəndəki birgə iclası xüsusunda erməni mediası, guya, tərəflərin 300 min azərbaycanlının geri qayıdışını müzakirə etdiklərinə dair dezinformasiya yaydı. Şübhəsiz, bunu müxalif düşərgə qondarmışdı. Elə sərsəm Karapetyanın yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirlər də bunu deməyə əsas verir. Təxminən belə: 300 min azərbaycanlının köçürülməsi planları Ermənistan ordusunda minlərlə azərbaycanlı hərbçinin meydana çıxmasına gətirib çıxaracaq ki, bu da ölkənin təhlükəsizliyi üçün təhdiddir. Görünür, siyasətdə anca Samvel olmalısan ki, bu sayaq "uzaqgörən" proqnozlar verəsən.

Deməli, "300 min azərbaycanlı" ritorikasının kimin yastığının altından çıxdığı aydın oldu. O da məlumdur ki, hazırda erməni iqtidarının müxalifətə qarşı əsas mübarizə tezisi sülhdür. Birincilər əks düşərgə təmsilçilərini sülhə və sabitliyə qarşı çıxmaqda günahlandırırlar və bu ritorika erməni ictimai rəyində də böyük populyarlıq qazanır. Çünki sadə ermənilər rəallığın fərqindədirlər. Onlar yaxşı başa düşürlər ki, karapetyanlar, koçaryanlar Rusiyanın Ermənistan ssenarisinin tərkib hissəsidir. O ssenari ki, Cənubi Qafqazda itirilmiş mövqelərin bərpasını hədəf seçib. Bunun üçün isə daimi gərginlik ocağı lazımdır. Söhbət artıq tarixə çevrilmiş Qarabağ münaqişəsinə bənzər gərginlikdən gedir.

Əlqərəz, S.Karapetyan erməni ictimai rəyində sülh mövzusunun populyarlığından xəbərdardır. Elə cə də xalqın müxalifəti müharibə tərəfdarı kimi tanıdığının fərqindədir. Ona görə də iz azdırır. Amma bunu da düz-əməlli edə bilmir. O bildirir ki, hakimiyyət dəyişikliyi baş versə, Azərbaycanla müharibənin qarşısını almaq mümkün olacaq. Deməli, hər şey aydındır. Axı müharibə yoxdur, üstəlik, Azərbaycanla Ermənistan arasında münasibətlər qurulur. Görəsən, Samvel olmayan müharibənin qarşısını almaq dedikdə nəyi nəzərdə tutur? Karapetyan düşünür ki, onu hakimiyyətə gətirənlər Azərbaycana elə təzyiq göstərəcəklər ki, ikinci heç bir müqavimət göstərmədən prinsiplərindən geri çəkiləcək. Hər halda, bu, yalnız Samvel kimi siyasi korafəhmlərin ağlından keçə bilər.

...S.Karapetyanın "uzunmüddətli sülhün əsası güclü iqtisadiyyatdır: onsuz digər məsələlər barədə danışmaq mənasızdır" tezisinə nəzər salaq. Oxşar fikri bu günlərdə Ermənistanın ikinci prezidenti, tipik erməni xəstəliyinin daha parlaq daşıyıcısı Robert Koçaryan da dilə gətirmişdi. Yəni Ermənistan iqtisadi cəhətdən o qədər güclü hala gələcək ki, Azərbaycan ondan çəkinib ədalətli sülhlə razılaşacaq. Axı anadangəlmə avantüristlər indiki barış mühitini ədalətsiz və davamiyyətsiz durum sayırlar. Göründüyü kimi, Samvelin bu fikrində də məkr gizləntisi var.

S.Karapetyan onu da bildirib ki, özünün rəhbərliyi altında iqtisadi islahatlar regionlardan başlayacaq və vətəndaşların rifahının artırılması üçün ardıcıl addımlar atılacaq. Bu da boş söz yığınından başqa bir şey deyil. Çünki Ermənistan Samvelin yenidən vəd etdiyi Rusiya boyunduruğu dövrünü görüb. O dövrü ki, aclıq və səfalət, cinayətkarlıq və cəzasızlıq ölkəni başına almış və nəticədə yazıq ermənilər 2018-ci ildə Qərbin "Paşinyan planı"nı dəstəkləmək üçün ayağa qalxmaqdan başqa yol görməmişdilər.

S.Karapetyanın sözlərinə görə, Paşinyan Ermənistanı geosiyasi toqquşma mərkəzinə çevirir. Bütün beynəlxalq tərəfdaşlarla münasibətləri balanslaşdırmaq və region ölkələri ilə əlaqələri normallaşdırmaq üçün ölkəyə yeni, güclü liderlik lazımdır. Məlumdur ki, Samvelin Şimaldakı ağalarına belə bir Ermənistanın mövcudluğu lazım deyil. Onlar ölkəni özlərinin imperialist maraq və mənafelərinin icrası baxımından alət qismində görürlər. Bu mənada, Karapetyanın hələ həyata keçməyən güclü liderliyinin sabiq xunta idarəçiliyi sistemindən fərqlənməyəcəyi gün kimi aydındır. Nəzərə alaq ki, xalqı idarə etmək olar, qövm olaraq yanaşılan kütlə üçün isə quldurbaşı da kifayətdir. Məsələn, elə həmin Koçaryan və ondan sonrakı Serj Sarkisyan kimi Rusiyanın canişininə çevrilmiş, dövlətçilik təfəkküründən uzaq quldurbaşılar.

"Güclü Ermənistan"ın lideri Rusiyadan Ermənistanın strateji aktivlərini geri qaytardığını deyib. Yəni o, bəsit şəkildə sadə ermənləri pulla şirnikləndirir. Sonda isə Samvel yenidən "yüz minlərlə azərbaycanlının Ermənistana mümkün köçürülməsi planları" barədə söz açıb və bir daha bu planı "təhlükəli" adlandıraraq, hazırda ölkə üçün əsas təhdid yaradan iki şəxsin adını çəkib. Həmin şəxslərdən birinin baş nazir Paşinyan olması birmənalıdır. İkincisi isə, sən demə, Prezident İlham Əliyev imiş. Elə bu sərsəm deyimdən də görünür ki, Samvelin rəhbərlik etdiyi kəsim hakimiyyətə gələcəyi təqdirdə, Azərbaycanla sülh prosesi pozulacaq. Sülh prosesinin pozulmasının isə bütövlükdə regiona böyük fəlakətlər gətirəcəyinin əlavə sübuta ehtiyacı yoxdur. Ümumiləşdirmə apararaq belə qənaətə gəlmək mümkündür ki, Karapetyanın düşüncələri Ermənistan üçün yeni fəlakət tezisləridir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Erməni diasporunun muzdlu vəkili ifşa edildi

## *"Müstəqil ekspert" Luis Okampo hay lobbiçilik mexanizminin "vintciyi" imiş*

**Vaxtilə Azərbaycan əleyhinə sistemli şəkildə riyakar kampaniyalar aparan, hətta təhdid ritorikasından istifadə edən dairələrin gizli əməlləri ardıcıllıqla ifşa olunur. Bu prosesin növbəti "qurban"ı Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) sabiq prokuroru Luis Moreno Okampodur. Okampo və oğlu Tomasın yer aldığı gizli videogörüntülər beynəlxalq hüquq pərdəsi altında gizlənən qərəzli fəaliyyətin real mahiyyətini gün işığına çıxarır. Sözügedən görüntülərdə L.Okampo Azərbaycanın Qarabağ bölgəsində yaşamış ermənilərin hüquqlarının müdafiəsi bəhanəsi ilə həyata keçirdiyi hücumların əsl motivlərini və bu prosesin hansı siyasi-maddi maraqlara xidmət etdiyini etiraf edir. İbrətamiz dialoqdur:**

**"Luis Moreno Okampo:** *Əgər mənim bu cür işlərlə məşğul olan bir şirkətim olsa, biz bunları maya dəyərinə edə bilərik. Məsələn, hazırda komandamda çox güclü bir mütəxəssis var - o, vaxtilə Avropa Parlamentinin üzvü olub. O, hüquqi məsləhətçisi idi.*

**Həmsöhbət:** *Borrell?*

**Okampo:** *Hə, Josep Borrell. Deməli, bu şəxs indi mənim üçün Avropa Parlamentində çalışır. Və orada - Avropa Parlamentində mən müraciət edə, etiraz edə, birbaşa suallar ünvanlaya və Ursula fon der Lyayenə təzyiq göstərə bilərəm. Beləcə Avropa siyasətinə təsir etmək mümkündür. Bundan başqa, bir məsələ də ortaya çıxıb - əvvəllər bilmədiyim bir şey. Tamamilə yenidir: Avropa Ədalət Məhkəməsi çərçivəsində Komissiyanı Azərbaycanla bağlanmış müqavilənin ləğvinə məcbur etmək üçün bir iş qaldırılıb. Səbəb isə odur ki, müqavilədə Azərbaycanın insan hüquqlarına riayət etməsini tələb edən bənd var və iddiaya görə bu şərtə əməl olunmur.*

*Beləliklə, mən özüm üçün yeni bir fəaliyyət sahəsi açmış oluram. Niyə bu məhz indi vacibdir? Çünki Avropa İttifaqı hazırda daha böyük əhəmiyyət daşıyır - Donald Tramp artıq, müəyyən mənada, məhdudiyyətləri aradan qaldırır. Biz artıq hazırlanmış bir xətt üzrə irəliləyirik. Təzyiqi artırırıq və mən bunu ABŞ-dakı erməni lobbisi ilə birlikdə edəcəyəm. Beləliklə, biz orada daha real, həyata keçirilə bilən bir istiqamətdə təkan veririk. Mən divarı dağıtmalı deyiləm - qapı artıq açıqdır, biz sadəcə onu açırıq.*

**Tomas Moreno Okampo (oğlu):** *Bizim işimiz insanların koordinasiyasını təşkil etmək idi ki, onlara "baxın, görün nələr baş verir" deyib hamını məlumatlandıraq. Nələrin baş verdiyini anlamalarına kömək etmək. Məsələn, bu gün bir görüş oldu. Bu gün aktivistlərlə, iş adamları ilə, bu iş üzərində çalışan insanlarla, ümumilikdə ermənilərlə bağlı vəziyyət üzrə işləyənlərlə görüş var idi, düzdür? Dağlıq Qarabağ erməniləri ilə bağlı. Onlardan biri, gənc bir qadın, sosial media kampaniyasına rəhbərlik edir - çünki Ermənistanda hazırda böyük bir qarışıqlıq var. Seçkilərlə bağlı daxili mübahisələrin olduğu dərin qarışıqlıq. Beləliklə, bizim nail olmalı olduğumuz şey Paşinyanın, Baş nazirin hakimiyyətdən uzaqlaşdırılmasıdır.*

**Həmsöhbət:** *Prezidenti?*

**Tomas Okampo:** *Biz onu uzaqlaşdırmalıyıq".*

* * *

Bəli, Okamponun bu ifşaedici videogörüntülərindən çıxarılan bu mətn əslində illərdir Azərbaycana qarşı yürüdülən qərəzli kampaniyaların hansı "mətbəxdə" hazırlandığını bütün çılpaqlığı ilə ortaya qoyur. O da bəlli olur ki, beynəlxalq hüquq sahəsində tanınmış L.Okampo öz nüfuzunu və əlaqələrini açıq bazara çıxararaq, humanitar məsələlərdən siyasi təzyiq rıçağı kimi istifadə edir.

*(ardı 5-ci səhifədə)*

# Xəzər sahilindən Avropanın şimalına sabitlik və rifah marşrutu

## *Azərbaycan–Niderland tərəfdaşlığı məhz bu tarixi missiyanı yerinə yetirir*

**Ənənəvi tədarük zəncirlərinin geosiyasi sarsıntılarla üzləşdiyi bir dövrdə, Azərbaycan və Niderland arasındakı münasibətlər diplomatik çərçivələri aşaraq transkontinental əhəmiyyət qazanır. Bu gün Bakı və Amsterdam arasındakı dialoq, sadəcə, iki ölkənin maraqlarını deyil, həm də Avropanın enerji təhlükəsizliyi və yeni ticarət arteriyalarının axtarış strategiyasını formalaşdırır.**



Niderland Krallığının ölkəmizdəki səfiri Marian de Yonqun jurnalistlərlə görüşdə səsləndirdiyi fikirlər və regiondakı artan diplomatik hərəkətlilik bir həqiqəti ortaya qoyur: Orta Dəhliz artıq gələcəyin deyil, bu günün onurğa sütunudur. Niderlandın ticarətə söykənən iqtisadi uğurları ilə Azərbaycanın regional qovşaq statusu burada bir-birini mükəmməl tamamlayan loqistik vahidlik yaradır. Səfirin də qeyd etdiyi kimi, Orta Dəhliz bir alternativ marşrut deyil, qlobal logistika zəncirlərinin qırılmaması üçün təhlükəsizlik limanıdır. Bu böyük oyunun mərkəzində isə iki nəhəng dayanır:

Avropanın logistik qapısı Rotterdam və Xəzərin strateji ürəyi olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı. Dünyanın ən innovativ və rəqəmsallaşmış limanı olan Rotterdamın təcrübəsi Bakı üçün təkcə bir nümunə deyil, həm də "yaşıl liman" konsepsiyasına keçid üçün əvəzolunmaz resursdur. Bu tərəfdaşlıq Şərq bazarlarını Avropanın daxili bazarları ilə daha sıx bağlayaraq, multimodal daşımaların səmərəliliyini yeni səviyyəyə qaldırır.

Niderlandın Azərbaycanla əməkdaşlığa verdiyi önəm təkcə logistika ilə məhdudlaşmır. Burada su idarəçiliyi, kənd təsərrüfatı və şəhərsalma kimi strateji sektorlar ön plana çıxır. Tarixən su resurslarının idarə olunması sahəsində dünya lideri olan Niderland iqlim dəyişikliyi dövründə Azərbaycan üçün kritik tərəfdaşa çevrilib. Səfirin vurğuladığı kimi, Beynəlxalq Sosial Araşdırmalar İnstitutu nümayəndə heyətinin Bakı səfəri və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi rəsmilərinin Niderlanda planlaşdırılan səfəri bu sahədə bilik və texnologiya mübadiləsini dərinləşdirəcək. Hazırda iki ölkə arasında ticarət dövriyyəsinin yarım milyard avroya çatması bu iqtisadi potensialın real nəticəsidir. Bununla yanaşı, Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumuna (WUF13) Haaqa meri Yan van Zanenin rəhbərliyi ilə 50 nəfərlik nəhəng nümayəndə heyətinin qatılması Niderlandın Azərbaycanın dayanıqlı inkişaf modelinə marağının təzahürüdür.

Xüsusi qeyd edilməlidir ki, Niderlandın kənd təsərrüfatı sahəsindəki qabaqcıl texnologiyaları Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında mühüm rol oynaya bilər. Niderland şirkətləri Qarabağ və Şərqi Zəngəzurda tətbiq olunan "Ağıllı kənd" layihələrinə, xüsusilə dayanıqlı istixana sistemləri, rəqəmsal su idarəçiliyi və yüksək məhsuldarlıqlı heyvandarlıq kompleksləri üzrə öz təcrübələrini təklif edirlər. Zəngilanın Ağalı kəndində tətbiq olunan modeldə istifadə edilən innovasiyalar Niderlandın bu sahədəki "ağıllı həllər"i ilə tam uzlaşır. Niderland səfirliyi dəfələrlə qeyd edib ki, holland şirkətləri bu ərazilərdə şəhərsalma və kənd təsərrüfatının modernləşdirilməsi prosesində fəal iştirak etməkdə maraqlıdırlar.

* * *

Siyasi müstəvidə Niderland Azərbaycanın Cənubi Qafqazda sülh və sabitlik naminə atdığı addımları, sülh təşəbbüslərini yaxından izləyir və birmənalı şəkildə dəstəkləyir. Səfirin "sülh əlaqəlilik, ticarət və rifah üçün yeni imkanlar açacaq" fikri diplomatik bir bəyanat deyil, Niderlandın bölgədəki uzunmüddətli geoiqtisadi strategiyasının özəyini təşkil edir. Niderland tərəfi yaxşı anlayır ki, Cənubi Qafqazda davamlı sülhün bərqərar olması Orta Dəhlizin tam gücü ilə və risksiz işləməsi, habelə regionun xarici investisiyalar üçün cəlbediciliyinin artması üçün zərurətdir. Bu çərçivədə Niderland hökumətinin və xarici



işlər naziri Tom Berendsenin həm Bakı, həm də İrəvanla fəal dialoqda olması rəsmi Amsterdamın Avropanın bölgədə balanslı, obyektiv və konstruktiv rol oynamaq istəyindən xəbər verir. Bu balanslı yanaşma xüsusilə parlamentlərarası səviyyədə dialoqun canlandırılması cəhdlərində özünü büruzə verir ki, bu da tərəflər arasında etimad quruculuğu prosesinə birbaşa töhfədir. Marian de Yonq ölkəsinin parlamentinin bu yaxınlarda Azərbaycanın suverenliyi və Ermənistanla sülh prosesi ilə bağlı anti-Azərbaycan sənədlərini qəbul etməsininə də toxunub: "Niderland tezliklə Azərbaycanla parlamentlərarası məsləhətləşmələrin keçirilməsinə ümid edir".

Səfirin qeyd etdiyi kimi, parlament nümayəndələrinin bir-biri ilə ünsiyyət qurması üçün platformaların yaradılması hər iki ölkənin cəmiyyətləri arasında anlaşmanı dərinləşdirə bilər. Xüsusilə Azərbaycan Prezidenti ilə Niderlandın Baş naziri arasındakı intensivləşən birbaşa təmaslar bu diplomatik dialoqun ən yüksək səviyyədə və strateji məcrada davam etdiyini göstərir.

Səfirin builki brifinqdə səsləndirdiyi ən mühüm və siyasi çəkisi olan anonslardan biri Niderlandın Baş naziri Rob Yettenin Azərbaycana gözlənilən səfəridir. Bu səfər nəinki ikitərəfli əlaqələrdə keyfiyyətcə yeni səhifə açacaq, həm də Niderlandın Azərbaycanın regional liderliyini və qlobal enerji-loqistika arxitekturasındakı yerini rəsmən təqdir etməsi mənasına gələcək.

Bu potensial səfər həm də iki ölkə arasında "yaşıl enerji" sahəsindəki yeni əməkdaşlıq horizontlarını müəyyən edəcək bir katalizator rolunu oynaya bilər. Niderlandın dənizdə külək enerjisi və "yaşıl hidrogen" istehsalı sahəsindəki qabaqcıl texnoloji təcrübəsi Azərbaycanın Xəzər dənizindəki böyük bərpaolunan enerji potensialı ilə birləşdikdə, Avropa üçün yeni bir strateji enerji dəhlizinin yaranmasına zəmin yaradır. Artıq Hollandiya İnkişaf Bankı (FMO) vasitəsilə Azərbaycanda "yaşıl" layihələrin maliyyələşdirilməsi üçün 40 milyon dollar həcmində ilk kredit sazişinin imzalanması bu istiqamətdə maliyyə sütunlarının qurulduğunu göstərir. Qeyd etmək lazımdır ki, bu, FMO tərəfindən Azərbaycan bankına ayrılan ilk "yaşıl" kreditdir. Ayrılmış kredit, ölkənin 2035-ci ilə qədər istixana qazı tullantılarının 40 faiz azaldılması istiqamətindəki səylərinə töhfə verəcək.

Şübhəsiz ki, Baş nazirin səfəri çərçivəsində rəqəmsal enerji idarəçiliyi və hidrogen ixracı üzrə yeni sənədlərin imzalanması Azərbaycanın regional "yaşıl enerji habı" statusunu daha da möhkəmləndirə bilər.

Mövzu ilə bağlı **ekspert Kamran Abdullayev** XQ-yə bildirdi ki, Azərbaycan və Niderland arasındakı mövcud münasibətləri "strateji praqmatizm" dövrü kimi xarakterizə etmək olar: "Hazırda Rotterdam və Bakı limanları arasındakı yaranmış sinerji, sadəcə, texnoloji təcrübə mübadiləsi və ya ticari əməliyyat deyil. Bu, Orta Dəhlizin beynəlxalq rəqabət qabiliyyətini köklü şəkildə artıran geosiyasi bir gedişdir. Rotterdamın rəqəmsallaşma, avtomatlaşdırılmış logistika və "yaşıl terminallar" sahəsindəki qlobal liderliyi Bakı Limanının strateji mövqeyi ilə birləşdikdə, marşrutun keçid sürəti və şəffaflığı yeni mərhələyə qalxacaq. Əlaqələr Azərbaycanı Avropanın əsas iqtisadi qapısına birbaşa çıxışla təmin edəcək, Niderlandı isə Xəzər regionu vasitəsilə Mərkəzi Asiyanın logis-



tik dərinliyinə və zəngin bazarlarına bağlayacaq. Bununla da hər iki ölkə bir-birinin coğrafi üstünlüklərini iqtisadi dividendə çevirəcək".

Ekspert, həmçinin qeyd etdi ki, Niderlandın sülh prosesinə verdiyi "yumşaq güc" dəstəyi, yəni dialoq platformalarının təşviqi və iqtisadi stimulların ön plana çıxarılması regionda risklərin azaldılmasına xidmət edir.

Beləliklə, Azərbaycan və Niderland arasındakı münasibətlər qarşılıqlı iqtisadi maraqlardan doğan təbii müttəfiqlik mərhələsinə qədəm qoyur. Orta Dəhlizin inkişafı, işğaldan azad edilmiş ərazilərdəki innovativ quruculuq işləri və sülh prosesinə verilən balanslı dəstək bu əməkdaşlığı çoxşaxəli edir. Hər iki dövlət öz coğrafi statusundan maksimum yararlanaraq Avrasiya məkanında yeni iqtisadi körpülər inşa edir ki, bu da müasir dövrün mürəkkəb geosiyasi şəraitində mühüm sabitlik və rifah amilinə çevrilir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Erməni diasporunun muzdlu vəkili ifşa edildi

*(əvvəli 4-cü səhifədə)*

Okamponun açıq şəkildə Avropa İttifaqının sabiq xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrelin onun komandasında çalışdığını bildirməsi və bu əlaqələr vasitəsilə Avropa Komissiyasının sədri Ursula fon der Lyayenə təzyiq göstərmək gücündə olduğunu iddia edən "cahil cəsarət"i bütövlükdə Avropa diplomatiyasının rəzilliyidir. Bu da Azərbaycanla imzalanmış strateji müqavilələri hədəf almaq üçün bəzi Qərb siyasətçilərinin bar-bar bağırdığı "insan haqları" mövzusunun, sadəcə, alət olduğunu təsdiqləyir.

Erməni lobbisi ilə qurulan işbirliyi və regiondakı proseslərə süni müdaxilə cəhdləri də mətndə xüsusi yer tutur. Məsələnin ən təhlükəli cəhətlərindən biri bu şəbəkənin təkcə Azərbaycana qarşı deyil, eyni zamanda, Ermənistanın mövcud hakimiyyətinə qarşı yönəlməsidir. Okamponun oğlunun səs yazısında Ermənistanın Baş naziri Nikol Paşinyanın hakimiyyətdən uzaqlaşdırılmasının onların əsas hədəflərindən biri olduğunu etiraf edir. Kampaniyanın arxasında ABŞ-dakı erməni lobbisi və Rusiyada yaşayan erməni oliqarxları və regionda dayanıqlı sülhün əldə olunmasını istəməyən fiqurlar dayanır. Onların məqsədi yekun sülh müqaviləsini əngəlləmək, Ermənistanda daxili xaos yaratmaq, parlament seçkilərində revanşist qüvvələri yenidən hakimiyyətə gətirmək və Cənubi Qafqazı idarə olunan destabilizasiya durumuna salmaqdır.

Luis Moreno Okamponun şəxsiyyəti və keçmiş fəaliyyəti araşdırıldıqda, onun indiki əməllərinin heç də təsadüf olmadığı aydınlaşır. Beynəlxalq



Cinayət Məhkəməsinin prokuroru vəzifəsində çalışdığı illərdə də onun adı ofşor hesablarda gizlədilən milyonlarla dollarlıq vəsaitlərdə və korrupsiya iddialarında hallanıb. Vəzifədən getdikdən sonra isə o, beynəlxalq statusunu tamamilə kommersiyalaşdıraraq müxtəlif lobbi qruplarının, xüsusən də radikal erməni diasporunun muzdlu funksionerinə çevrilib. Bu şəxsin beynəlxalq ədalət anlayışını şəxsi maraqlarına qurban verməsi siyasi əxlaqının əsas xarakterik cizgisidir.

Okamponun Azərbaycana qarşı fəaliyyətinin keçmiş detallarına nəzər saldıqda, onun xüsusilə 2023-cü ilin avqustunda ortaya atdığı manipulyativ "2023-cü ildə ermənilərə qarşı soyqırımı" adlı qondarma ekspert rəyi xüsusi diqqət çəkir. Həmin dövrdə L.Okampo Ermənistan rəhbərliyinin və erməni diasporunun birbaşa sifarişi ilə Azərbaycanın Qarabağ bölgəsində guya "soyqırımı" həyata keçirdiyinə dair heç bir hüquqi və faktoloji əsası olmayan saxta hesabat hazırlamışdı. Beynəlxalq hüquq ekspertləri həmin sənədi dərhal tənqid edərək, Okamponun Soyqırımı Konvensiyasının müddəalarını qəsdən təhrif etdiyini və hadisələrə qərəzli yanaşdığını sübut etdilər. Onun bu fəaliyyəti Azərbaycanın suverenliyini hədəf almaq, beynəlxalq ictimaiyyəti çaşdırmaq və Laçın yolu ətrafındakı vəziyyətdən istifadə edərək rəsmi Bakıya qarşı qlobal təzyiq cəbhəsi formalaşdırmaq məqsədi daşıyırdı. Yeni ortaya çıxan faktlar sübut edir ki, həmin dövrdəki fəallıq da məhz indiki ssenarinin, yəni pullu lobbiçilik maşınının tərkib hissəsi olub.

Avropa Parlamentinin özü kimi strukturların, qaranlıq şəbəkələrin təsirinə məruz qalması qitənin siyasi təhlükəsizliyi üçün ciddi siqnaldır. Avropa İttifaqının Ermənistana hibrid təhdidlərə qarşı mübarizə üçün qrup göndərdiyi bir vaxtda, əsas hibrid təhdidin elə Brüsselin özündən və Avropa siyasətçilərinin iştirak etdiyi korrupsiya sxemlərindən gəlməsi böyük paradoksdur. Bu hadisə Avropa məkanında "Qatargate"dən sonra yeni və daha böyük lobbiçilik qalmaqalının, bəlkə də yeni siyasi böhranın başlanğıcı hesab oluna bilər. Təqdim olunan faktlar təcili, hərtərəfli hüquqi istintaq tələb edir və Avropa xüsusi xidmət orqanları bu korrupsiya şəbəkəsinin fəaliyyətini tam olaraq araşdırmalıdır. Azərbaycan isə, öz növbəsində, beynəlxalq platformalarda üzləşdiyi bu cür qərəzli kampaniyaların kökündə dayanan siyasi və maliyyə maraqlarını ifşa etməyə, sülh və sabitlik yolunda qətiyyətli addımlar atmağa davam edəcək.

***Tacir SADIQOV***
***XQ***

**Yaxın Şərqdə gərginlik artdıqca, ABŞ–İran qarşıdurması həm hərbi, həm də siyasi müstəvidə yeni mərhələyə keçid alır. ABŞ Konqresi daxilində müharibənin hüquqi çərçivəsi və legitimliyi ilə bağlı müzakirələr dərinləşdiyi halda, Ağ Ev regionda geosiyasi təsirini gücləndirməyə yönəlmiş addımlar atır. İİR rəhbərliyi isə sərt bəyanatlarla çıxış edərək mümkün eskalasiyanın nəticələrinin daha geniş və təhlükəli ola biləcəyinə işarə edir. Beynəlxalq media prosesi diqqət mərkəzində saxlayır.**

# Fars körfəzində ikiqat blokada və beynəlxalq hüquq

## *ABŞ qlobal enerji marşrutlarına nəzarəti gücləndirməyə çalışır*

**"Time":** Nümayəndələr Palatası və Senatda gedən müsahibələr göstərir ki, Demokratlar Partiyası Trampın İranla müharibəsini məhdudlaşdırmaq üçün daha fəal şəkildə yollar axtarır. Onlar əmindirlər ki, "Hərbi Səlahiyyətlər haqqında Qətnamə" ilə müəyyən edilmiş 60 günlük müddətin bitməsi, qanunsuz başladığına və lazımi parlament nəzarəti olmadan aparıldığına inandıqları bu müharibəyə etiraz etmək üçün tutarlı şansları ola bilər. 1973-cü il tarixli "Hərbi Səlahiyyətlər haqqında Qanun"a əsasən, əgər Konqres müharibə elan etməyibsə və ya güc tətbiqinə icazə verməyibsə, prezident 60 gündən sonra hərbi əməliyyatları dayandırmağa borcludur. Müddətin 30 günlük birdəfəlik uzadılmasına yalnız o halda icazə verilir ki, prezident qoşunların təhlükəsiz şəkildə çıxarılması üçün bu vaxtın zəruri olduğunu yazılı şəkildə təsdiqləsin. ABŞ-ın İrana qarşı hərbi kampaniyası fevralın 28-də başlayıb. Rəsmi olaraq 60 günlük müddət artıq başa çatıb, lakin Tramp zərbələr barədə Konqresi rəsmən 2 martda məlumatlandırdığı üçün onun razılıq tələb etmək üçün 1 maya qədər vaxtı var idi. Əgər Tramp İran rəsmilərinin nüvə proqramı üzrə danışıqların təxirə salınması müqabilində Hörmüz boğazını yenidən açmaq təklifini qəbul edərsə, demokratların strategiyası dəyişə bilər.

**"The Wall Street Journal":** ABŞ digər dövlətlərə Hörmüz boğazından naviqasiya azadlığına zəmanət vermək məqsədi daşıyan yeni beynəlxalq koalisiyanın tərkibinə daxil olmaq barədə təklif göndərib. Məlumata görə, Vaşinqtonun rəhbərliyi altında yaradılan koalisiya iştirakçılar arasında



kəşfiyyat məlumatlarının mübadiləsinə, diplomatik fəaliyyətlərin koordinasiyasına və sanksiya rejiminin icrasına nəzarət edilməsinə kömək etmək məqsədi daşıyır. Formalaşdırılan birliyin hərbi xarakteri nəzərdə tutmamasına baxmayaraq, səfirliklərə göndərdiyi sənəddə Dövlət Departamenti xarici nümayəndəliklərə "diplomatik və ya hərbi tərəfdaşlar" rolunda çıxış etməyi təklif edib.

**"Press TV":** İranın ali rəhbərinin hərbi müşaviri Möhsün Rzayi bildirib ki, Vaşinqton tərəfindən Tehrana qarşı hər hansı yeni təcavüz ABŞ üçün fəlakətlə nəticələnəcək. O, "Amerika fövqəldövlətini Fars körfəzi və Oman dənizi sularında qərq etməklə" hədələyib: "Biz onların xeyli sayda hərbi qulluqçusunu əsir götürəcəyik", – deyən Rzayi əlavə edib ki, Amerika tərəfi üçün ən sərfəli həll yolu vəziyyətin normallaşdırılması üçün İranın şərtlərilə razılaşmaqdır.

**"Tasnim":** İran Prezidenti Məsud Pezeşkian bildirib ki, ABŞ tərəfindən İran limanlarının hərbi-dəniz blokadası Fars körfəzindəki problemləri daha da ağırlaşdıracaq və Vaşinqton yekunda qarşıya qoyulmuş məqsədlərə çatmayacaq. "Dəniz blokadası və ya məhdudiyyətlər tətbiq etmək üçün istənilən cəhd beynəlxalq hüquqa ziddir… və iflasa məhkumdur", – bu fikri Pezeşkian deyib. O əlavə edib ki, bu cür tədbirlər nəinki regional təhlükəsizliyi gücləndirə bilməyəcək, həm də faktiki olaraq gərginlik mənbəyinə çevriləcək və Fars körfəzində uzunmüddətli sabitliyi sarsıdacaq.

**"SEPAH":** ABŞ dəniz blokadasını Çin, Rusiya və Avropanı zəiflətmək üçün başladıb. Bu barədə İran İslam İnqilabı Keşikçiləri Korpusunun Kəşfiyyat İdarəsinin "X" sosial media hesabında edilən paylaşımda bildirilib: "Tramp hökuməti "dünya enerjisini idarəetmə" strategiyasından "pozucu fəaliyyət"ə yönəldi və Çin, Rusiya və Avropanı zəiflətmək üçün geniş layihənin bir hissəsi kimi dəniz blokadası başlatdı.

**"Bloomberg":** ABŞ Silahlı Qüvvələrinin Mərkəzi Komandanlığı İrana qarşı mümkün tətbiqi məqsədilə "Dark Eagle" hipersəs raketlərinin Yaxın Şərq regionuna göndərilməsi üçün sorğu verib. Bu sorğuya müsbət cavab veriləcəyi təqdirdə, bu, Amerika hipersəs silahının tarixdə ilk dəfə yerləşdirilməsi olacaq. Agentliyin həmsöhbəti dəqiqləşdirib ki, komandanlıq öz təşəbbüsünü İran tərəfinin buraxılış qurğularını 300 mildən (təxminən 482 km) uzaq məsafədəki hədəfləri vura bilən "Precision Strike Missile" ballistik raketinin təsir radiusunu aşan məsafəyə köçürməsi ilə əsaslandırıb.

**"Reuters":** ABŞ Prezidenti Donald Tramp Almaniyadakı ABŞ hərbi kontingentinin sayının mümkün azaldılması məsələsini öyrəndiyini bildirib. Bu həftənin əvvəlində Tramp Vaşinqtonun Tehrana münasibətdə yanaşmasının səmərəsizliyi barədə fikir bildirən Almaniya Kansleri Fridrix Mertsi tənqid edib.

**"The Washington Post":** "USS Gerald R. Ford" təyyarədaşıyan gəmisi yaxın vaxtlarda Yaxın Şərqi tərk edəcək və əsaslı təmir üçün dislokasiya bazasına qayıdacaq. Məlumata görə, gəmi Virciniya ştatındakı Norfolk hərbi dəniz bazasına artıq mayın ortalarında qayıda bilər, lakin dəqiq tarix bildirilmir. Bu, ABŞ və İran arasındakı danışıqlarda yaranmış durğunluq fonunda atəş gücünün əhəmiyyətli dərəcədə itirilməsinə gətirib çıxaracaq.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

# İrəvan görüşü və Cənubi Qafqazda yeni nizamın ilkin konturları

**Cənubi Qafqazda uzun illər qeyri-mümkün kimi görünən proseslər artıq siyasi reallığa çevrilməkdədir. Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin İrəvana səfəri regionda postmünaqişə mərhələsinin keyfiyyətcə yeni fazaya keçdiyini göstərən strateji siqnaldır. Əgər bir neçə il əvvəl tərəflər yalnız vasitəçilər üzərindən ünsiyyət qururdularsa, bu gün birbaşa institusional dialoq mexanizmləri formalaşır və işlək vəziyyətə gətirilir.**



Səfərin mərkəzində dayanan delimitasiya prosesi mahiyyət etibarilə dərin siyasi məzmun daşıyır. Çünki sərhədin xəritə üzərində dəqiqləşdirilməsi dövlətlərin bir-birini hansı sərhədlər daxilində qəbul etdiyini rəsmiləşdirən fundamental aktdır. Başqa sözlə, delimitasiya "de-fakto" reallığın "de-yure" təsdiqinə çevrilməsi prosesidir.

Burada diqqətçəkən məqam ondan ibarətdir ki, tərəflər artıq konkret normativ bazanın formalaşdırılmasına keçiblər. Ekspert qruplarının fəaliyyət qaydalarının müəyyənləşdirilməsi, delimitasiya xəritələrinin hazırlanması prinsiplərinin razılaşdırılması və sənədləşmə mexanizmlərinin prosesin ad hoc qərarlardan çıxaraq sistemli və proqnozlaşdırıla bilən çərçivəyə salındığını göstərir. Bütün bu təlimatları "texniki konstitusiya" kimi xarakterizə etmək olar. Necə ki, konstitusiya dövlətin əsas oyun qaydalarını müəyyən edir, delimitasiya üzrə bu sənədlər də iki ölkə arasında sərhədin necə müəyyən olunacağını, hansı metodologiyanın əsas götürüləcəyini və potensial fikir ayrılıqlarının necə həll ediləcəyini tənzimləyir.



Bundan əlavə, delimitasiya prosesi suverenlik anlayışını praktik müstəviyə keçirir. Uzun illər münaqişə şəraitində suverenlik daha çox siyasi iddialar və ritorika səviyyəsində ifadə olunurdusa, indi konkret coğrafi sərhədlər və hüquqi sənədlər vasitəsilə maddiləşir.

Nəhayət, delimitasiya prosesinin bu mərhələsi onu göstərir ki, tərəflər sülhü mərhələli şəkildə qurulan institusional sistem kimi dərk etməyə başlayıblar. Burada xüsusi vurğulanmalı əsas xətt ondan ibarətdir ki, müşahidə etdiyimiz irəliləyişlər ardıcıl siyasi xəttin və məqsədyönlü qərarvermənin nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən nümayiş etdirilən siyasi iradə prosesi konkret nəticəli praktik mərhələyə keçirib.

* * *

Məhz bu kontekstdə regionda qərarvermə mərkəzinin transformasiyası diqqət çəkir. Uzun illər Cənubi Qafqaz təhlükəsizlik baxımından xarici güclərin təsir və vasitəçiliyinə açıq məkan kimi xarakterizə olunurdu. Lakin hazırkı dinamika göstərir ki, Bakı və İrəvan getdikcə daha çox məsuliyyəti öz üzərlərinə götürür, gündəliyi özləri formalaşdırır və qərarları bilavasitə icra edirlər. Belə transformasiya həm də prosesin davamlılığı nöqteyi-nəzərindən kritik əhəmiyyət daşıyır.

Ənənəvi yanaşmada əvvəl siyasi razılaşma – yəni sülh müqaviləsi imzalanır, daha sonra iqtisadi əməkdaşlıq mərhələsi başlayır. Hazırkı prosesdə isə bu ardıcıllıq, faktiki olaraq, tərsinə çevrilir: tərəflər paralel şəkildə əməkdaşlıq elementlərini işə salmaqla etimadı tədricən artırır və bunun üzərində siyasi razılaşmanı inşa etməyə çalışırlar. "Əməkdaşlıq vasitəsilə sülhün inşası" modeli kimi xarakterizə oluna biləcək bu yanaşma, xüsusilə yüksək etimadsızlıq mühitində daha funksional hesab olunur. Çünki iqtisadi qarşılıqlı asılılıq yarandıqca, münaqişəyə qayıdışın dəyəri artır və sülh daha rasional seçimə çevrilir. Enerji və nəqliyyat komponentləri prosesin strateji "sütunları" kimi daxil olur. Çünki müasir beynəlxalq münasibətlərdə sabitlik iqtisadi və infrastruktur şəbəkələrinin yaratdığı qarşılıqlı asılılıqla təmin olunur. Nəqliyyat komponenti də oxşar məntiq üzrə işləyir. Tranzit imkanlarının genişlənməsi regionu qapalı geosiyasi məkan olmaqdan çıxararaq açıq iqtisadi platformaya çevirir.

* * *

Lakin məhz bu konstruktiv transformasiya fonunda xarici təsirlərin ziddiyyətli xarakter alması diqqətdən kənarda qalmır. Avropanın bəzi siyasi dairələrində müşahidə olunan anti-Azərbaycan ritorikası və normativ təzyiq cəhdləri ilk baxışda dəyərlər siyasəti çərçivəsində təqdim edilsə də, onların praktiki təsiri daha mürəkkəbdir. Əsas problem ondan ibarətdir ki, bu cür xarici müdaxilələr sülh prosesinin daxili məntiqini pozmaq riski daşıyır. Postmünaqişə transformasiyası incə və mərhələli prosesdir; burada tərəflər arasında etimadın tədricən formalaşması əsas şərtdir. Kənardan gələn sərt siyasi qiymətləndirmələr və ya selektiv yanaşmalar isə bu etimadı zəiflədərək tərəfləri yenidən müdafiə mövqeyinə çəkə bilər. Məhz bu baxımdan, mövcud mərhələdə ən rasional yanaşma regiondaxili proseslərin məntiqinə hörmət etmək və formalaşan əməkdaşlıq mexanizmlərini dəstəkləmək olardı. Çünki enerji, nəqliyyat və iqtisadi inteqrasiya üzərindən qurulan qarşılıqlı asılılıq modeli daha geniş coğrafiya üçün sabitlik və proqnozlaşdırıla bilənlik vəd edir.

Xaricdə formalaşmış diaspor şəbəkələri, xüsusilə müxtəlif siyasi mərkəzlərlə inteqrasiya olunmuş strukturlar, çox vaxt regiondakı reallıqlardan qidalanmayan, daha çox tarixi yaddaş və identitet üzərindən qurulan maksimalist yanaşmalar sərgiləyirlər. Belə yanaşmalar isə kompromis imkanlarını zəiflədir, çünki onlar üçün siyasi nəticədən çox simvolik "ədalət" narrativləri ön planda dayanır. Ermənistan daxilində isə fərqli dinamika müşahidə olunur. Burada təhlükəsizlik, iqtisadi inkişaf və regional izolasiya kimi konkret problemlər cəmiyyətin daha praqmatik seçimlər etməsini şərtləndirir. Uzunmüddətli qarşıdurmanın sosial-iqtisadi dəyəri, qapalı sərhədlərin yaratdığı məhdudiyyətlər və regional layihələrdən kənarda qalmanın nəticələri ictimai şüurda alternativ yanaşmaya – normallaşma və inteqrasiya xəttinə – tələbat formalaşdırıb. Məhz bu baxımdan rəsmi İrəvanın mövcud siyasəti cəmiyyət daxilində formalaşan rasional gözləntilərin siyasi ifadəsidir.

* * *

Belə bir ikiliyin yaratdığı əsas ziddiyyət ondan ibarətdir ki, qərarların siyasi məsuliyyətini daşıyan aktorlarla, həmin qərarlara təsir etməyə çalışan, lakin onların nəticələrinə birbaşa cavabdeh olmayan aktorlar arasında baxış fərqi mövcuddur. Diaspor mərkəzləri üçün maksimalist mövqe siyasi risk daşımaya bilər, lakin Ermənistan dövləti üçün belə yanaşma konkret təhlükəsizlik və inkişaf xərcləri yaradır. Məhz bu fərq son illərdə İrəvanın daha balanslı və praqmatik kursa yönəlməsini izah edən əsas amillərdən biridir.

Azərbaycanın strategiyası bu mürəkkəb mənzərəni düzgün oxumağa əsaslanır. Bakı siyasi kommunikasiya və qərarvermə baxımından prioriteti real institusional mərkəzə – yəni qərar qəbul edən hökumətə və onun arxasında dayanan ictimai sifarişə verir. Eyni zamanda, bu yanaşma klassik rasional aktor modelinə uyğun gəlir, Azərbaycanın qərarları uzunmüddətli strateji nəticələrə əsaslanır. Rəsmi Bakı üçün əsas məqsəd institusional və davamlı sülhün formalaşdırılmasıdır.

Humanitar təşəbbüslər, xüsusilə vətəndaş cəmiyyətləri arasında dialoqu stimullaşdıran platformalar isə münaqişədən sonrakı mərhələdə "yumşaq təhlükəsizlik" komponentinin formalaşmasında mühüm rol oynayır. Lakin bu mexanizmlər öz-özlüyündə siyasi nəticə istehsal etmir, onlar daha çox siyasi qərarların qəbulunu asanlaşdıran mühit yaradır. Həlledici rol isə yenə də dövlətlərarası institusional mexanizmlərə məxsusdur. Çünki fundamental məsələlər yalnız dövlət səviyyəsində qəbul edilən qərarlar vasitəsilə reallaşa bilər.

Bu görüşlər institusional davamlılıq baxımından da əhəmiyyətlidir. Onlar tərəflər arasında müntəzəm təmas kanalları yaradır, fikir ayrılıqlarının idarə olunmasını sistemləşdirir və prosesi liderlər səviyyəsindən daha aşağı, lakin operativ qərarvermə səviyyəsinə daşıyır.

Son olaraq qeyd edək ki, formalaşmaqda olan model xarici aktorların diktə etdiyi çərçivədən daha çox, Bakı və İrəvanın qarşılıqlı siyasi iradəsi, praqmatik hesablamaları və mərhələli razılaşmaları üzərində inşa olunur. Bütün bunlar isə sülhün uzunmüddətli saxlanılması baxımından daha etibarlı əsas yaradır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

# Aİ-nin Ermənistana dəstək sammiti

*Avropa siyasətçiləri Nikol Paşinyanın yanında olacaqlarını belə nümayiş etdirirlər*

**Ermənistan maraqlı və mövcud iqtidarın opponentləri tərəfindən birmənalı qəbul edilməyən hadisə ərəfəsindədir. Avropa İttifaqının Avropa Siyasi Birliyinin 8-ci sammiti İrəvanda keçiriləcək. "Qoca qitə"nin siyasi isteblişmentinin məhz parlament seçkilərinə bir ay qalmış İrəvanda toplaşmasının təsadüf olmadığı siyasətdən uzaq diletanta da məlumdur. Hazırda erməni mediası hadisəyə ən müxtəlif rakurslardan şərh verməklə məşğuldur.**

Avropa Siyasi Birliyinin "Gələcəyin formalaşdırılması: Avropada birlik və sabitlik" mövzusunda İrəvanda keçiriləcək iclasına Aİ Şurasının sədri Antonio Kosta və Ermənistanın baş naziri Nikol Paşinyan sədrlik edəcəklər. Hazırlıq və təşkilatı işlərə dövlət büdcəsindən təxminən 1 milyard dram (2,6 milyon dollardan çox) vəsaitin ayırdığı VIII sammiti hay mediasının bir qismi "Ermənistan üçün tarixi mərhələ", "Brüssel və İrəvan arasında münasibətlərdə dönüş nöqtəsi", "ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi və Cənubi Qafqazda sülhün, əlaqənin və iqtisadi inkişafın möhkəmləndirilməsi" kimi dəyərləndirir. Müxalifyönlü digər qisim isə bu sammiti Ermənistan üçün keyfiyyətcə irəliləyiş deyil, hökumətə xarici siyasət dəstəyi göstərmək cəhdi kimi tənqid atəşinə tutub.

ASB-ın İrəvan sammitinə 50-yə yaxın dövlətin prezidenti, yaxud baş naziri dəvət olunub. Onların sırasında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın da adı var. Ankara hələlik dəvətə rəsmi cavab verməsə də, dövlət başçısının bu toplantıya qatılacağı böyük sual işarəsi altındadır. Avropa ölkələri arasında strateji yaxınlıq, əməkdaşlıq, dialoq və koordinasiyanı inkişaf etdirmək məqsədilə yaradılan Avropa Siyasi Birliyinin (ASB) toplantısına dəvəti qiymətləndirərkən rəsmi Ankaranın Bakının mövqeyini nəzərə alacağı birmənalıdır.

**ARAYIŞ:** *Türkiyə Fransa Prezidenti Makronun təşəbbüsü ilə yaradılan ASB-nin 6 oktyabr 2022-ci ildə Çexiyanın Praqa şəhərində keçirilən ilk toplantısında iştirak edib. Türkiyə Prezidenti R.T.Ərdoğan ASB-nin 7 noyabr 2024-cü il Budapeşt və 16 may 2025-ci il Tirana sammitlərinə də qatılıb. Amma 2023-cü ildə İspaniya və Moldovada, 2024-cü ildə Böyük Britaniyada, ötən il Danimarkada düzənlənən görüşlərə dəvət almasına baxmayaraq, iştirak etməyib.*

Aİ Avropa Siyasi Birliyinin qarşıdakı sammiti ərəfəsində Ermənistan müxalifətinin indiki iqtidarın ünvanına tənqidləri daha da kəskinləşib. "Avropa Siyasi Birliyinin 8-ci sammitinin İrəvanda keçirilməsi Ermənistanın baş naziri Nikol Paşinyana birbaşa dəstəkdir". Bu sözləri dünən jurnalistlərlə görüşündə Ermənistan Respublikaçılar Partiyasının sədr müavini Armen Aşotyan deyib. O, dediyini belə izah edib ki, bu formatda görüşlər adətən əvvəlcə Avropa ölkəsində, daha sonra isə Avropa İttifaqına üzv olmayan ölkədə keçirilir. Erməni müxalif siyasətçi hesab edir ki, sammitin ünvanı kimi Ermənistan heç də bu prinsipə görə seçilməyib. "Onlar məhz bu günlərdə gəlmək qərarına gəliblər ki, Ermənistanın xəyanətkar rejiminə dəstəklərini göstərsinlər. Bu, Avropa Siyasi Birliyinin İrəvandakı əsas mesajıdır və bu, qəbuledilməzdir", - deyə Aşotyan bildirib.



Ermənistan Respublikaçılar Partiyasının sədr müavini bu xüsusda müqayisə də aparıb: "Avropa ictimaiyyətinin başqa ölkələri, məsələn, Rusiyanı Moldovadakı seçkilərə müdaxiləyə görə, yaxud Türkiyəni Balkan ölkələrindəki seçkilərə "müdaxiləyə" görə tənqid etdiyi məsələləri indi Ermənistanda Avropa İttifaqı özü edir". ASB-nin İrəvan sammitinin artıq öz loqosu var və orada iki dairə təsvir olunub. Aşotyan loqo üçün Ermənistan Respublikaçılar Partiyası tərəfindən hazırlanmış variantı təqdim etdiklərini, orada həmin dairələrin qandal şəklində göstərildiyini deyib: "Biz ona daha doğru təsvir verdik. Axı Ermənistanda bu dəyərlər, sadəcə, dairə deyil, zəncirlərdir. Avropalılar bura demokratiyanı təşviq etməyə yox, riyakarlığı təşviq etmək üçün gəlirlər. Çağırışımız budur: riyakarlığı dayandırın və demokratiyanı qoruyun".

* * *

Ermənistanın "HayaQue" milli vətəndaş birliyi Avropa İttifaqına üzv dövlətlərə, onların hökumətlərinə, Avropa Şurasının, Avropa Komissiyasının və Avropa Parlamentinin rəhbərlərinə İrəvanda keçiriləcək Avropa Siyasi Birliyinin 8-ci Zirvə toplantısında iştiraklarını yenidən nəzərdən keçirmək üçün rəsmi məktub göndərib. Erməni mediasının yazdığına görə, məktubda deyilir ki, iyun ayında Ermənistanda keçiriləcək növbəti parlament seçkilərindən əvvəl keçiriləcək bu sammitdə mövcud hakimiyyətə, şəxsən baş nazir Nikol Paşinyana birbaşa siyasi dəstək elementləri var. Qeyd olunur ki, belə bir yanaşma Ermənistanda fəaliyyət göstərən digər siyasi qüvvələr üçün qeyri-bərabər şərait yaradacaq: "Ermənistan hazırda dərin daxili qütbləşmə və ciddi xarici təhlükəsizlik problemləri ilə üzləşir, buna görə də beynəlxalq aktorların daxili siyasi tarazlığın qorunmasına birbaşa təsir kimi şərh edilə biləcək hər hansı bir addımdan çəkinməsi vacibdir".

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən **Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** Avropa Siyasi Birliyinin sammitinin İrəvanda keçirilməsinin müəyyən məqsədlər güddüyünü dedi. Politoloq bu məqsədlərin məhz rəsmi İrəvanın istəyi ilə üst-üstə düşdüyünü vurğuladı: "Nikol Paşinyan iqtidarının hazırda əsas məqsədi parlament seçkilərində qalib gəlmək və hakimiyyəti öz əlində saxlamaqdır. Rəmi İrəvanın düşüncəsinə görə, Avropanın aparıcı dövlət başçılarının, nüfuzlu xadimlərin Ermənistana gəlməsi, onlar tərəfindən dəstəyin nümayiş etdirilməsi, hətta ola bilsin ki, bəzi ölkələrlə yeni sazişlərin imzalanması hakimiyyətin siyasi nüfuzuna və kapitalına töhfə sayılacaq. Bəli, bu toplantının Paşinyanın nüfuzuna, müəyyən dərəcədə, müsbət təsir göstərəcəyini istisna etmək olmaz. Avropa İttifaqının Ermənistandakı mülki missiyasının timsalında mövcud dəstəyinə daha birinin – parlament seçkisi ilə bağlı Ermənistan Respublikasında Avropa İttifaqı Tərəfdaşlıq Missiyası çərçivəsində qrupun təşrif buyurması əlavə birbaşa praktiki yardım mənasında qəbul oluna bilər. İki ölkə atrasında sərhədin demarkasiya prosesi uğurla davam etdiyindən Aİ-nin birinci mülki missiyasının fəaliyyətinə lüzum qalmasa da, getməyə hazırlaşmır, əksinə, yeni missiya iki il Ermənistanda iş aparacaq".

Aİ-nin Avropa Siyasi Birliyinin növbəti toplantısının İrəvanda keçirilməsinin Azərbaycanın maraqları ilə ziddiyyət təşkil etmədiyini düşündüyünü bildirən F.Sadıxov həmin tədbirdə özkəmizin ünvanına hansısa xoşagəlməz ifadələrin səsləndiriləcəyinə inanmadığını da dilə gətirdi: "Hazırda Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri normal məcrada davam edir. Burada söhbət Avropa Parlamentinin anti-Azərbaycan ritorikasından, qərəzli bəyanat və qətnamələrindən gedə bilər. Artıq həm Aİ-nin prezidenti Koşta, həm də birliyin xarici siyasət məsələləri üzrə komissarı Kallas Bakı oldu-



lar, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdülər. Eyni zamanda, mövcud geosiyasi vəziyyət fonunda Avropa Siyasi Birliyinin özünün də Azərbaycana ehtiyacı var. Əgər onlar parlament seçkiləri ərəfəsində Nikol Paşinyana siyasi dəstək nümayiş etdirirlərsə, qoy etsinlər. Hər halda bizi Ermənistanın indiki hakimiyyəti daha çox qane edir, nəinki Koçaryan-Sarkisyan klanı, yaxud kənardan "desant" göndərilən milyarder oliqarxlar. Ehtimal edirəm ki, ASB-nin İrəvan sammiti Azərbaycanın maraqlarına zidd olmayan bir tədbir olacaq. Həm də düşünürəm ki, Ermənistana gələcək Avropanın aparıcı dövlətlərinin başçıları iki ölkə arasında münasibətlərin normallaşmaya doğru getməsini təqdir edəcək və yüksək qiymətləndirəcəklər. Çünki reallıq bundan ibarətdir və onu heç kəs inkar edə bilməz".

***İmran BƏDİRXANLI***
***XQ***

# İranla sərhəddə daha bir gömrük məntəqəsi

**İranla sərhəddə yeni gömrük və nəqliyyat infrastrukturu formalaşdırılır. "Ağbənd" gömrük keçid məntəqəsinin yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulur. Bu barədə Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında, Gömrük Məcəlləsinə dəyişikliklərin müzakirəsi zamanı məlumat verib.**



Məlumata görə, layihə çərçivəsində Azərbaycan–İran sərhədində yerləşən Ağbənd avtomobil yolu körpüsü mühüm rol oynayır. Körpünün təməli 21 sentyabr 2022-ci ildə qoyulub. Uzunluğu 112 kilometr olan Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolu Araz çayı üzərində inşa edilən bu körpü vasitəsilə İranın yol şəbəkəsinə birləşdiriləcək. Layihəyə əsasən, körpünün uzunluğu 216 metr, eni isə 24,5 metr təşkil edir. Hər iki istiqamət üzrə iki hərəkət zolağı ilə yanaşı, piyadalar üçün ayrıca keçid zolağının yaradılması nəzərdə tutulub.

Layihənin inkişaf mərhələsində mühüm addımlardan biri də 2023-cü il oktyabrın 6-da atılıb. Həmin tarixdə Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında Azərbaycan və İran hökumətləri arasında imzalanmış Anlaşma Memorandumu çərçivəsində avtomobil körpüsü, sərhəd-gömrük infrastrukturu və sahilbərkitmə işlərini əhatə edən kompleks layihənin təməlqoyma mərasimi keçirilib. Bununla da tikinti prosesinin aktiv fazasına start verilib. Eyni zamanda, layihə yalnız avtomobil nəqliyyatı ilə başa çatmır.

Ağbənd istiqamətində Horadiz–Ağbənd dəmir yolu xəttinin inşası da davam etdirilir. 2021-ci ilin fevral ayında təməli qoyulan bu dəmir yolu xəttinin uzunluğu 110,4 kilometrdir və tikinti işləri üç mərhələ üzrə həyata keçirilir. Layihə çərçivəsində ümumilikdə 9 stansiyanın, onlarla körpü və digər mühəndis qurğularının inşası nəzərdə tutulur. Həmçinin Araz çayı üzərində dəmir yolu körpüsünün salınması planlaşdırılır ki, bu da xəttin İran istiqamətində davamlılığını təmin edəcək.

Qeyd edək ki, Araz çayı üzərində inşa olunan yeni körpü regionun nəqliyyat sistemində mühüm strateji əhəmiyyətə malik infrastruktur layihəsi hesab olunur. Dövlət rəsmilərinin sözlərinə görə, layihə Azərbaycan ilə İran arasında əlaqələrin genişlənməsinə xidmət etməklə yanaşı, beynəlxalq yükdaşımaların səmərəliliyinin artırılmasına yönəlib. Körpü iki əsas beynəlxalq nəqliyyat marşrutu – Şimal-Cənub nəqliyyat dəhlizi və Şərq-Qərb nəqliyyat dəhlizi üçün xüsusi əhəmiyyət daşıyır. Şimal-Cənub dəhlizi Hindistan, İran, Azərbaycan və Rusiya üzərindən Avropaya çıxışı təmin edən alternativ marşrut kimi formalaşır. Araz üzərində salınan körpü bu xətt üzrə yük daşımalarının daha sürətli və çevik təşkilinə imkan yaradacaq, logistika xərclərinin azalmasına şərait formalaşdıracaq.

Mütəxəssislər bildirirlər ki, ümumilikdə, sözügedən marşrut bir sıra ölkələr, o cümlədən Rusiya və İran, eləcə də Şərq ölkələri və Avropa üçün mühüm əhəmiyyət daşıyır. Zəngilan istiqamətində inşa olunan körpüyə Çinin də ciddi maraq göstərdiyi müşahidə olunur. Nəzərə alınmalıdır ki, yeni yol gələcəkdə əsas logistika qovşaqlarından biri kimi çıxış edəcək. Ekspertlərin sözlərinə görə, logistika mərkəzlərinə sahib olan ölkələr bu üstünlükdən əhəmiyyətli iqtisadi gəlirlər əldə edirlər. Layihə çərçivəsində həm dəmir yolu, həm də avtomobil yolunun mövcudluğu Azərbaycanın tranzit imkanlarını genişləndirəcək və ölkəyə əlavə gəlir axını təmin edəcək.

Sözügedən körpü Naxçıvan üçün həyati əhəmiyyət daşıyır. Uzun illərdir blokada şəraitində olan muxtar respublika bu infrastruktur layihəsi nəticəsində Azərbaycanın qərb bölgələri ilə marşrut əlaqəsi yaradacaq. Avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun göstəricilərinin ölkələrin ərazisindən keçən tranzit yükdaşımalarının artımına və Naxçıvan Muxtar Respublikasına gediş-gəlişin asanlaşdırılmasına xidmət göstərəcək. 7 gediş-gəliş xətləri olacaq dövlət sərhədindən buraxılış məntəqəsinin, eləcə də avtomobil körpüsünün gündəlik qəbul edə biləcək yük-nəqliyyat vasitələrinin sayı ən azı 1100 təşkil edəcək.

* * *

Asiya İnkişaf Bankı Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı çərçivəsində üzv ölkələr üçün yeni nəsil sərhəd-keçid məntəqələrinin inkişafını nəzərdə tutan layihəni təsdiqləyib. Bu barədə bank tərəfindən məlumat yayılıb.

Layihə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Pakistan, Çin, Tacikistan, Türkmənistan və Özbəkistanı əhatə edir. Təşəbbüsün icrası 1 milyon ABŞ dolları məbləğində Xüsusi Texniki Yardım Fondu hesabına maliyyələşdiriləcək.

Texniki yardım sərhəd-keçid məntəqələrinin inkişafında iqlim dəyişiklikləri və innovativ həllərin tətbiqini nəzərə almaqla həyata keçiriləcək. Əsas məqsəd CAREC regionunda nəqliyyat və ticarət axınlarının daha səmərəli təşkili, sərhəd prosedurlarının modernləşdirilməsi və iştirakçı ölkələrə institusional dəstəyin göstərilməsidir. Təşəbbüs çərçivəsində CAREC nəqliyyat dəhlizləri boyunca kiçikmiqyaslı layihələrin maliyyələşdirilməsini nəzərdə tutan BUILD mexanizmindən istifadə olunacaq. Bu mexanizm vasitəsilə sərhəd infrastrukturunun modernləşdirilməsi layihələrinin təşviqi planlaşdırılır.

Texniki yardım proqramı azı üç prioritet sərhəd-keçid məntəqəsi üzrə layihə sənədlərinin hazırlanmasını (ilkin əsaslandırma, texniki-iqtisadi əsaslandırma və kompleks ekspertiza daxil olmaqla), həmçinin BUILD mexanizmi vasitəsilə maliyyələşdiriləcək layihələr üçün yeni yanaşmanın işlənib hazırlanmasını əhatə edir. Eyni zamanda, CAREC ölkələrinin sərhəd infrastrukturunun idarə olunması və inkişafı sahəsində institusional potensialının gücləndirilməsi də nəzərdə tutulur.

Layihənin icrası nəticəsində sərhəd-keçid məntəqələrində infrastrukturun və əməliyyat prosedurlarının təkmilləşdirilməsi, CAREC nəqliyyat şəbəkəsi üzrə ticarət əməliyyatlarında vaxt və xərclərin azalacağı proqnozlaşdırılır.

*Musa BAĞIRLI*
*XQ*

# bp-nin "yaşıl" təhsilə dəstəyi

**Azərbaycanda iri neft-qaz hasilatı və ixracı layihələrinin operatoru olan bp şirkəti bir sıra sosial sərmayə layihələrinin də fəal iştirakçısıdır. Şirkətin Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) keçirilmiş bərpaolunan enerji mənbələri üzrə magistr proqramının ilk buraxılış tədbirinə qoşulması da bu qəbildən olan layihələrdəndir. Yeni təhsil proqramının buraxılış tədbirində ilk 27 məzuna ikili diplom verilib.**



Britaniya şirkəti ikili diplom verən bu proqrama təsis edildiyi vaxtdan, yəni 2023-cü ildən dəstək verir. Proqram Azərbaycanda tamamilə yeni bir təhsil istiqaməti olmaqla bərpaolunan enerji mənbələri üzrə ixtisaslaşan yeni nəsil yerli mühəndislərin yetişdirilməsinə imkan yaradır. bp şirkəti bu proqrama ölkədə bacarıq və potensialın inkişafına uzunmüddətli dəstək öhdəliyinin bir hissəsi kimi 2 milyon dollarlıq sosial sərmayə layihəsi ilə qoşulub.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə təsis edilən bu proqram ADNSU tərəfindən Böyük Britaniyanın Uorik Universiteti ilə tərəfdaşlıqda həyata keçirilir. Təşəbbüsdə məqsəd beynəlxalq akademik təcrübəni yerli tədris metodologiyaları ilə bir araya gətirməklə Azərbaycanda bərpaolunan enerji üzrə təhsil potensialını gücləndirməkdir. bp-nin bu proqrama dəstəyi bərpaolunan enerji laboratoriyasının yaradılmasına, lazımi infrastruktur və avadanlıq təminatına, eləcə də akademik potensialın gücləndirilməsinə və akademik heyətin inkişafına yönəlmiş fəaliyyətləri əhatə edir.

Tədbirdə çıxış edən bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Bu yeni ikili diplom proqramının ilk məzun buraxılışını qeyd etməkdən çox məmnunuq. Təhsil və bacarıqların inkişafına sərmayə Azərbaycanın enerji keçidinə dəstəyimizin əhəmiyyətli bir hissəsidir. İnanırıq ki, bu proqram ölkənin sürətlə inkişaf edən enerji sektorunun tələb etdiyi praktik bilik və səriştələri olan yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına böyük dəstək olacaq. Bu uğurlu başlanğıc həmçinin ölkədə bərpaolunan enerji sahəsində təhsil potensialının artırılması istiqamətində Elm və Təhsil Nazirliyi və universitetlərlə qurduğumuz güclü əməkdaşlığın əhəmiyyətini əks etdirir".

Qeyd edək ki, bp-nin dəstəyi ilə davam edən bu layihəyə ADNSU-da bərpaolunan enerji laboratoriyasının yaradılması daxildir ki, bu da günəş, külək və hidrogen enerjisi üzrə praktiki öyrənməyə və tətbiqi tədqiqatların aparılmasına imkan verəcək. Eyni zamanda, sözügedən laboratoriya qabaqcıl eksperimental və simulyasiya avadanlıqları ilə təchiz ediləcək. Bununu da hesabına tələbə və tədqiqatçılar real şəraitdə ölçmələr aparmaq, enerji çevrilməsi proseslərini müşahidə etmək və sistemlərin fəaliyyət göstəricilərini sənaye üzrə uyğun proqram təminatlarından istifadə yolu ilə təhlil etmək imkanı qazanacaqlar.

Bununla yanaşı, şirkət laboratoriyanın səmərəli fəaliyyəti üçün lazım olan İT avadanlıqları, proqram təminatı və lisenziyalar, mebel təchizatı, ilk tibbi yardım vasitələri və qoruyucu geyimlər, eləcə də laboratoriya sahəsi üzrə tikinti və təmir işlərinə də əməli dəstək göstərəcək. Yerli akademik potensialın gücləndirilməsi üçün bacarıqların artırılması və akademik heyətin inkişafına göstərilən dəstək hesabına isə proqramın tədris heyəti üçün ingilis dili təlimləri, eləcə də bərpaolunan enerji sahəsində ixtisaslaşan yerli müəllimlərin, mütəxəssislərin və proqram inzibatçılarının bilik mübadiləsi məqsədilə Böyük Britaniyanın Uorik Universitetinə tədris səfərləri təşkil olunacaq.

İkili diplom proqramının ikinci tədris qrupuna məqsədli dəstək, o cümlədən dərs demək üçün Böyük Britaniyadan Bakıya dəvət olunan müəllimlərin səfər və təlim xərcləri, eləcə də ADNSU tələbələrinin beynəlxalq akademik mühitlə tanışlığı və praktiki öyrənmə təcrübəsi qazanmaları üçün adıçəkilən ölkədə yay məktəbində iştirakı ilə bağlı xərclər də bp-nin maliyyəsi hesabına qarşılanacaq.

Xatırladaq ki, bp şirkəti Azərbaycanda fəaliyyət göstərdiyi 34 il ərzində neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin əməliyyatçısı olaraq işlərin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. Ötən müddətdə şirkət öz tərəfdaşları ilə birlikdə ölkəmizdə icraçısı olduğu layihələrə 89 milyard dollardan çox sərmayə qoyub. Bütövlükdə isə, dünyanın neft nəhəngi Azərbaycanda ən çox töhfə verə biləcəyinə əmin olduğu sahələrə diqqət ayırmaqla dayanıqlı inkişaf təşəbbüslərinə dəstək verməyi öhdəliyi götürüb.

Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib. Fəaliyyətə başladığı vaxtdan indiyədək bp özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkədəki sosial sərmayə layihələrinə, ümumilikdə, 115 milyon ABŞ dollarından çox vəsait xərcləyib.

Ümumilikdə, bp-nin ölkəmizdə indiyədək həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səylər insanlara əhəmiyyətli faydalar gətirməklə onların həyatını yaxşılaşdırıb və dəyişdirib. Hazırda bp şirkətinin Azərbaycandakı layihələrində, təxminən, 2 min 344 yerli vətəndaş çalışır. Bu da şirkətin ixtisaslı işçi heyətinin 90 faizindən çoxunu təşkil edir.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

# "AzərGold"un gəlirləri çoxalıb

**Azərbaycanın qeyri-neft-qaz sektoru üzrə əsas ixracatçı dövlət şirkətlərindən biri olan "AzərGold" QSC 2026-cı ilin birinci rübündə beynəlxalq və yerli bazarlarda 12 min 284 unsiya qızıl və 22 min 53 unsiya gümüş satıb. Qurum bununla ölkə iqtisadiyyatına 102,4 milyon manat vəsait cəlb edib.**




Hesabat dövründə əldə edilən gəlirlərin 91,1 milyon manatdan çoxu ixrac əməliyyatlarının, 11,3 milyon manatdan çox hissəsi isə yerli bazarda pərakəndə satışın payına düşüb. Ötən ilin eyni dövrü ilə müqayisədə ixrac gəlirləri (72,5 milyon manat) 26 faiz, pərakəndə satış gəlirləri isə (5,6 milyon manat) 102 faiz artıb. Beləliklə, dövlət şirkəti fəaliyyət dövrü ərzində, ümumilikdə, 572,3 min unsiya qızıl və 1,1 milyon unsiya gümüş satışını həyata keçirərək ölkə iqtisadiyyatına 2 milyard 40 milyon manat vəsait cəlb edib.

Ümumilikdə isə, şirkət bütün fəaliyyəti ərzində dövlət büdcəsinə 281 milyon manat vəsait ödəyib. Bunun 242 milyon manatı vergi, 39 milyon manatı isə sosial ödənişlərin payına düşüb. Yeri gəlmişkən, Azərbaycanın milli dağ-mədən şirkəti 2025-ci il üzrə dolayı vergilər (ƏDV, aksiz) istisna olmaqla hesablamasına ən çox olan 100 vergi ödəyicisi arasında 20-ci yerdə qərarlaşıb.

"AzərGold" QSC əhəmiyyətli vergi ödənişləri ilə yanaşı, fəaliyyət göstərdiyi regionda məşğulluğun genişləndirilməsinə də mühüm töhfələr verib. Bu ilin birinci rübündə şirkət və onun törəmə müəssisələrində çalışan əməkdaşların sayı 1152 nəfərə çatıb. Hazırda dövlət şirkətinin fəaliyyəti nəticəsində Gəncə–Daşkəsən iqtisadi rayonunda podratçı təşkilatlar da daxil olmaqla 2595 nəfər daimi işlə təmin edilib.

Milli dağ-mədən şirkəti cari ilin birinci rübündə əldə etdiyi maliyyə göstəriciləri, ixrac və satış həcmlərində müşahidə olunan artım, dövlət büdcəsinə ödənişlər, məşğulluğun genişləndirilməsi, eləcə də yerli icmalara yönəlmiş təşəbbüslərin icrası istiqamətindəki fəaliyyəti ilə ölkəmizin sosial-iqtisadi inkişafına töhfə verməyə davam edir.

*XQ*

# Xaricə qaz nəqli 6,9 faiz artıb

**Bu ilin I rübündə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən 12 min 704 metr qazma işləri həyata keçirilib. Hesabat dövründə şirkətin müstəqil şəkildə və ya əsas payçı qismində istismar etdiyi yataqlarda 1 milyon 672,2 min ton neft və 1 milyard 850 milyon 121 min kubmetr qaz hasil olunub.**

İlin ilk 3 ayında Azərbaycanda xam neft hasilatı 6 milyon 627 min 830 ton təşkil edib. Ölkə üzrə qaz hasilatı isə 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz artaraq 12 milyard 639 milyon 631 min kubmetrə çatıb.

Yanvar–mart aylarında Dövlət Neft Şirkəti xarici bazarlara 3 milyon 519 min 855 ton neft ixrac edib. Bura şirkətin öz imkanları ilə çıxardığı neft həcmləri ilə birlikdə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq konsorsiumlar tərəfindən hasil olunan neftin Azərbaycan dövlətinə və milli şirkətə məxsus mənfəət payları da daxildir. Bununla yanaşı, ilin ilk rübündə ölkə üzrə 6 milyard 504 milyon 227 min kubmetr təbii qaz ixrac olunub ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,9 faiz artım deməkdir. Hesabat dövründə ölkə üzrə istehlakı isə 4 milyard 755 milyon 547 min kubmetr təşkil edib.



Cari ilin birinci rübündə Dövlət Neft Şirkəti tərəfindən 1 milyon 449 min 696 ton neft və 636 milyon 387 min kubmetr qaz emal edib. Ötən ilin eyni dövrü ilə müqayisədə neft emalında 3,7 faiz artım baş verib. Qurumun Azərbaycandakı müəssisələrində istehsal olunan 394,4 min ton neft, neft-kimya və qaz-kimya məhsulları xarici bazarlara ixrac edilib.

*XQ*

# Qeyri-neft ixracında yüksəliş

**2026-cı ilin yanvar–mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 11,7 faiz artaraq 862 milyon ABŞ dolları təşkil edib. Bu dövrdə yeyinti məhsulları üzrə ixrac 25,1 faiz artaraq 281 milyon ABŞ dollarına bərabər olub. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın 2026-cı il üzrə aprel sayında bildirilib.**

Yanvar–mart aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,5 dəfə, pambıq iplik iki dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 68,4 faiz, pambıq lifi 43,5 faiz, meyvə-tərəvəz 22,1 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 20,4 faiz, çay 15,1 faiz, spirtli və spirtsiz içkilər isə 4,3 faiz artıb.



I rübdə aqrar məhsullar üzrə ixrac 26,6 faiz artaraq 215,6 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac 27,4 faiz artaraq 88 milyon ABŞ dolları təşkil edib. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 26,8 faiz artaraq 303,7 milyon ABŞ dollarına bərabər olub. Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (95,3 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda meşə fındığı (68,3 milyon ABŞ dolları) ikinci, mis filizləri (60,8 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2026-cı ilin mart ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (34,6 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq lifi (25,5 milyon ABŞ dolları) ikinci, tomat (18,5 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

3 ayda Rusiya Federasiyasına 211.6 milyon ABŞ dolları, Türkiyəyə 139,9 milyon ABŞ dolları, Gürcüstana 120,7 milyon ABŞ dolları, İsveçrəyə 103,4 milyon ABŞ dolları, Ukraynaya isə 42,7 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

Mart ayında Rusiya Federasiyasına 62,5 milyon ABŞ dolları, Türkiyəyə 56,5 milyon ABŞ dolları, Gürcüstana 43,5 milyon ABŞ dolları, İsveçrəyə 35,7 milyon ABŞ dolları, Ukrayna 13,7 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilib.

*XQ*

# Tikənlərin izi qalar...

## *Lakin bir çox inşaatçının adı hələ də rəsmi qeydiyyatdan gizlədilir*

**Tikinti hər bir ölkədə olduğu kimi, respublikamızda da iqtisadi artıma mühüm təsir göstərən aparıcı sahələrindən biridir. Azərbaycanda həm dövlətin infrastruktur proqramlarında, həm də özəl investisiya layihələrində mühüm rol oynayan bu sektorda inşaat obyektlərinin geniş miqyas alması inkişaf dinamikasından xəbər verməklə bərabər, həm də əmək münasibətlərinin bir sıra hallarda tam hüquqi əsaslarla tənzimlənməməsi ilə diqqət çəkir.**



### Qeyri-rəsmi iş 10-12 saat davam edir

Prezident İlham Əliyev çıxışlarının birində tikinti sektorunda qeyri-rəsmi məşğulluq və bəzi hallarda isə müəssisə rəhbərinin fəhləni daha çox pula qənaət məqsədilə vaxtından çox – 8 saat əvəzinə 10-12 saat işlətməsi kimi ciddi narahatlıq doğuran bir məsələyə toxunaraq işçilərə müraciət edərək deyib: “Siz əmək müqaviləsi olmadan işləməyin. Mən bilirəm ki, bəzi hallarda sizi məcbur edirlər. Amma bilin ki, əgər əmək müqaviləsi olmasa, sabah pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Ona görə sahibkarlar vergisini ödəməli, bütün qanuni tələblərə riayət etməli və məsuliyyətli olmalıdırlar. İmkanlı sahibkarlar, əlbəttə ki, öz sosial məsuliyyətini də dərk etməlidirlər. Eyni zamanda, əsassız olaraq işçiləri ixtisar etməməlidirlər. Çünki ixtisar edilən hər bir iş yeri bir ailəni çörəksiz qoyur. Buna getmək olmaz”.

Məsələyə münasibət bildirən **Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədovun** sözlərinə görə, əsasən qeyri-formal əmək bazarında işçilər normadan artıq işlədilir. Sözügedən problemi doğuran bir sıra səbəblər var. Məsələ ondadır ki, Azərbaycanda qeyri-formal əmək bazarının həcmi həddən artıq yüksəkdir. Düzdür, bir çox sahədə işçilərlə əmək müqaviləsi bağlanılır. Ancaq buna baxmayaraq, qanunsuz olaraq işçilər normadan çox işlədilir. Əslində, əmək qanunvericiliyində iş yerlərində vaxtından çox işlədilən hallar dəqiq şəkildə diqqətə çatdırılaraq ödənişin həyata keçirilməsi yolları aşkar göstərilir.

Müsahibimiz bildirdi ki, bu hal kütləvi şəkildə nəzərə çarpmır. Bir çox tikinti obyektində belə vəziyyət rəsmiləşdirilərək işçiyə ikiqat ödəniş edilir. Bu sahədə ən böyük problem özəl sektorda müşahidə olunur. Orada işçilər iş vaxtından artıq fəaliyyətə cəlb edilməklə kifayətlənilmir, həm də əməyin mühafizəsinə laqeyd münasibət bəslənilir. Dövlət investisiya layihələri həyata keçiriləndə də bəzən bu tələblər pozulur. Yollar, körpülər və digər obyektlərin tikintisi zamanı fəhlələr qızmar günəş altında saatlarla işlədilir. Bu, birincisi, əmək hüquqlarının, ikincisi, əməyin mühafizəsi qaydalarının kobud şəkildə pozulması deməkdir. Bütün bunlar daha çox sağlamlığa zərər vurur...

Yeri gəlmişkən, Əmək Münasibətlərinin Monitorinqi Mərkəzinin bir neçə gün əvvəl yaydığı məlumata görə, tikinti obyektlərində aparılan yoxlamalar nəticəsində son 9 ildə 1677 nəfərin əmək müqaviləsi olmadan işlədildiyi müəyyənləşdirilib. Bu rəqəm, eyni zamanda, 2,5 milyon manatdan artıq cərimənin tətbiqi ilə nəticələnib. Belə bir konkret pozuntu faktı isə adıçəkilən mərkəz tərəfindən əmək bazarında mövcud “kölgədə məşğulluq” probleminin tikinti sektorunda hələ də tam aradan qalxmadığını göstərən ciddi siqnal kimi diqqətə çatdırılıb.

Onu da deyək ki, vurğulanan rəqəmlər dövlətin son illər həyata keçirdiyi nəzarət və monitorinq siyasətinin bu problemin azalmasına təsir etdiyini göstərir. Ekspertlərin qiymətləndirmələrinə əsasən, tikinti sektorunda qeyri-rəsmi məşğulluq səviyyəsinin son dövrdə 4 dəfədən çox azalması dövlətin həm inzibati nəzarət, həm də maarifləndirmə siyasətinin səmərəliliyini nümayiş etdirir.

### “Çörək pulu” bəlası

Tikinti sektorunda bəzən işçilərin bir çoxu əmək müqaviləsi olmadan işləməyə razı olur. Bunun əsas səbəbi gündəlik qazanc ehtiyacıdır. “Əlində pul olsun” prinsipi ilə çalışan fəhlə ilk baxışdan “çörək pulu” əldə etdiyini düşünür. Əslində isə bu, gələcək üçün ən böyük sosial riskdir. Çünki əmək müqaviləsi imzalamayan işçi pensiya kapitalı toplaya bilmir, iş yerində xəsarət alarsa, hüquqi müdafiədən məhrum olur, əmək qabiliyyətini itirərsə, sosial təminatın əldə edilməsi müşkülə çevrilir.

Əmək Münasibətlərinin Monitorinqi Mərkəzinin apardığı yoxlamalar, səyyar monitorinqlər və maarifləndirmə tədbirləri göstərir ki, dövlət bu sahədə sistemli yanaşma tətbiq etməyə başlayıb. **Ekspert Qulu İsgəndərovun** sözlərinə görə, hazırda qeyri-rəsmi məşğulluğun 4 dəfədən çox azalması məhz bu tədbirlərin bariz ifadəsidir. Eyni zamanda, tətbiq olunan 2,5 milyon manatdan artıq cərimə və çox sayda əmək müqaviləsinin rəsmiləşdirilməsi dövlətin həm inzibati, həm də maliyyə mexanizmlərindən səmərəli istifadə etdiyini göstərir.

Bu prosesin iqtisadi baxımdan əsas nəticələri isə əmək bazarında şəffaflığın artmasını, dövlət büdcəsinə vergi daxilolmalarının genişlənməsini, sosial sığorta fondunun güclənməsini, qeyri-qanuni fəaliyyət göstərən şirkətlərin rəqabət üstünlüyünün zəifləməsini deməyə əsas verir. Deməli, əmək müqaviləsi təkcə formal sənəd deyil, bu, eyni zamanda, işçinin hüquqi statusunu təsdiqləyən əsas göstəricidir. Bu, Azərbaycan Respublikasının Əmək Məcəlləsində də xüsusi diqqət çəkir. Sənəddə aydın vurğulanır ki, əmək müqaviləsi işçi ilə işəgötürən arasında əmək münasibətlərinin hüquqi əsasını təşkil edir. Müqavilə olmadan işləyən şəxsin hüquqları faktiki olaraq gerçəkləşmir.

Əmək müqaviləsi ilə çalışan işçi isə qanunvericiliklə minimum əməkhaqqından aşağı olmayan əməkhaqqı almaq, əlavə iş saatlarına görə əlavə ödəniş əldə etmək, gecə vaxtı işlədikdə xüsusi əlavələr qazanmaq, təhlükəsiz əmək şəraitində çalışmaq, sosial sığorta sistemindən yararlanmaq və pensiya və məzuniyyət hüquqlarından bəhrələnmək kimi üstünlüklərə sahib olur. Sadalanan bu hüquqlar təkcə sosial təminat deyil, həm də insanın həyatının sabitliyini formalaşdıran amillərdir.

**Tikinti sektorunda uzun illər fəaliyyət göstərən Oqtay Nəbiyev** inşaatda təhlükəsizlik məsələsinə toxunaraq müqaviləsiz işləməyi ikiqat risk adlandırır və əlavə edir ki, bu fəaliyyət dünyanın hər yerində ən təhlükəli əmək sahələrindən biridir. Burada yüksək mərtəbələrdə çalışmaq, ağır texnika ilə işləmək, elektrik və qaynaq əməliyyatlarını həyata keçirmək, təhlükəli materiallarla təmas qurmaq kimi risklər mövcuddur. Əmək müqaviləsi olmayan işçi bu risklərin qarşısında, demək olar ki, “təhlükəsizlik şəbəkəsindən” kənarda qalır.

O.Nəbiyev deyir ki, əgər işçi işəgötürülənlə əmək müqaviləsi bağlamırsa, bədbəxt hadisə nəticəsində xəsarət alırsa, onun müalicə xərclərinin, kompensasiyanın və gələcək sosial təminatının ödənilməsi məsələsi sual altında qalır. Bu səbəbdən qeyri-rəsmi məşğulluq tikinti sektorunda hər zaman sadəcə iqtisadi yox, həm də humanitar və sosial təhlükəsizlik problemi kimi vurğulanır.

### Aşkarlıqdan qaçmaq olmaz

Ekspertlər bildirirlər ki, qeyri-rəsmi məşğulluq problemi inkişaf etmiş ölkələrdə də mövcuddur, lakin həmin dövlətlərdə bu sahə ilə bağlı sistemli mexanizmlərdən geniş istifadə edilir. Məsələn, Almaniyanın tikinti sektorunda “kölgədə məşğulluq” probleminə qarşı ən sərt tədbirlərə üstünlük verilir. Burada subpodratçı qeyri-qanuni işçi çalışdırırsa, onun özü ilə bərabər, baş podratçı da məsuliyyətə cəlb olunur. Bu cür zəncirvari məsuliyyət prinsipi bazarda ciddi intizamla nəticələnir. Bununla da böyük şirkətlər tərəfindən subpodratçı seçilərkən onların əmək münasibətləri əvvəlcədən diqqətlə yoxlanılır.

Böyük Britaniyada tikinti sektoru üçün ayrıca vergi qeydiyyat mexanizmi tətbiq olunur. Subpodratçıların ödənişləri, işçi statusu və vergi öhdəlikləri elektron platforma üzərindən izlənilir. Bu sistemin tətbiqi ilə “kölgədə məşğulluq” probleminin qarşısı ciddi şəkildə alınır. Estoniya isə tikinti sektorunun rəqəmsal idarəedilməsi sahəsində lider sayılır. Bu ölkədə əmək müqavilələri elektron sistemdə qeydiyyata alınır və işçi əmək fəaliyyətinə başlamazdan əvvəl həmin məlumatlar dövlət sistemində diqqətə çatdırılır. Bu, qeyri-rəsmi məşğulluğun texniki baxımdan mümkünsüzlüyü kimi dəyərləndirilir.

Ekspertlərin fikrincə, əldə edilən müsbət nəticələrə baxmayaraq, xüsusilə kiçik podratçı seqmentində qeyri-rəsmi məşğulluq halları hələ də qalır. Bu isə göstərir ki, inzibati tədbirlər davamlı xarakter almalıdır. Bu istiqamətdə, ilk növbədə, subpodrat sisteminə nəzarət sərtləşdirilməlidir. Başqa sözlə, əgər subpodratçı əmək müqaviləsi bağlamırsa, məsuliyyətin bir hissəsi baş podratçıya da aid edilməlidir.

Respublikanın tikinti obyektlərində elektron işçi qeydiyyat sisteminin qurulmasına da zəruri ehtiyac duyulur. Bu, o deməkdir ki, inşaat obyektinə daxil olan hər bir işçi elektron sistemdə qeydiyyatdan keçməli və onun əmək müqaviləsi real vaxt rejimində yoxlanılmalıdır. Bu mexanizm gələcəkdə rəqəmsal nəzarətin ən təsirli forması ola bilər.

Əlbəttə, burada stimullaşdırıcı mexanizmlərdən danışarkən, təkcə cərimə ilə kifayətlənməklə vəziyyət düzəlmir. Yəni qanunu pozanlara cərimə tətbiq etmək səmərəliliyə nail olmaq anlamına gəlmir. Ona görə də bu proses paralel şəkildə stimullaşdırıcı mexanizmlərlə gücləndirilməlidir. Başqa sözlə, rəsmi işçi sayı yüksək olan şirkətlərə dövlət tenderlərində üstünlük, vergi güzəştləri, sosial məsuliyyət reytinqi kimi yanaşmalar diqqətdə saxlanılmalıdır. Bütün bunlarla yanaşı, qeyri-rəsmi məşğulluğun qarşısını almaq məqsədilə hər bir işçi əmək müqaviləsinin onların gələcəyinə təsirini dərk etməlidir. Çünki əmək müqaviləsi işçi üçün sadəcə kağız parçası deyil, həm də gələcək pensiya, sığorta, məzuniyyət və hüquqi müdafiə deməkdir.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Asif İBRAHİMOV,**
**beynəlxalq idarəetmə sistemləri üzrə mütəxəssis**

Tikinti sektorunda qeyri-rəsmi məşğulluq uzun illər formalaşmış struktur problemlərdən qaynaqlanıb. Bu çətinliklər bir neçə əsas istiqamətdə cəmləşib. Əvvəla belə vəziyyəti daha çox layihə əsaslı iş modeli və müvəqqəti əmək bazarı şərtləndirib. Başqa sözlə, tikinti sektorunun digər sahələrdən fərqi ondadır ki, burada iş yerləri daimi deyil, çox zaman konkret layihə ilə məhdudlaşır. Layihə başa çatdıqdan sonra isə işçi heyətinin böyük hissəsi yeni obyektlərə yönəldilir və ya qeyri-sabit məşğulluq vəziyyətinə düşür.

Bu qeyri-sabitlik isə bəzi işəgötürənlər üçün əmək müqaviləsi bağlamağı “əlavə məsuliyyət” kimi göstərir. Halbuki qanunvericilik əmək müqaviləsini layihə müddətinə də bağlamağa imkan verir. Problem hüquqi imkanın olmamasında deyil, məsuliyyətdən yayınma meyillərindədir. Digər bir məsələ isə inşaat prosesində, necə deyərlər, məsuliyyətin parçalanması ilə bağlıdır. Belə ki, tikinti obyektlərinin əksəriyyətində baş podratçı ilə yanaşı, çoxsaylı subpodratçılar da fəaliyyət göstərir. Bu zəncirin uzanması nəticəsində məsuliyyət parçalanır, nəzarət çətinləşir və bəzi subpodratçı qeyri-rəsmi işçi qüvvəsi hesabına xərclərini azaltmağa çalışırlar.

Ən riskli məqam isə odur ki, baş podratçı çox zaman işçilərlə birbaşa əlaqədə olmaması səbəbindən əmək münasibətlərinin qanuniliyinə dair nəzarət mexanizmləri yetərincə işləmir və qeyri-rəsmi məşğulluq halları artır. Bundan başqa, tikinti sektorunda qeyri-rəsmi məşğulluğun mövcudluğuna sosial sığorta və vergi ödənişlərindən yayınma meyilləri də mənfi təsir göstərir. Başqa sözlə, işəgötürən bəzən əmək müqaviləsi bağlamamaqla sosial sığorta haqqı ödəməkdən, icbari tibbi sığorta ayırmalarından, vergi öhdəliklərindən yayınmağa çalışır. Bu isə əmək bazarında qeyri-bərabər rəqabət mühiti yaradır.

Mövcud vəziyyət göstərir ki, problem tam aradan qalxmayıb, xüsusilə kiçik podratçı seqmentində qeyri-rəsmi məşğulluq halları hələ də qalmaqdadır. Bu baxımdan, subpodrat münasibətlərinə nəzarətin gücləndirilməsi, rəqəmsal qeydiyyat sistemlərinin geniş tətbiqi və stimullaşdırıcı mexanizmlərin artırılması növbəti mərhələdə əsas prioritetlər olmalıdır. Düşünürəm ki, əldə olunan irəliləyişlər müsbət qiymətləndirilməli, lakin davamlı və sistemli islahatlarla bu sahədə tam şəffaflığın təmin olunmasına nail olunmalıdır.

### *1 May Beynəlxalq Əmək Günüdür*

**Bu günün tarixi Haymarket hadisəsi ilə bağlıdır. 1886-cı ildə ABŞ-ın Çikaqo şəhərində fəhlələr 8 saatlıq iş günü tələbi ilə kütləvi etirazlara başladılar. Etirazlar zamanı baş verən qarşıdurmalar nəticəsində bir neçə insan həyatını itirdi və bu hadisə işçi hərəkatına çevrildi. Sonradan, 1889-cu ildə İkinci İnternasional tərəfindən 1 mayın beynəlxalq əmək günü kimi qeyd olunması qərara alındı.**

# Layiqli əməyin təntənəsi uğrunda həmrəylik

“Sosialist bacı” adı ilə tanınan kommunist Roza Lüksemburq tarixi məqaləsində yazırdı: “1 May əsasən, 8 saatlıq iş günü çağırışları ilə başlasa da, bu məqsədə nail olduqdan sonra da bu proses bitmədi. Nə qədər ki işçilərin burjuaziya və hakim sinfə qarşı mübarizəsi davam edir, nə qədər ki bütün tələblər yerinə yetirilməyib, 1 May bayramı da hər il bu tələblərin ifadəsi olacaq. Xoş günlərə çıxanda və dünyanın dörd bir yanında işçi sinfi azadlığa qovuşanda belə, çox güman ki, mübarizə yolu və çəkilən əzabları anaraq insanlıq 1 Mayı bayram kimi keçirəcək”.

XIX əsrdə fəhlələrin 8 saatlıq iş günü uğrunda mübarizəsi ilə başlayan proses bu gün daha mürəkkəb və çoxşaxəli sosial-iqtisadi çağırışlarla müşayiət olunur. Əmək münasibətlərinin institusional əsaslarının formalaşmasında İkinci İnternasional tərəfindən 1 Mayın beynəlxalq səviyyədə qeyd olunması qərarı mühüm rol oynadı. Bu qərar işçi hərəkatını beynəlxalq səviyyəyə çıxardı və əmək hüquqlarının qlobal gündəliyə daxil edilməsinə təkan verdi. Lakin keçən onilliklər ərzində əmək bazarının strukturu köklü şəkildə dəyişib.



Sovet dönəmində 1 May dövlət ideologiyasının ən mühüm bayramlarından biri idi və geniş miqyasda təşkilatlanmış şəkildə qeyd olunurdu. İri şəhərlərin mərkəzi meydanlarında minlərlə insan – fəhlələr, kolxozçular, tələbələr, ziyalılar təşkil olunmuş kolonlar şəklində yürüş edirdi. Bayram həm də bir növ “hesabat xarakteri” daşıyırdı. Müəssisə və zavodlar öz nailiyyətlərini nümayiş etdirir, planların yerinə yetirilməsi və sosialist yarışlarının nəticələri vurğulanırdı. Əməyin ali dəyər kimi təqdim olunduğu sistemdə 1 May həm simvolik, həm də praktik baxımdan siyasi məzmun daşıyırdı. Bu gün vasitəsilə hakimiyyət işçi sinfinin rolunu qabardır, cəmiyyətin bütün təbəqələrini vahid ideoloji platforma ətrafında səfərbər etməyə çalışırdı. Bayramın kökləri beynəlxalq fəhlə hərəkatına dayansa da, Sovet İttifaqı şəraitində 1 May xüsusi ideoloji çalar qazanmışdı.

Ayrı-ayrı dövrlərdə 1 May bayramı Dünya Fəhlələrinin Həmrəylik Günü, Dünya Zəhmətkeşlərinin Həmrəylik Günü, Əmək Günü, Beynəlmiləlçilik Günü, Əmək və Bahar Günü kimi fərqli adlar daşıyıb. Bu gün də 1 may bir çox ölkələrdə həm əmək hüquqlarının müdafiəsi, həm də sosial ədalət uğrunda çağırışların rəmzidir. Hazırda dünyanın 100-dən artıq ölkəsində ictimai bayram, 70-ə yaxın ölkəsində isə dövlət səviyyəsində rəsmi bayram günü kimi qeyd olunur. Xüsusən də Çin, Şimali Koreya, Vyetnam, Kuba, Venesuela, Boliviya, Asiya və Latın Amerikasında bu bayram kütləvi şəkildə keçirilir. 1 may Türkiyə Respublikasının tarixinə işçi və fəhlə günü kimi düşmüşdür.

Bu günlə bağlı bəzi ölkələrdə fərqli adətlər var. Məsələn, 1 mayda Fransada qızlara zanbaq gülü hədiyyə edilir. İtaliyada isə gül festivalı keçirilir. Almaniyada bayram münasibətilə yarmarkalar açılır. Həmin yarmarkalarda sakinləri rəqs və digər əyləncələrlə qarşılayırlar. İsveçdə isə mayın 1-də isveçlilər evdən çıxardıqları tullantıları yandırırlar. Rusiyada 1 may Əmək və bahar bayramı, Finlandiyada tələbələrin bahar karnavalı kimi qeyd edilir. 1996-cı ildən Qazaxıstanda 1 may tarixi xalqın birlik bayramı elan olunub. İngiltərədə həmin gün milli paltar geyinən sakinlər rəngli lentlər bağlanmış dirəklərin ətrafında rəqs edərək dünyaya sülh və əmin-amanlıq arzulayırlar.

Müasir dövrdə əmək münasibətləri yalnız sənaye sektorunda çalışan fəhlələrlə məhdudlaşmır. Rəqəmsallaşma, avtomatlaşma və platforma iqtisadiyyatının genişlənməsi yeni əmək formaları yaradıb. Uzaqdan iş imkanları və qeyri-formal məşğulluğun artması işçi hüquqlarının qorunması baxımından yeni risklər doğurur. Ənənəvi əmək müqavilələrinin zəifləməsi sosial təminat sistemlərinin yenidən nəzərdən keçirilməsini zəruri edir.

Ölkəmizdə əmək hüquqları, məşğulluq siyasəti və sosial müdafiə məsələləri dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi diqqətdə saxlanılır. Həyata keçirilən aktiv məşğulluq proqramları, peşə hazırlığı kursları və özünüməşğulluq layihələri əmək bazarının daha çevik və inklüziv olmasına xidmət edir. Regionlarda kiçik bizneslərin qurulması, kənd təsərrüfatı sahəsində məşğulluğun artırılması və rəqəmsal bacarıqların inkişafına yönəlmiş təşəbbüslər bu sahədə diqqətçəkən istiqamətlərdəndir. Qeyri-formal məşğulluğun azaldılması, əmək müqavilələrinin sayının artırılması və iş yerlərində təhlükəsizliyin təmin olunması istiqamətində görülən işlər də böyük əhəmiyyət kəsb edir.

Əmək hüququ sosial dövlət modelinin əsas sütunlarından biri kimi çıxış edir və əmək münasibətlərinin hüquqi çərçivədə tənzimlənməsi iqtisadi sabitliklə yanaşı, sosial ədalətin təminində mühüm rol oynayır. Bu sahənin əsas hüquqi bazasını Azərbaycan Respublikasının Əmək Məcəlləsi təşkil edir. Məcəllə işçi və işəgötürən arasında münasibətləri sistemli şəkildə tənzimləyərək tərəflərin hüquq və vəzifələrini aydın şəkildə müəyyən edir.

Əmək münasibətlərinin əsas prinsipləri sırasında könüllülük, bərabərlik, ayrı-seçkiliyin yolverilməzliyi və əmək hüquqlarının dövlət tərəfindən qorunması xüsusi yer tutur. Bu prinsiplər beynəlxalq standartlarla da uzlaşır və ölkənin qoşulduğu Beynəlxalq Əmək Təşkilatı (BƏT) konvensiyalarında əksini tapır.

Ümumilikdə, ölkəmiz BƏT-in 60-dək Konvensiyasını ratifikasiya edib. Bu sənədlər əsas işçi hüquqları ilə bağlıdır, habelə əməyin mühafizəsi ilə əlaqədar yanaşmaları əks etdirir. BƏT-lə əməkdaşlıqda Layiqli Əmək üzrə iki Ölkə Proqramı uğurla icra olunub, 2025-ci ildə isə “2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı” imzalanıb.

Qeyd edilənlərlə yanaşı, mütərəqqi beynəlxalq yanaşmalar əsasında əmək qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində son illər əhəmiyyətli irəliləyişlərə nail olunub. Əmək və məşğuluq sahəsində rəqəmsallaşma, əmək bazarının transformasiyası fonunda elektron əmək müqavilələrinin tətbiqi geniş vüsət alıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən son illər yaradılan “Əmək və məşğulluq” altsistemi bu sahədə mühüm rola malikdir. “Əmək və məşğulluq“ altsistemi (ƏMAS) əmək münasibətlərinin tənzimlənməsi və məşğulluğun təmin edilməsi proseslərində işəgötürənlər və işçilərin, işsiz və işaxtaranların vahid elektron platformada cəmləşməsinə, insan resursları ilə işin təşkilinə və bu sahədə şəffaflığın təmin edilməsinə zəmin yaradan elektron platformadır. Bu elektron sistem əmək münasibətlərinin şəffaflaşmasına və bu sahəyə nəzarətin çevik və səmərəli təşkilinə imkan verib. ƏMAS vasitəsilə əmək müqavilələrinin e-qeydiyyatı prosesi şəffaflaşdırılıb və əmək müqavilələrinin artıq 97 faizi elektron qaydada bağlanıb.

Əmək münasibətlərinin effektiv tənzimlənməsində dövlət nəzarət mexanizmləri də xüsusi əhəmiyyət daşıyır. Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətinin gücləndirilməsi sahəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti məqsədyönlü işlər aparır. Eyni zamanda, iş yerlərində əmək şəraitinin təhlükəsizliyi və sağlamlığı ilə bağlı tədbirlər həyata keçirilir.

Sosial tərəfdaşlıq institutu da əmək münasibətlərinin balanslı inkişafında mühüm rol oynayır. İşəgötürənlər, işçilər və dövlət arasında sosial dialoq platforması olan üçtərəfli əməkdaşlıq mexanizmi fəaliyyət göstərir.

***Mustafa KAMAL***
***XQ***

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 30 aprel tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Dövlət orqanları (qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin həyata keçirilməsi

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və digər büdcə təşkilatları (bundan sonra – dövlət qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət qurumları tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin (bundan sonra – tənzimləyici pilot layihə) həyata keçirilməsi ilə bağlı tələbləri və qaydaları tənzimləyir.

1.2. Bu Qaydaların məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **çıxış strategiyası** – tənzimləyici pilot layihənin dayandırılması zamanı həmin layihənin həyata keçirilməsinə təşəbbüs göstərən dövlət qurumu tərəfindən görüləcək tədbirləri ehtiva edən plan;

1.2.2. **istifadəçi** – tənzimləyici pilot layihə çərçivəsində tətbiq edilən rəqəmsal həllərdən və ya təşkil olunan elektron xidmətlərdən istifadə edən, habelə layihənin gedişatının və nəticələrinin qiymətləndirilməsi üçün rəy və təklifləri alınan hüquqi və ya fiziki şəxs;

1.2.3. **iştirakçı** – tənzimləyici pilot layihə çərçivəsində rəqəmsal həllin və ya elektron xidmətin formalaşdırılması, sınaqdan keçirilməsi və ya tətbiqi (göstərilməsi) prosesinə cəlb edilən aidiyyəti dövlət qurumu, digər hüquqi və ya fiziki şəxs (o cümlədən startapçı);

1.2.4. **rəqəmsal həll** – fəaliyyətin şəffaflığının, effektivliyinin, səmərəliliyinin artırılması, həmçinin göstərilən xidmətlərin keyfiyyətinin və istifadəçi məmnunluğunun yüksəldilməsi məqsədilə tətbiq edilən proqram təminatı və texnoloji avadanlığın məcmusu;

1.2.5. **tənzimləyici pilot layihə** – rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsinin, habelə elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyənləşdirilməsinin məhdud çərçivədə (ərazi, müddət, əməliyyatların sayı, həcmi, iştirakçıların və istifadəçilərin sayı (dairəsi) ilə bağlı və ya digər məhdudiyyətlər) Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – tənzimləyici orqan) tənzimləməsi ilə həyata keçirilməsinə imkan verən alət.

1.3. Bu Qaydalarda istifadə olunan digər anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş mənaları ifadə edir.

1.4. Tənzimləyici pilot layihələrin həyata keçirilməsinin məqsədləri aşağıdakılardır:

1.4.1. dövlət qurumlarının səlahiyyətlərinin həyata keçirilməsinin, o cümlədən dövlət xidmətləri göstərilməsinin rəqəmsal texnologiyalar tətbiq edilməklə təşkili;

1.4.2. dövlət idarəetməsində səmərəliliyin, effektivliyin, şəffaflığın gücləndirilməsi, eləcə də dövlət xidmətlərinin keyfiyyətinin və vətəndaş məmnunluğunun yüksəldilməsi.

1.5. Dövlət qurumu tərəfindən eyni dövr ərzində iki və daha artıq tənzimləyici pilot layihə, habelə iki və daha çox dövlət qurumu tərəfindən, bu Qaydaların 2.1.3-cü yarımbəndinin tələbi nəzərə alınmaqla, eyni məsələ üzrə oxşar tənzimləyici pilot layihə həyata keçirilə bilər.

1.6. Bu Qaydalar Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin aktlarından irəli gələn tapşırıqların icrası ilə əlaqədar hazırlanması nəzərdə tutulan rəqəmsal inkişafla bağlı layihələrə (o cümlədən rəqəmsal həllərə və elektron xidmətlərə), həmçinin ali kateqoriya dövlət orqanlarına, habelə mühafizə olunan şəxslərin, qorunan və strateji obyektlərin təhlükəsizliyini təmin edən dövlət orqanlarına, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə, habelə onların həyata keçirdiyi tənzimləyici pilot layihələrə şamil edilmir.

1.7. Bu Qaydalar kritik informasiya infrastrukturu obyektlərinə həmin sahəni tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.8. Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasına səbəb olan, həmçinin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi, istehlakçıların hüquqlarının müdafiəsi, dövlət sirrinin, fərdi məlumatların mühafizəsi və informasiya təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərindən kənara çıxılmaqla tənzimləyici pilot layihələrin həyata keçirilməsinə yol verilmir.

1.9. Tənzimləyici pilot layihələrin həyata keçirilməsi zamanı normativ hüquqi aktların tələblərindən kənara çıxan hərəkətlər hər hansı hüquqi nəticə yaratmır.

## 2. Tənzimləyici pilot layihələrin əhatə dairəsi

2.1. Bu Qaydalar aşağıdakı bütün tələblərə cavab verən tənzimləyici pilot layihələrin həyata keçirilməsinə şamil olunur:

2.1.1. tənzimləyici pilot layihələrin aşağıdakı rəqəmsal texnologiyaların tətbiqi əsasında həyata keçirilməsi:

2.1.1.1. "süni intellekt" texnologiyaları (maşın öyrənməsi, təbii dil emalı, böyükhəcmli məlumatların emalı, analitik təhlili və s.);

2.1.1.2. "bulud" texnologiyaları və yüksək səviyyəli hesablama texnologiyaları;

2.1.1.3. sahəvi (maliyyə, aqrar, təhsil, tibbi və s.) tətbiqyönümlü rəqəmsal texnologiyalar;

2.1.1.4. "ağıllı şəhər" texnologiyaları ("əşyaların interneti", yaşıl texnologiyalar, telesəhiyyə, nəqliyyatın intellektual idarə edilməsi və s.);

2.1.1.5. rəqəmsal mühitdə istifadəçilərdə real mövcudluq və iştirak hissi yaradan texnologiyalar (artırılmış reallıq, virtual reallıq, metakainat və s.);

2.1.2. tənzimləyici pilot layihələrin həyata keçirilməsinin bu Qaydaların 1.4-cü bəndində nəzərdə tutulmuş məqsədlərdən azı birinə nail olmağa yönəlməsi;

2.1.3. tənzimləyici pilot layihələrin həyata keçirilməsi zamanı digər dövlət qurumlarının səlahiyyətlərinə müdaxilə etmədən mövcud hüquqi tənzimləmədən kənara çıxılması zərurəti olduğu təqdirdə (bu Qaydaların 1.8-ci bəndi nəzərə alınmaqla).

## 3. Tənzimləyici pilot layihənin təsdiq edilməsi

3.1. Tənzimləyici pilot layihənin həyata keçirilməsi üçün dövlət qurumu tənzimləyici orqana müraciət edir. Müraciəti dövlət qurumunun rəhbəri və ya onun müavini imzalayır.

3.2. Müraciətə aşağıdakı sənədlər və məlumatlar əlavə olunur:

3.2.1. tənzimləyici pilot layihənin həyata keçirilməsinin məqsədləri, proqnozlaşdırılan nəticəsi, onun mövcud hüquqi tənzimləmədən kənara çıxması zərurəti və həcmi, eləcə də istifadə olunacaq rəqəmsal texnologiyalar barədə məlumatlar;

3.2.2. tənzimləyici pilot layihənin tətbiq olunacağı ərazi, proqnozlaşdırılan müddət, həmçinin həyata keçirilməsi zamanı hədəflənən (iştirakı nəzərdə tutulan) iştirakçı və istifadəçi sayı (dairəsi) barədə məlumatlar;

3.2.3. tətbiq ediləcək rəqəmsal həllin funksiyası və (və ya) təşkil olunacaq elektron xidmətin həyata keçirilməsi proseduru barədə məlumatlar;

3.2.4. rəqəmsal həllin tətbiqi və (və ya) elektron xidmətin təşkili ilə bağlı ehtimal olunan risklərin təsviri barədə məlumatlar, onların aradan qaldırılması və ya minimuma endirilməsi üçün fəaliyyətin davamlılığı planı (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə);

3.2.5. rəqəmsal həllin tətbiqi və (və ya) elektron xidmətin təşkili ilə bağlı tələb olunan maliyyə və insan resursları, habelə texniki-texnoloji infrastrukturun (o cümlədən böyükhəcmli məlumatların emalı zamanı yüksək hesablama gücü olan superkompüterin və ya "bulud" infrastrukturunun) mövcudluğu barədə məlumatlar;

3.2.6. rəqəmsal həllin tətbiqi və (və ya) elektron xidmətin təşkili ilə bağlı layihə sənədi, arxitektura sənədi (mövcud olduğu halda), habelə layihənin həyata keçirilməsi üçün tərtib olunmuş tədbirlər planı (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə);

3.2.7. tənzimləyici pilot layihənin həyata keçirilməsi nəticəsində test rejimindən real mühitə keçid planı (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə);

3.2.8. tənzimləyici pilot layihənin həyata keçirilməsi ilə bağlı istifadəçilərin hüquqlarının və qanuni mənafelərinin qorunması üçün görüləcək tədbirlər, o cümlədən onların məlumatlandırılması qaydası və vasitələri;

3.2.9. bu Qaydaların 4.8-ci bəndində nəzərdə tutulmuş məlumatları özündə əks etdirən çıxış strategiyası.

3.3. Tənzimləyici orqan dövlət qurumunun bu Qaydaların 3.2-ci bəndinə uyğun təqdim etdiyi sənədləri və məlumatları 5 (beş) iş günü müddətində yoxlayır. Həmin sənədlərdə və məlumatlarda aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, müraciətin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə məlumat dövlət qurumuna təqdim edilir, habelə formal tələblərə əməl olunmamasının hüquqi nəticələri ona izah edilir. Bütün çatışmazlıqlar dövlət qurumuna eyni zamanda bildirilməlidir.

3.4. Dövlət qurumu həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 15 (on beş) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman tənzimləyici pilot layihənin təsdiq edilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət həmin layihənin təsdiqi müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə dövlət qurumunun müraciətindən sonra müddətin axımı bərpa olunur.

3.5. Dövlət qurumu müraciətə əlavə edilmiş sənədlərdə və məlumatlarda aşkar olunmuş çatışmazlıqları bu Qaydaların 3.4-cü bəndində nəzərdə tutulmuş müddətdə aradan qaldırmadıqda tənzimləyici orqan müraciətə baxmaqdan imtina edir və bu barədə məlumatı 2 (iki) iş günü müddətində dövlət qurumuna təqdim edir.

3.6. Müraciətə əlavə edilmiş sənədlərdə və məlumatlarda aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra dövlət qurumu tənzimləyici pilot layihənin təsdiqi üçün tənzimləyici orqana təkrar müraciət edə bilər.

3.7. Tənzimləyici pilot layihənin təsdiq edilməsinin ümumi müddəti 60 (altmış) iş günündən çox ola bilməz. Tənzimləyici pilot layihənin təsdiq edilməsi və həyata keçirilməsi, o cümlədən bu Qaydaların 3.8-ci bəndində nəzərdə tutulmuş meyarlar üzrə təhlili, layihənin gedişatı barədə dövlət qurumuna sorğular verilməsi və yerində baxış keçirilməsi, istifadəçilər və iştirakçılar arasında rəy sorğusu aparılması, habelə rəqəmsal həlldən və elektron xidmətdən test məqsədilə istifadəsi üçün tənzimləyici orqan tərəfindən işçi qrup yaradılır. İşçi qrup tənzimləyici orqanın müəyyən etdiyi reqlament əsasında fəaliyyət göstərir və onun qərarları (o cümlədən bu Qaydaların 3.9-cu bəndində nəzərdə tutulmuş balların verilməsi üzrə) üzvlərinin yekdil razılığı əsasında qəbul olunur. Həmin işçi qrupun fəaliyyətinə digər aidiyyəti dövlət qurumlarının nümayəndələri (o cümlədən maliyyə, iqtisadi təhlil və normativ hüquqi aktların hüquqi ekspertizası sahələri üzrə), müstəqil ekspertlər və mütəxəssislər cəlb edilir.

3.8. Müraciətə əlavə edilmiş sənədlərdə və məlumatlarda çatışmazlıqlar aşkarlanmadıqda, yaxud bu Qaydaların 3.4-cü bəndinə uyğun olaraq çatışmazlıqlar aradan qaldırıldıqdan sonra işçi qrup tənzimləyici pilot layihəni 30 (otuz) iş günü müddətində (uyğunluğun yoxlanılması və təhlillərin aparılması üçün əlavə vaxt tələb olunduqda, dövlət qurumuna məlumat verməklə, müddət əlavə 20 (iyirmi) iş günü uzadıla bilər) aşağıdakı meyarlar əsasında təhlil edir:

3.8.1. innovativlik və texnoloji yenilik – layihənin rəqəmsal texnologiyaların tətbiqi nəticəsində yeni və ya əhəmiyyətli dərəcədə təkmilləşdirilmiş məhsul, xidmət və ya proses təqdim etməsi;

3.8.2. xüsusi tənzimləmə rejiminin tətbiqi – normativ hüquqi aktlarda və normativ xarakterli aktlarda olan məhdudiyyətlər, habelə mövcud hüquqi tənzimləmədə olan boşluqlar səbəbindən layihənin yalnız tənzimləyici pilot layihə çərçivəsində həyata keçirilə bilməsi;

3.8.3. dövlət qurumunun hazırlıq səviyyəsi – layihənin həyata keçirilməsinə dair maliyyə və insan resurslarına, texniki-texnoloji infrastruktura malik olması;

3.8.4. sosial-iqtisadi faydalılığı – layihənin həyata keçirilməsi nəticəsində sosial və (və ya) iqtisadi faydalılığa nail olunması, həmçinin üstünlüklər əldə edilməsi;

3.8.5. risk idarəetməsinin adekvatlığı – layihənin həyata keçirilməsini ləngidəcək və ya maneə yaratması ehtimal olunan risklərin aradan qaldırılması və ya minimuma endirilməsi üçün fəaliyyətin davamlılığı planında (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə) effektiv tədbirlərin mövcudluğu.

3.9. Bu Qaydaların 3.8-ci bəndində qeyd olunan hər bir meyar üzrə 0–1 arası bal verilir. Tənzimləyici pilot layihənin təsdiqi üçün meyarlar üzrə minimal bal ümumi 5 bal üzərindən 3 bal təşkil edir (bu Qaydaların 3.8.1–3.8.3-cü yarımbəndləri nəzərə alınmaqla).

3.10. Tənzimləyici pilot layihənin bu Qaydaların 2-ci hissəsi və 3.8-ci bəndi ilə müəyyən edilmiş tələblərə və meyarlara uyğunluğu, habelə bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulmuş sənədlər və məlumatlar təhlil olunduqdan sonra tənzimləyici orqan aşağıdakılardan biri barədə qərar qəbul edir (sahibkarlıq subyektlərinə tətbiq edilən rəqəmsal həllərə və göstərilən elektron xidmətlərə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla):

3.10.1. layihənin həyata keçirilməsinin məqsədəuyğun hesab edilməsi (layihə bu Qaydaların 2-ci hissəsi ilə müəyyən edilmiş tələblərə uyğundur və bu Qaydaların 3.8-ci bəndi ilə müəyyən edilmiş meyarlar üzrə 3 və daha çox bal almışdır (bu Qaydaların 3.8.1–3.8.3-cü yarımbəndləri nəzərə alınmaqla);

3.10.2. layihənin həyata keçirilməsindən imtina edilməsi (layihə bu Qaydaların 2-ci hissəsi ilə müəyyən edilmiş tələblərə tam və ya qismən uyğun deyildir, bu Qaydaların 3.8-ci bəndi ilə müəyyən edilmiş meyarlar üzrə 3-dən aşağı bal almışdır və ya bu Qaydaların 3.8.1–3.8.3-cü yarımbəndləri ilə müəyyən edilmiş meyarlardan azı biri üzrə bal almamışdır, eləcə də bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulmuş sənədlərdə və məlumatlarda səhv və (və ya) təhrif olunmuş məlumatlar mövcuddur).

3.11. Tənzimləyici orqan tənzimləyici pilot layihənin həyata keçirilməsini məqsədəuyğun hesab etdikdə bu Qaydaların 3.2-ci bəndində nəzərdə tutulmuş sənədləri və məlumatları maliyyə ekspertizasının aparılması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi maliyyə ekspertizasını 20 (iyirmi) iş günü müddətində apararaq nəticəsini tənzimləyici orqana təqdim edir.

3.12. Tənzimləyici pilot layihənin həyata keçirilməsi barədə maliyyə ekspertizasının nəticəsi müsbət olduqda, tənzimləyici orqan layihənin təsdiqi barədə qərar qəbul edir.

3.13. Tənzimləyici pilot layihənin təsdiqindən imtina edilməsi və ya layihənin təsdiqi ilə bağlı qəbul edilmiş qərar barədə məlumatı tənzimləyici orqan 2 (iki) iş günü müddətində dövlət qurumuna təqdim edir.

3.14. Dövlət qurumu təsdiqindən imtina edilən tənzimləyici pilot layihə üzrə çatışmazlıqları (imtina barədə qərarda, o cümlədən maliyyə ekspertizasının nəticəsində qeyd olunan) aradan qaldırdıqdan sonra tənzimləyici pilot layihənin təsdiq edilməsi üçün tənzimləyici orqana yenidən müraciət edə bilər.

## 4. Tənzimləyici pilot layihənin həyata keçirilməsi və nəticəsinin rəsmiləşdirilməsi

4.1. Tənzimləyici pilot layihənin təsdiqi barədə tənzimləyici orqan tərəfindən qəbul edilən qərar təqdim olunduqdan sonra dövlət qurumu bu Qaydaların 3.2.6-cı yarımbəndində nəzərdə tutulmuş tədbirlər planı üzrə tədbirlərin icrasına başlayır. Dövlət qurumu tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı iştirakçıları və istifadəçiləri bu barədə xəbərdar etməli, onların iştirakını, eləcə də istifadəçi testlərinin təşkilini və istifadəçi rəylərinin toplanılmasını təmin etməlidir.

4.2. Tənzimləyici pilot layihə ən çoxu 2 (iki) il müddətində həyata keçirilir. Həmin müddətdə bu Qaydaların 3.2.6-cı yarımbəndində nəzərdə tutulmuş layihə sənədində və tədbirlər planında dəyişiklik edilməsi zərurəti yarandıqda, dövlət qurumu tənzimləyici orqanla bu Qaydaların 3-cü hissəsinə uyğun olaraq razılaşdırmaqla layihə sənədində və tədbirlər planında dəyişiklik edir.

4.3. Tənzimləyici orqan tənzimləyici pilot layihənin həyata keçirilməsi müddətində layihənin uğurla icrası üçün dövlət qurumuna əməli və metodiki dəstək göstərir.

4.4. Tənzimləyici orqan tənzimləyici pilot layihənin həyata keçirilməsi müddətində dövlət qurumuna həmin layihənin icrasının gedişatı barədə məlumatları və sənədləri əldə etmək üçün sorğular verə, layihənin icrasının gedişatına yerində baxış keçirə, istifadəçilər və iştirakçılar arasında rəy sorğusu apara, habelə rəqəmsal həll və elektron xidmətdən test məqsədilə istifadə edə bilər. Tənzimləyici orqan tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı bu Qaydalarda və ya layihə sənədlərində nəzərdə tutulmuş tələblərlə bağlı yol verilən pozuntuların və ya pozuntulara səbəb ola biləcək halların aradan qaldırılması barədə göstərişlər verir.

4.5. Tənzimləyici pilot layihənin sınaq mərhələsi dövlət qurumu tərəfindən müəyyən edilir və bu barədə tənzimləyici orqana 2 (iki) iş günü müddətində məlumat verilir. Sınaq mərhələsi 18 (on səkkiz) aydan çox ola bilməz. Həmin layihənin həyata keçirilməsi zamanı sınaq mərhələsində dövlət qurumu Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən (bundan sonra – XRİTDX) rəy (kritik informasiya infrastrukturuna münasibətdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətindən (bundan sonra – DTX) və XRİTDX-dən informasiya təhlükəsizliyi üzrə birgə rəy) alır. Həmin dövlət orqanları 5 (beş) iş günü müddətində informasiya təhlükəsizliyi üzrə əsaslandırılmış rəyi dövlət qurumuna təqdim edirlər və bu rəy dövlət qurumu tərəfindən 5 (beş) iş günü müddətində tənzimləyici orqana təqdim olunur. XRİTDX tənzimləyici pilot layihəni mühafizə olunan telekommunikasiya kanalları ilə təmin edir. Dövlət qurumu bu Qaydaların 4.2-ci bəndində nəzərdə tutulmuş dəyişiklik barədə 2 (iki) iş günü müddətində XRİTDX-yə, kritik informasiya infrastrukturuna münasibətdə isə həmçinin DTX-yə məlumat verir.

4.6. Tənzimləyici pilot layihənin həyata keçirilməsi tənzimləyici orqanın qərarı ilə aşağıdakı hallarda dayandırılır:

4.6.1. dövlət qurumunun əsaslandırılmış müraciəti əsasında;

4.6.2. tənzimləyici orqanın bu Qaydaların 4.4-cü bəndində nəzərdə tutulmuş göstərişlərinə tam və göstərişdə qeyd olunan müddətdə əməl edilmədikdə;

4.6.3. normativ hüquqi aktlarda edilən dəyişikliklər əsasında tənzimləyici pilot layihənin həyata keçirilməsi zərurəti aradan qalxdıqda;

4.6.4. layihə bu Qaydaların və ya layihə sənədlərinin tələbləri pozulmaqla həyata keçirildikdə;

4.6.5. layihənin həyata keçirilməsi üzrə informasiya təhlükəsizliyinə dair mənfi rəy olduqda;

4.6.6. dövlət qurumu hüquqi varislik müəyyən olunmadan ləğv edildikdə.

4.7. Tənzimləyici pilot layihənin dayandırılmasına dair qərar barədə məlumatı tənzimləyici orqan 2 (iki) iş günü müddətində dövlət qurumuna təqdim edir. Dövlət qurumu həmin qərar əsasında tənzimləyici pilot layihənin həyata keçirilməsini dərhal dayandırır və çıxış strategiyasının icrasına başlayır. Tənzimləyici pilot layihənin həyata keçirilməsinin dayandırılması dövlət qurumunu istifadəçilər və digər şəxslər qarşısında həmin ana qədər yaranmış öhdəliklərindən azad etmir.

4.8. Çıxış strategiyasında aşağıdakılar əks olunur:

4.8.1. tənzimləyici pilot layihənin dayandırılması barədə iştirakçıların və istifadəçilərin məlumatlandırılması qaydası və vasitələri;

4.8.2. tənzimləyici pilot layihənin dayandırılması ilə bağlı istifadəçilər qarşısında mövcud olan hər hansı öhdəliklərin icrası, o cümlədən ödənişlərin geri qaytarılması müddəti və prosesi;

4.8.3. tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı toplanılmış məlumatların (o cümlədən fərdi məlumatların) təhlükəsiz şəkildə arxivləşdirilməsi və ya məhv edilməsi ilə bağlı görüləcək tədbirlər (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə);

4.8.4. tənzimləyici pilot layihənin dayandırılması ilə bağlı dövlət qurumu tərəfindən görülməsi zəruri hesab olunan digər tədbirlər (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə).

4.9. Tənzimləyici pilot layihənin həyata keçirilməsi üzrə sınaq mərhələsi başa çatdıqdan və ya həyata keçirilməsi dayandırıldıqdan sonra 20 (iyirmi) iş günü müddətində dövlət qurumu tənzimləyici orqana aşağıdakı məlumatları nəzərdə tutan ilkin hesabat təqdim edir:

4.9.1. rəqəmsal həllin tətbiq olunduğu və (və ya) təşkil edilən elektron xidmətin göstərildiyi ərazini, müddətini, istifadəçi dairəsini (dövlət qurumu, bələdiyyə, fiziki və hüquqi şəxs), sayını (hər bir istifadəçi dairəsi üzrə) və həyata keçirilən əməliyyatların sayını (aylar üzrə);

4.9.2. layihənin həyata keçirilməsi müddətində istifadəçi şikayətlərinin, digər problemlərin (o cümlədən kiberinsidentlərin) və risklərin təsvirini, sayını, eləcə də onların həlli üçün görülmüş tədbirləri;

4.9.3. layihənin həyata keçirilməsi üzrə sınaq mərhələsinin sonunda əldə edilən nəticə və həmin nəticə əsasında görülməsi planlaşdırılan tədbirləri (görüləcək tədbirlərin ardıcıllığı, icraçıları və icra müddəti göstərilməklə);

4.9.4. layihənin həyata keçirilməsi ilə məqsədlərinə və (və ya) proqnozlaşdırılan nəticəsinə nail olunduğunu (olunmadığını);

4.9.5. layihənin həyata keçirilməsi ilə əldə edilən nəticəyə uyğun olaraq normativ hüquqi aktlarda dəyişiklik təklifini;

4.9.6. tənzimləyici pilot layihənin informasiya təhlükəsizliyi üzrə rəyi.

4.10. Bu Qaydaların 4.9-cu bəndində nəzərdə tutulmuş ilkin hesabat təqdim edildikdən sonra tənzimləyici orqan 20 (iyirmi) iş günü müddətində tənzimləyici pilot layihənin həyata keçirilməsi üzrə sınaq mərhələsinin nəticəsi barədə yekun hesabat hazırlayaraq həmin hesabat əsasında qərar (sınaq mərhələsinin uğurlu və ya uğursuz olması haqqında) qəbul edir (sahibkarlıq subyektlərinə tətbiq edilən rəqəmsal həllərə və göstərilən elektron xidmətlərə münasibətdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla). Qəbul edilmiş qərar barədə məlumatı tənzimləyici orqan 2 (iki) iş günü müddətində dövlət qurumuna təqdim edir.

4.11. Aşağıdakı hallarda tənzimləyici orqan tənzimləyici pilot layihənin həyata keçirilməsi üzrə sınaq mərhələsinin nəticəsinin uğursuz olması barədə yekun hesabata əsasən qərar qəbul edir:

4.11.1. layihənin həyata keçirilməsi məqsədlərinə və (və ya) proqnozlaşdırılan nəticəsinə nail olunmadıqda;

4.11.2. layihənin həyata keçirilməsi üzrə sınaq mərhələsi başa çatdıqdan sonra qalan risklərin idarə edilməsi mümkün olmadıqda.

4.12. Tənzimləyici pilot layihənin nəticəsi uğurlu olduqda tənzimləyici orqan layihənin test rejimindən real mühitə keçid edərək fəaliyyətə başlaması üçün dövlət qurumu ilə birlikdə tədbirlər görür, həmçinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə mövcud hüquqi tənzimləmədə aşkarlanan boşluqların aradan qaldırılması və ya fərqli qaydaların müəyyən edilməsi zərurəti ilə əlaqədar təkliflər verir.

4.13. Tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı toplanılmış məlumatların (o cümlədən fərdi məlumatların) təhlükəsiz şəkildə arxivləşdirilməsi və ya məhv edilməsi üzrə tədbirlər "Fərdi məlumatlar haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun həyata keçirilir.

4.14. Tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı aparılan əməliyyatlar və istifadəçilər haqqında məlumatlar dövlət qurumunda azı 5 (beş) il müddətində saxlanılır. Tənzimləyici pilot layihənin həyata keçirilməsi zamanı tənzimləyici orqan Elektron Hökumət İnformasiya Sistemi üzərindən həyata keçirilən bütün əməliyyatların texniki protokollaşdırılmasını və əməliyyat tarixçələrinin azı 5 (beş) il müddətində saxlanılmasını təmin edir.

4.15. Tənzimləyici orqan özünün rəsmi internet informasiya ehtiyatında tənzimləyici pilot layihələri həyata keçirən dövlət qurumlarının adı, internet informasiya ehtiyatı (olduğu təqdirdə), əlaqə məlumatları (telefon, elektron poçt ünvanı və s.), həyata keçirilən layihə, əhatə etdiyi ərazi və keçirilmə müddəti, layihənin nəticələri və vaxtından əvvəl dayandırılması halında bu barədə məlumatları 5 (beş) iş günü müddətində yerləşdirir.

*Tofiq Hacıyev – 90*

# Akademik dilçi, qayğıkeş müəllim, müdrik insan



**Bu gün görkəmli alim, akademik Tofiq Hacıyevin anadan olmasının 90-ci ildönümüdür. Unudulmaz müəllimimizin yubileyi onsuz keçsə də, çoxsaylı yetirmələri bu əlamətdar gündə öz müəllimini sevgi-sayğı ilə yad edirlər. Elmi ictimaiyyət ömrünün 60 ilindən çoxunu milli dilçiliyimizin və türkologiyanın inkişafına həsr etmiş fədakar ziyalının xidmətlərini qədirbilənliklə yenidən nəzərdən keçirir və yüksək dəyərləndirir.**

10 ilə yaxın müddətdə biz ondan cismən ayrılsaq da, mənən xatirələri ilə birlikdə, yazıb-yaratdığı elmi əsərləri ilə üz-üzəyik. O, böyük və qədim bir xalqın zəngin dilinin tədqiqatçısı, qoruyucusu və mənəvi dəyərlərinin təbliğatçısı olub.

Tofiq İsmayıl oğlu Hacıyev 1936-cı il may ayının 1-də qədim Qarabağ torpağında Cəbrayıl rayonunun Soltanlı kəndində dünyaya gəlib. O, elm aləminə də dil açdığı torpağa dərin bələdlik və sevgi ilə araşdırdığı mövzu – "Azərbaycan dilinin Cəbrayıl şivəsi" ilə qədəm qoyub. Gənc tədqiqatçı sonradan onlarla irihəcmli elmi əsəri, yüzlərlə məqaləsi ilə ana laylasını dinlədiyi dilin ən məhsuldar tədqiqatçılarından birinə çevrilib.

Bir-birinin ardınca yazdığı "Satira dili", "Azərbaycan ədəbi dili tarixi (təşəkkül dövrü)", "XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili", "Yazıçı dili və ideya-bədii təhlil", "Sabir: qaynaqlar və sələflər", "Azərbaycan dili tarixi" (K.Vəliyevlə birlikdə), "Molla Nəsrəddinin dili və üslubu", "Azərbaycan ədəbi dili tarixi II hissə", "Şeirimiz, nəsrimiz, ədəbi dilimiz", "Azərbaycan dili" (Z.Budaqova ilə birlikdə), "Füzuli dili": dil sənətkarlığı", "Dədə Qorqud: dilimiz, düşüncəmiz", "Azərbaycan ədəbi dili tarixi" (I, II hissə), "Türklər üçün ortaq ünsiyyət dili", "Üzeyir Hacıbəylinin bədii dili" kitabları onu elmi dairələrdə və geniş auditoriyada dərin zəkalı dilçi, yurdsevər ziyalı kimi tanıdıb.

Akademikin yaradıcılığının əsas hissəsini elmi-dilçilik məsələləri, türkologiya, zəngin bir qolunu isə tərcümə yaradıcılığı təşkil edir. Alim tərcümə işinə tələbəlik illərindən başlayıb və elə o zaman bu sahəyə başçılıq edənlərdən biri və demək olar ki, birincisi, böyük ədəbiyyatşünas alim Əli Sultanlının diqqətini çəkib və Roma ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mark Tulli Siseronun əsərlərinin bəzi bölmələrinin tərcüməsini ona həvalə edib. 1959-cu ildə Bakı Dövlət Universiteti nəşriyyatında çapdan çıxan "Roma ədəbiyyatı müntəxəbatı" antologiyasının geniş bir bölməsinin tərcüməsi də tələbə Tofiq Hacıyevə tapşırılıb.

Görkəmli alim, təqribən, 40 ildən sonra elmi yaradıcılığı ilə yanaşı, tərcümə yaradıcılığına da geniş yer verib, 1997-ci ildən bir-birinin ardınca türklərin, o cümlədən onların dillərinin tarixindən bəhs edən 5 əsəri – Murad Adcının məşhur "Qıpçaq çölünün yovşanı" (1997), B.A.Serebrennikov və N.Z.Hacıyevanın birlikdə yazdıqları "Türk dillərinin müqayisəli tarixi qrammatikası" (2002), Mikayıl Baştunun "Şan qızı dastanı" (2005), Murad Adcının növbəti "Türk və dünya: munis tariximiz" (2006) və Seyid Əhməd Cəmaləddin Mühənnanın "Hilyətül-insan və həlbətül lisan" (2008) əsərlərini rus dilindən Azərbaycan türkcəsinə tərcümə edib.

Akademikin uzunmüddətli və ağır zəhməti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Əməkdar elm xadimi fəxri adına layiq görülüb, "Şöhrət" ordeni ilə təltif olunub, AMEA-nın müxbir və həqiqi üzvü seçilib.

Görkəmli alimin türk dili ilə bağlı araşdırmaları Türkiyə Cümhuriyyətinin diqqətindən kənarda qalmayıb. O, Türkiyə Cümhuriyyəti Atatürk Kültür, Dil və Tarix Qurumunun fəxri üzvü seçilib, Türkiyə Cümhuriyyətinin "Ləyaqət" medalına layiq görülüb.

Akademikin dilçilik sahəsindəki fəaliyyəti çoxcəhətli və geniş olduğu kimi, dilçi kadrların yetişməsində də zəhməti böyükdür.

2006-cı ilə qədər Tofiq müəllimin rəhbərliyi ilə 15 aspirant və dissertant elmlər namizədi, 5 nəfər isə elmlər doktoru adı alıb. Bunlardan 4 nəfərinin – Sərxan Abdullayev, Elbrus Əzizov, Nizami Cəfərov və mən namizədlik dissertasiyası müdafiə edərkən elmi rəhbər, doktorluq dissertasiyası müdafiə edərkən isə elmi məsləhətçi professor Tofiq Hacıyev olub.

Tofiq müəllimin sərhədsiz elmi yaradıcılığı onun insanlığı ilə eyni ucalıqda dayanır. Onun yerirmələrinə göstərdiyi diqqət və himayənin qarşılığında "Akademik Tofiq Hacıyevin dilçilik görüşləri" adlı 250 səhifəlik monoqrafiya yazmışam. Təəssüf ki, indi yüksək elmi qabiliyyətə sahib, istedadlı gənclərə arxa-dayaq olan Tofiq Hacıyev kimi şəxsiyyətlər azdır. Yetirmələri bu boşluğu doldurmaqla akademik dilçi, qayğıkeş müəllim və müdrik insanın ruhunu sevindirmiş olarlar.

***Sərdar ZEYNALOV,***
***ADPU Müasir Azərbaycan dili kafedrasının professoru***

*Yeni kitablar*

# Əliyevşünaslığa yeni töhfə

**Tanınmış jurnalist Aslan Aslanovun "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri" adlı I kitabı işıq üzü görüb. Nəşrə müəllifin Ulu öndərin iştirak etdiyi görüşlərdən hazırladığı informasiyalar və xatirələri daxil edilib.**




Ümummilli liderin siyasi fəaliyyəti, 1993–1995-ci illərdə ölkədə baş verən hadisələr də qeyd olunub. Eyni zamanda, kitabda Ulu öndərin xilaskarlıq missiyasına necə başlaması, gənc respublikanı dünya arenasına çıxarması, çoxlarına dərs olan dövlət quruculuğu və diplomatik məharəti, qısa müddətdə müasir dövlət quraraq dünyanı heyrətə salması kimi bir çox mövzuya yer verilib.

Qeyd edək ki, Aslan Aslanov ömrünün böyük hissəsini Azərbaycan mətbuatının inkişafına həsr edib. Ulu öndər Heydər Əliyevin 1993–2003-cü illərdə keçirdiyi görüşlərin, qəbulların, iclasların və digər tədbirlərin, eləcə də xarici ölkələrə səfərlərinin əksəriyyətində Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) əməkdaşı kimi iştirak edib.

Kitab "Heydər Əliyev xilaskarlıq missiyasına necə başladı?" yazısı ilə açılır. 1993-cü il iyunun 11-də o vaxt hələ Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri olan Heydər Əliyevin Bakıya gələrək Elmlər Akademiyasının Rəyasət Heyətində keçirəcəyi görüşlərdən reportaj hazırladığını xatırlayan müəllif yazır ki, Heydər Əliyev ABŞ-ın və Böyük Britaniyanın ölkəmizdəki səfirləri ilə, sonra Akademiyanın Rəyasət Heyətinin üzvləri ilə görüşləri xeyli çəkdi. "Sonra Ümummilli lider Türkiyənin Azərbaycandakı səfiri Altan Karamanoğlu ilə görüşmək üçün Türkiyə səfirliyinə yollandı. Heydər Əliyev səfirliyə gələndən sonra foyedə biz jurnalistlərlə qısa söhbət etdi. O, gözlənilmədən məndən soruşdu: "Sən hansı təşkilatdansan? Görürəm səhərdən bizimləsən". AZƏRTAC-ın əməkdaşı olduğumu biləndə dedi: "Baxa bilərəmmi nə yazmısan?" Mən həyəcanlı halda öz bloknotumu ona verdim. Birinci informasiyanın sərlövhəsi belə idi: "Görkəmli dövlət xadimi Heydər Əliyev Amerika və Böyük Britaniya səfirləri ilə görüşüb". Heydər Əliyev bu başlığı oxuyub təbəssümlə soruşdu: "Elə bilirsən sənin rəhbərlərin bunu buraxacaq?" Bu anda səfir foyeyə çıxdı və Heydər Əliyevi öz kabinetinə dəvət etdi".

Doğrudan da, o günün xəbərləri AZƏRTAC-da verilmədi. Amma Heydər Əliyevin 1993-cü il iyunun 11-də Bakıda keçirdiyi ilk görüşdən çəkilmiş fotoşəkilləri jurnalist əziz bir xatirə kimi saxladığını qeyd edib.

Aslan Aslanovun sözlərinə görə, o gündən 2003-cü ilədək Prezident Heydər Əliyevin respublikada keçirdiyi görüş, qəbul və iclasların əksəriyyətini işıqlandırmağı, həmçinin xarici səfərləri zamanı agentliyin müxbiri kimi Ulu öndəri müşayiət etməyi ona tapşırırdılar: "Xoşbəxtəm ki, Heydər Əliyevin dünyanın görkəmli dövlət xadimləri ilə bəzən iki-üç saat davam edən görüşlərinin, demək olar ki, hamısında iştirak etmişəm. Bunu unutmaq olmaz. Həmin on il ərzində mən demək olar ki, çox böyük nüfuzlu bir universitet – Heydər Əliyev universitetini bitirdim".

Bu sətirlərin müəllifi də həmin illərdə AzTV-nin Prezident qrupunun üzvü kimi dəfələrlə Ulu öndərin keçirdiyi görüşlərdən, səfərlərdən materiallar hazırlayıb. Aslan Aslanovu da elə o vaxtdan tanıyıram. Tədbirlərarası fasilələrdə söhbətlərimiz zamanı dahi şəxsiyyət haqqında bizə elə gərəkli bilgilər verirdi ki, reportajlarımızda bundan lazımınca bəhrələnirdik. Sən demə, onun müşahidələri, təəssüratları və bizimlə bölüşdüyü düşüncələri indi təqdim etdiyi kitab üçün toplanan dəyərli faktlar imiş.

"Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri" adlı I kitabın sonrakı fəsilləri "Gənc respublikanı dünya arenasına necə çıxardı?", "Çoxlarına dərs olan dövlət quruculuğu və diplomatik məharət", "Çox qısa müddətdə müasir dövlət quraraq dünyanı heyrətə saldı" kimi başlıqlarla verilib. Bunlar hamısı həm də o səbəbdən maraqla oxunur ki, Aslan Aslanov faktları sadəcə qələmə almaqla kifayətlənməyib, hadisələrin ilk baxışda görünməyən tərəflərinə işıq salıb, təcrübəli jurnalist kimi, öz baxış prizmasından münasibətini bildirib.

Siyasi elmlər doktoru, professor, Milli Məclisin deputatı Hikmət Babaoğlu kitaba "Canlı salnaməçidən dövlətçilik tariximizə obyektiv baxış" adlı Ön söz yazıb. O qeyd edib ki, kitabın digər orijinal cəhəti müəllifin hadisələri xronoloji ardıcıllıq və sistemli şəkildə təqdim etməsidir. "Bu yanaşma çərçivəsində böyük dövlət xadimi Heydər Əliyevin informasiyadan mühüm strateji vasitə kimi istifadə etmək bacarığı da aydın şəkildə üzə çıxır. Baş verən tarixi proseslərin bir qismi Ulu öndər Heydər Əliyevlə birbaşa dialoqlar kontekstində oxucuya təqdim edilir ki, bu da kitabı daha oxunaqlı edir... Nəticə etibarı ilə, Aslan Aslanovun "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri" adlı kitabı Ulu öndərin siyasi və dövlətçilik irsinin öyrənilməsi üçün sanballı bir mənbə olmaqla yanaşı, Əliyevşünaslığa verilən mühüm töhfədir".

Ulu öndərin anadan olmasının 103-cü ildönümü ərəfəsində nəşr olunan kitab onun 2-ci dəfə hakimiyyətdə olduğu dövrün ilk 3 ilinin hadisələrini əhatə edir. İnanırıq ki, Aslan Aslanovun bu kitabı da, sonrakı dövrləri əhatə edəcək digər kitabları da Ümummilli liderin dövlətçilik və diplomatiya dərslərindən bəhs edən dəyərli publisistik əsərlər kimi maraqla qarşılanacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Təqvim yada salır*

**Şərqlə Qərbin kəsişməsində yerləşən, müxtəlif sivilizasiyaların birləşmə nöqtəsi olan Azərbaycanın tolerantlıq mühitinin mühüm göstəricilərindən biri ölkədə keçirilən beynəlxalq səviyyəli elmi konfranslar və mədəniyyətlərarası dialoq forumlarıdır. 2010-cu il aprelin son günlərində Bakıda keçirilmiş Dünya dini liderlərinin sammiti də bu istiqamətdə mühüm mərhələlərdən biri idi. Dünyanın müxtəlif ölkələrindən və fərqli dini konfessiyalardan 200-dən çox nümayəndənin iştirakı ilə baş tutan tədbir göstərdi ki, Azərbaycan qlobal dialoq platformasına çevrilməkdədir.**

# Müxtəlifliyin vəhdətinə tarixi Bakı çağırışı

*Dini harmoniya və sivilizasiyalararası dialoq nümunəsi*



Sammit çərçivəsində Moskvanın və bütün Rusiyanın patriarxı Kirill Prezident İlham Əliyevlə görüşərkən ölkəmizdə dinlərarası münasibətlərin yaxşı olduğunu və bu işdə ölkə başçımızın rolunu xüsusi vurğulayaraq demişdi: "Mən dinlərarası münasibətlərdə sizin rolunuzu xüsusi vurğulamaq istərdim, Azərbaycan dövlətində insanların əksəriyyəti İslam dininə etiqad edir. Lakin burada pravoslav və yəhudi icmaları da ənənəvi olaraq mövcuddur və Azərbaycanda heç vaxt dinlərarası münaqişələr olmamışdır. Müasir terminologiyadan istifadə etsək, bu gün tolerantlığın yüksək səviyyədə olduğunu deyərdik".

2011-ci ildən etibarən ölkəmiz bu istiqamətdə daha sistemli və institusional mərhələyə qədəm qoyub. Dövlət başçısının Sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib. Ölkə başçısı İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu beynəlxalq miqyasda tanınan mühüm platformalardan biridir. Forum "Bakı Prosesi"nin davamı kimi mədəniyyətlərarası əməkdaşlığın gücləndirilməsi məqsədi daşıyır və dünyanın aparıcı beynəlxalq təşkilatlarının dəstəyi ilə həyata keçirilir. 2024-cü il mayın 1-3-də keçirilən VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycanın multikultural siyasətinin beynəlxalq rezonansını bir daha nümayiş etdirdi. Forum "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusuna həsr olundu və 100-dən çox ölkədən yüzlərlə nümayəndəni bir araya gətirdi.

Forumda iştirak edən Prezident İlham Əliyev dedi: "Əlbəttə ki, Azərbaycan daxilində hər zaman müsbət mədəniyyətlərarası dialoq olub. Biz bunu gündəlik həyatımızda nümayiş etdirmişik. Biz multikulturalizm haqqında söhbət açanda nəzərdə tuturuq ki, bu, Azərbaycan vətəndaşları üçün nə isə bir abstrakt məfhum deyil, nə isə bir şeyi öyrənmək kimi deyil, bu, məhz bizim həyat tərzimizdir və biz bundan fərəhlənirik. Biz, həmçinin fərəhlənirik ki, bu dəyərləri əsrlər boyu qoruyub saxlaya bilmişik və çox keşməkeşli vaxtlarda - toqquşmalar, münaqişələr, müharibələr vaxtında qoruyub saxlaya bilmişik".

Forumda 100-dən çox ölkəni təmsil edən 700-dən artıq nüfuzlu qonağın iştirakı onun beynəlxalq miqyasını və təsir dairəsini göstərdi. Dövlət rəsmiləri, parlament rəhbərləri, dini liderlər, alimlər, jurnalistlər və vətəndaş cəmiyyəti nümayəndələrinin bir araya gəlməsi bu platformanın intellektual və mənəvi dialoq məkanı olduğunu təsdiqlədi. Forum 3 gün ərzində qlobal problemlərin müxtəlif aspektlərini müzakirə edən geniş fikir platformasına çevrildi. 12 panel müzakirə və 4 plenar sessiyada müasir dövrün çağırışlarının artıq lokal çərçivədən çıxaraq ümumbəşəri xarakter aldığı bildirildi. Xüsusilə süni intellekt və mədəniyyət məsələlərinin eyni forumda müzakirəyə çıxarılması diqqətçəkən məqam idi.

Forumun ən mühüm məqamlarından biri iştirakçıların Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfərlərinin təşkili oldu. Bu səfərlər postmünaqişə reallıqlarının beynəlxalq ictimaiyyətə birbaşa nümayişi idi. Xüsusilə Ağdam və Şuşa şəhərlərində keçirilən xüsusi panel sessiyalar forumun coğrafiyasını simvolik məna ilə zənginləşdirdi. Qarabağın mirvarisi olan Şuşa bu baxımdan sivilizasiyaların birləşdiyi canlı simvol oldu. Ağdam isə dağıntıdan dirçəlişə keçidi, forum iştirakçılarına müharibənin nəticələrini və sülhün dəyərini real şəkildə göstərdi.

Ölkədə müxtəlif dinlərə məxsus ibadətgahlar dövlət tərəfindən qorunur, bərpa edilir və onların fəaliyyətinə şərait yaradılır, dini müxtəliflik burada milli zənginlik kimi qəbul olunur. Etiqad azadlığının hüquqi əsaslarla qorunması isə bu siyasətin institusional dayağıdır. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə yeni məscidlərin təməlinin qoyulması və tarixi dini abidələrin bərpası mədəni yaddaşın bərpası anlamına gəlir. Çünki dini məkanlar, sinaqoqlar, kilsələr və məscidlər xalqın tarixi kimliyinin daşıyıcısı, onların yenidən dirçəldilməsi, milli-mənəvi irsə verilən dəyərin təzahürüdür.

Ölkəmizin tolerantlıq siyasəti həm də beynəlxalq səviyyədə nümunəvi model kimi təqdim olunur. Mədəniyyətlərarası və dinlərarası dialoqa ev sahibliyi edən Bakı qlobal humanitar diplomatiyanın mühüm mərkəzlərindən biridir və Azərbaycanın tolerantlıq modeli sübut edir ki, dini və mədəni müxtəliflik düzgün idarə olunduqda cəmiyyətin güc mənbəyinə çevrilə bilər.

***Ləman TƏHMƏZ***
***XQ***

*Ekspert rəyi*

**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvü**

– Müasir dünyanın mühüm çağırışlarından biri fərqliliklər içində birgəlik yaratmaqdır. Bu dünyada hər kəs tolerant və multikultural mühitə sahib ölkədə mənəvi təhlükəsizlik, mədəni zənginlik və ictimai sabitlik şəraitində yaşamaq istəyir. Çünki belə bir mühit insanın özünü ifadə etməsinə, kimliyini qorumasına və fərqliliyə hörmət etməsinə imkan yaradır.

Azərbaycan tarixən müxtəlif xalqların, dillərin və dinlərin kəsişdiyi coğrafiya olub. Bu torpaqlarda əsrlər boyu müxtəlif etnik və dini icmalar birgə yaşayıb, bir-birinin mədəniyyətinə təsir göstərib və ortaq mənəvi məkan yaradıblar. "Multikulturalizm" sözü latın mənşəli olub "çoxlu mədəniyyətlər" mənasını ifadə edir, fərqliliklərin qorunmasını, onların inkişaf etdirilməsini və harmonik şəkildə cəmiyyətə inteqrasiyasını nəzərdə tutur. Yəni multikulturalizm assimilyasiya deyil, qarşılıqlı zənginləşmə modelidir.

Sosioloqlar hesab edirlər ki, multikulturalizm cəmiyyətin sosial kapitalını artıran mühüm mexanizmdir. Çünki müxtəlif düşüncə sistemləri, fərqli dünyagörüşləri və alternativ mədəni kodlar bir araya gəldikdə yeni ideyalar ortaya çıxır. Filosoflar deyirlər ki, mədəni müxtəliflik insanlığın intellektual nəfəsidir. Necə ki, təbiətdə biomüxtəliflik ekosistemin yaşaması üçün vacibdirsə, cəmiyyətdə də mədəni müxtəliflik sosial həyatın davamlılığı üçün zəruridir. Bu sistemin əsas dayağı isə tolerantlıqdır. Tolerantlıq anlayışı latınca "tolerare" sözündən yaranaraq dözmək, səbir və qəbul etmək mənalarını verir. Ədəbiyyatda da tolerantlıq ideyası mühüm yer tutur. Nizami Gəncəvi qeyd edirdi ki, insanı millətinə görə deyil, əxlaqına görə dəyərləndirmək lazımdır. Məhəmməd Füzuli isə sevginin və mərhəmətin insan münasibətlərinin əsası olduğunu vurğulayırdı.

# Azərbaycanlı xormeyster Alanya festivalının baş münsifi olub




**Türkiyənin Alanya şəhərində keçirilən beynəlxalq musiqi festivalında bu ölkəni, Azərbaycanı, Qazaxıstanı, Rusiyanı, Ukraynanı, Moldovanı və Rumıniyanı təmsil edən münsiflər heyətinə həmyerlimiz, Azərbaycan Dövlət Filarmoniyasının xormeysteri, əməkdar artist Yulizana Kuxmazova rəhbərlik edib.**

Tanınmış xormeyster XQ-yə bildirib ki, çoxjanrlığı və inteqrativliyi ilə fərqlənən bu musiqi yarışmasının tələbkar müsiflər heyəti solo konsertlərində gənc ifaçıların fərdi yaradıcılıq xüsusiyyətlərini, bədii düşüncə tərzini, peşəkarlıq səviyyəsini həssaslıqla dəyərləndirib. Qala-konsertlər layihənin təhsil yönümlü olması ilə seçilib.

***XQ***

# BƏƏ-nin karteldən çıxması OPEC-in dağılmasına yol aça bilərmi?

## *Bu addım Avropanın enerji bazarını bir daha silkələyəcək*

**Bu həftə dünya enerji bazarı üçün ən səs-küylü xəbər Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) beynəlxalq neft karteli olan OPEC-dən çıxdığını elan etməsi oldu. Bu məsələ təkcə karteli deyil, bir çox ölkələri də çaşdırdı. Əslində, OPEC onsuz da Hörmüz boğazının bağlanması səbəbindən böyük təzyiq altında idi və uzun müddət olardı ki, daxili narazılıqlar təşkilatı zəifləddirdi. BƏƏ-nin enerji naziri Süheyl əl-Məzrui dövlətinin bu qərarını elan edərək, onu öz hasilatını idarə etmək üçün ölkəyə daha çox sərbəstlik verəcək "strateji baxış" adlandırdı.**




Səudiyyə Ərəbistanı və İraqdan sonra üçüncü ən böyük neft istehsalçısının OPEC-dən getməsinə sadəcə texniki bir düzəliş kimi baxmaq əslində, dünyanın enerji bazarını bilməzdən gəlmək olardı. Çünki kartelin nəhəng neft hasilatçılarından olan bir ölkənin üzvlükdən çıxması, onsuz da gərgin olan qlobal enerji sistemi üçün yeni bir qeyri-müəyyənlik mərhələsi açan siyasi parçalanmadır.

Rəsminin qeyd etdiyinə görə, BƏƏ-nin bu addımı özünə görə bir dönüş nöqtəsidir. Səudiyyə Ərəbistanının imtiyazlı tərəfdaşı olaraq, Əbu-Dabi üzv ölkələrin hasilatını məhdudlaşdıran kvotalardan azad olmaq yolunu seçdi. Bu qərar illərlə ölkədə davam edən böyük investisiyalardan sonra gəldi: Əmirliklər hasilatı gündə təxminən beş milyon barelə qədər artırdı, bu isə İranın hasilatından 50 faiz çoxdur. Qısası, ölkə daha çox neft istehsal edə biləcəyi vaxtda hər hansı bir məhdudiyyətdən imtina edir. Rəsmi olaraq, bu, iqtisadi bir qərardır. Amma kartel üçün sərt siyasi jestdir.

İngiltərənin "Financial Times" nəşri bu xəbərdən sonra yazır: "Brent markalı xam neft ardıcıl yeddinci gündür ki, yüksəlməyə davam edir və treyderlər üçüncü ən böyük istehsalçı və onun ən nüfuzlu üzvlərindən birinin 66 yaşlı karteldən ayrılmasının nəticələrindən daha çox İrandakı hadisələrə diqqət yetirirlər".

Bir çox iqtisadçı-ekspertlər bunu qiymətlərə az təsir göstərən neft bazarının zəif reaksiyası, Hörmüz boğazının bağlanması nəticəsində yaranan qlobal çatışmazlığın müstəsna əhəmiyyətinin nəticəsi hesab edirlər. Eyni zamanda, o da vurğulanır ki, bu, OPEC-in qlobal neft bazarları üçün əhəmiyyətini itirdiyinə işarədir.

"MST Financial"ın enerji bazarı üzrə analitiki Saul Kavoniç yazır: "Bu, OPEC-in sonunun başlanğıcıdır. Səudiyyə Ərəbistanı OPEC-in qalan hissəsini saxlamaqda çətinlik çəkəcək. Venesuela da daxil olmaqla, bəzi ölkələrin də karteldən çıxdığını görə bilərik".

Tarixə qısa ekskurs göstərir ki, 1960-cı ildə xarici neft şirkətlərinin öz resursları üzərində nəzarətinə qarşı üsyan edən ölkələr tərəfindən qurulan OPEC, 1973-cü ildə üzv ərəb ölkələri, ABŞ da daxil olmaqla, İsraili dəstəkləyən ölkələrə embarqo tətbiq etdikdə güclü bir qüvvəyə çevrildi. Onun təsiri dağıdıcı oldu. Lakin son onilliklərdə kartelin təsiri xeyli zəifləyib, çünki üzv olmayan ölkələr, xüsusən də ABŞ neft hasilatını artırıb. Keçən il OPEC, BƏƏ-nin istehsalı nəzərə alınmazsa, dünya neftinin təxminən dörddə birini istehsal edib. Gücünün və təsirinin zirvəsində bu rəqəm təxminən 50 faiz təşkil edib.

10 il əvvəl OPEC+ alyansı adlanan kartelin üzvlüyünün genişlənməsi onun təsirini bir qədər artırdı. Lakin istehsal kvotalarına riayət edilməsindəki uyğunsuzluq və bazara tədarükü artırmaq və ya azaltmaq üçün zəif qabiliyyət, qrupun qərarlarının əhəmiyyətini zəiflədirdi.

Fransanın "Causeur" jurnalı yazır ki, OPEC yarandığı gündən bəri "əlaqələndirilmiş istehsal həcmlərinə əsaslanıb. Məhz bu, kartelin qiymətlərə təsir etməsinə imkan verib. Əslində, bu, mexanizm kollektiv intizam və fərdi güzəştlər tələb edirdi. Lakin hər bir istehsalçının öz siyasi və iqtisadi maraqlarının olduğu bir dünyada, intizam getdikcə əngələ çevrilməyə başlayır. Əmirliklər daha çox, daha sürətli satmaq və ən əsası, bunu suveren şəkildə həll etmək istəklərini gizlətmirlər".

Digər tərəfdən də BƏƏ-nin bu seçiminin arxasında ümumi bir tendensiya dayanır. 2019-cu ildə Qətər OPEC-dən ayrılaraq mayeləşdirilmiş təbii qaza diqqət yetirdi. Əslində, bu qərarların ortaq bir məntiqi var: enerji siyasətinə nəzarəti bərpa etmək və onu milli prioritetlərlə uyğunlaşdırmaq. İqtisadiyyatın şaxələndirməsi ilə bağlı böyük planlar – Səudiyyə Ərəbistanının "Baxış 2030" və BƏƏ-nin sənaye strategiyaları – böyük resurslar tələb edir. Daha çox istehsal etmək və deməli, investisiya ehtiyaclarına uyğun olaraq, bu transformasiyanı sürətləndirmək lazım gəlir.

Ekspertlər qeyd edirlər ki, BƏƏ-nin bu addımının daha az nəzərəçarpan bir nəticəsi var: o, OPEC-i daxildən zəiflədir. Əslində, təşkilat heç vaxt monolit bir blok olmayıb, lakin Ər-Riyadın rəhbərlik etdiyi və bir neçə etibarlı müttəfiq tərəfindən dəstəklənən güclü bir nüvə ilə kartel qorunub. Əmirliklər də onların arasında idi və onların getməsi tarazlığı pozur. Bu da Səudiyyə Ərəbistanının istehsalı azaltmaq və nəticədə qiymətləri dəstəkləmək qabiliyyətini azaldır. Perspektivdə görünən odur ki, bazara öz iradəsini diktə edə bilən bir kartel tədricən məhv olur.

OPEC-dən çıxmaq uzun müddət, əvvəlcədən hazırlanmış strategiyanın məntiqi kulminasiyasıdır. İngiltərənin "UnHerd" veb-saytının şərhçisi Ketrin Porter yazır ki, bunun hansı stimul vəd etdiyi göz qabağındadır. "BƏƏ istehsal gücünün genişləndirilməsinə böyük sərmayə qoyub, lakin OPEC-in kvotaları səbəbindən bundan pul qazana bilməyib. Amma problem təkcə kvotalarda deyil, həm də manevr üçün imkanlardadır. Son 10 ildə BƏƏ sakitcə müstəqil fəaliyyət göstərməyə imkan verən infrastruktur qurub. Həbşan-Füceyra neft boru kəməri Hörmüz boğazından tamamilə yan keçərək, Fars körfəzi əvəzinə birbaşa Oman dənizinə gedib çıxır. Füceyra şəhəri özü əsas saxlanc və ixrac mərkəzinə çevrilib, hətta onun daha da genişləndirilməsi planlaşdırılır".

Yəni dünya neft tədarükünün təxminən beşdə biri İranın əli çatdığı və buna görə də təchizatda fasilələrə məruz qalan Hörmüz boğazından keçir. BƏƏ maneələri dolanan kəmərlərə investisiya qoymaqla bu riski azaldır. Amma digər tərəfdən, OPEC daxilində qarışıqlıq yaradır.

"Causeur" yazır ki, BƏƏ-nin bu addımına baxmayaraq, simvolizm güclü olaraq qalır. Uzun müddət qlobal enerji sistemində əsas struktur yaradan oyunçu kimi qəbul edilən OPEC indi birliyini itirən bir qurum kimi görünür. Doğrudur, o mövcud olmaqda davam edir, xüsusilə, Rusiyanın da daxil olduğu genişləndirilmiş OPEC+ formatında. Lakin onun nüfuzu sarsılıb və kollektiv intizam tətbiq etmək qabiliyyəti azalıb.

Səudiyyə Ərəbistanı hökumətinə yaxın şərhçilər çərşənbə axşamı Əbu-Dabinin qərarının əhəmiyyətini azaltmağa çalışıblar. Belə şəxslərdən biri, Səudiyyə Ərəbistanının keçmiş baş neft müşaviri Məhəmməd əl-Sabban sosial mediada yazıb: "BƏƏ-nin geri çəkilməsi qlobal neft bazarlarına böyük təsir göstərməyəcək, çünki Əmirliklər istehsal kvotalarını aşıb və aşmağa davam edirlər. Onlar həmişə "dəcəl oğlan" olublar".

Yeri gəlmişkən, bir faktı da unutmaq olmaz ki, BƏƏ ilə OPEC-in de-fakto lideri olan Səudiyyə Ərəbistanı arasında münasibətlər son illərdə pisləşib. Adətən alyansın tarixində kritik məqamlarda bu iki ölkə sabit neft bazarlarına və Körfəz ölkələri arasında birliyin qorunmasına ortaq maraq göstərərək vahid cəbhədə birləşiblər. Lakin Əbu-Dabi təxminən 10 il əvvəl qarşısına neft hasilatını (əvvəlcə 2030-cu ilə, sonra isə 2027-ci ilə qədər) gündə üç milyon bareldən beş milyon barelə qədər artırmaq məqsədi qoyduqdan sonra iki ölkənin münasibətlərində gərginlik yaranmağa başladı. BƏƏ hasilatı artırmaq üçün yeni imkanlar əldə etdikcə, OPEC kvotalarının daim artırılması tələb olunurdu.

Xüsusilə Avropa nöqteyi-nəzərindən, baş verənlərdən doğan suallar maraqlıdır: Əgər BƏƏ müstəqillik uğrunda mübarizə aparırsa, niyə Qətər də eyni şeyi etməməlidir? Bəs yarımadanın üzərindən boru kəmərləri çəksələr, maye qazı birbaşa Ərəbistan dənizi sahilində saxlasalar və Hörmüz boğazından tamamilə imtina etsələr, necə olar? Əlbəttə, kağız üzərində bu, tamamilə real görünür, amma praktikada ciddi çətinliklərlə üzləşir. Burada Qərb düşüncəsi Fars körfəzinin reallığından fərqlənir. Avropada enerji infrastrukturu etimad və inteqrasiya üzərində qurulub - boru kəmərləri ölkələri birləşdirir, çünki onlar qarşılıqlı faydalı hesab olunurlar. Lakin Fars körfəzi ölkələrində onlara etimadsızlıqla yanaşılır və çox vaxt onlardan təsir vasitəsi kimi şübhələnirlər.

Bəzi analitiklər isə hadisəni, heç də birmənalı olmadığını, ancaq potensial olaraq daha əhəmiyyətli hesab edir və bunu əlaqələndirilmiş enerji idarəçiliyindən strateji müstəqilliyə keçid kimi qiymətləndirirlər. Çünki onilliklər ərzində OPEC qlobal bazarlara neft tədarükünü tənzimləmək və qiymətləri sabitləşdirmək üçün mexanizm kimi fəaliyyət göstərib. Geniş istehsal gücünə malik Səudiyyə Ərəbistanı bazarı balanslaşdırmaq üçün istehsal həcmlərini tənzimləyən bir lövbər rolunu oynayıb.

Ümumiyyətlə, BƏƏ-nin karteldən çıxması yaxın vaxtlara proqnozlaşdırılan məsələ hesab etmək də doğru olmazdı. Şübhəsiz, bu qərarı qabağa çəkməkdə ABŞ-ın İrana qarşı hərbi əməliyyatlara başlaması üzündən Hörmüz boğazının bağlanması oldu. Çünki İranın dünya neftinin beşdə birinin keçdiyi dar su yolu olan Hörmüz boğazına nəzarəti OPEC-in bazarı idarə etmək qabiliyyətinə daha bir zərbə vurdu. Kartelin neft istehsalının yarıdan çoxu Səudiyyə Ərəbistanı, İraq və Küveytdən gəlir. Lakin Tehran bu axınların əksəriyyətini, demək olar ki, dərhal bağlaya biləcəyini nümayiş etdirdi.

"İranla müharibə göstərdi ki, ABŞ qlobal neft axınlarına OPEC-dən daha çox, bəlkə də daha çox təsir göstərə bilər". Enerji bazarı üzrə analitik Saul Kavoniçin bu qənaəti ilə razılaşmamaq olmur. "Natixis"in baş əmtəə analitiki Coel Hankok bu fikri günün reallıqları baxımından şərh edərək bildirir ki, BƏƏ-nin karteldən çıxması "OPEC-in bazara təsirini tamamilə zəiflədir və İrana alyansın ixracının böyük əksəriyyətinə nəzarət etmək imkanı verir. OPEC bu vəziyyətdə bazar gücünün əhəmiyyətli bir hissəsini itirir və faktiki olaraq, İranın xarici siyasətinin alətinə çevrilir".

Tarixə nəzər salsaq, görərik ki, BƏƏ kartelin yaranmasından bəri OPEC-dən çıxan ilk ölkə deyil. Son illərdə İndoneziya, Qətər, Ekvador və Anqola kimi neft istehsalçıları da təşkilatdan çıxıblar. Ona görə də bəzi analitiklər BƏƏ-nin çıxmasının OPEC üçün ölümcül olması ehtimalını elə də yüksək qiymətləndirmirlər. Əlbəttə, əgər bu, digər ölkələrin çıxması ilə bağlı zəncirvari reaksiyaya səbəb olmazsa.

Maraqlıdır ki, uzun müddət OPEC-də müşahidəçisi və Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin baş elmi işçisi olan Raad Əlqadiri BƏƏ-nin qərarı ilə bağlı ən "təəccüblü" şeyin onun çıxma vaxtı olduğunu söyləyib. "Bu, bazar motivlərindən daha çox siyasi motivlərə malikdir", – deyə o bildirib. "Bu, yalnız qısa və ortamüddətli bazar mülahizələri ilə deyil, Yaxın Şərqdə çat vermis geosiyasi xətlərlə bağlıdır".

Əlqadiri deyib: "OPEC-in nekroloqu dəfələrlə yazılıb, lakin təşkilat hər dəfə buna uyğunlaşıb. Bununla belə, əgər Venesuela, İraq və ya İran ayrılmaq qərarına gələrsə, bu, karteli əhəmiyyətli dərəcədə zəiflədəcək. Bu ölkələr indi OPEC-in qərar qəbuletmə prosesində əvvəlkindən daha çox təsirə malikdirlər".

Buna baxmayaraq, genişlənmiş OPEC+ alyansı, hətta BƏƏ-nin ayrılmasından sonra belə, hələ də qlobal neft hasilatının təxminən 40 faizini təşkil edir. Əlqadiri vurğulayır ki, bu böyük qrupun birliyini qorumaq OPEC-in gələcəyi üçün əsas olacaq. "Əgər Səudiyyə Ərəbistanı rəhbərliyi bu zəifləmiş alyansı qoruyub saxlasa və onun dağılmasının qarşısını alsa, BƏƏ-nin ayrılmasının nəticələri idarə oluna bilər".

BƏƏ-nin OPEC-dən çıxmasının Avropa enerji bazarına qeyri-sabitlik gətirəcəyini söyləyən bir çox analitiklər, bu işdə ABŞ-ın "barmağının" olduğunu da istisna etmirlər. Ümumiyyətlə, bu, düşünülmüş Amerika strategiyasının nəticəsi kimi qəbul edilməlidirmi? Qeyd olunur ki, Vaşinqton son illərdə həm diplomatik, həm də öz istehsalını artırmaqla OPEC-in təsirinə yorulmadan meydan oxuyub bu vəziyyətdə ABŞ dolayı yolla faydalanan tərəf kimi görünür. Slans inqilabından bəri onun statusu dəyişib: asılı idxalçılardan əsas istehsalçı və ixracatçıya çevrilib. Onun marağı aydındır: qlobal bazarlarda rəqabət qabiliyyətini qoruyarkən öz iqtisadiyyatını dəstəkləmək üçün qiymətləri kifayət qədər aşağı salmaq. Zəifləmiş OPEC bu məqsədə xidmət edir. İstehsalçılar arasında daha az koordinasiya daha çox dəyişkənlik və bir qayda olaraq, qiymətləri aşağı salmaq üçün daha çox təzyiq deməkdir.

Lakin reallıq daha sadə və sərtdir: kartel istehsalçıların özlərinin milli maraqları ilə bölünür. Əmirliklər ABŞ-ı razı salmaq üçün OPEC-dən ayrılmırlar. OPEC artıq onların ehtiyaclarını ödəmədiyi üçün ayrılırlar.

Analitiklərin təhlillərindən çıxan daha vacib bir nəticə odur ki, qlobal neft sistemi daha az koordinasiyalı və daha parçalanmış hala gəlir. İstehsalçılar sabitlikdən daha çox müstəqillik axtarır, bazarları birləşdirmək əvəzinə təhdidləri aradan qaldırmaq üçün infrastruktur qururlar. Böyük Britaniya və Avropadakı istehlakçılar üçün bu, daha böyük qeyri-sabitlik vəd edir. Təklif artmağa davam edəcək, lakin bir vaxtlar şokları yumşaltmış sistem zəifləyir. BƏƏ-nin OPEC-dən çıxmaq qərarının mahiyyəti budur və onun nəticələri neft qiymətlərindəki sonrakı dalğalanmalardan daha uzun sürəcək.

*Hazırladı:*
***İlqar RÜSTƏMOV,***
***XQ-nin analitiki***

---

## "Sumqayıt Kompressorları" ASC səhmdarlarının nəzərinə!

24 iyun 2026-cı il saat 15.00-da cəmiyyətin illik yığıncağı AR Mərkəzi Bankının "Səhmdarların ümumi yığıncağının məsafədən (onlayn) keçirilməsinə dair təlimat"-a uyğun olaraq onlayn qaydada keçiriləcəkdir.

Onlayn platforma: "ZOOM" proqramı. İclasın video qeydiyyatı aparılacaqdır.

Bütün səhmdarlardan xahiş edilir ki, yığıncağın keçirilmə vaxtına 1 gün (24 saat) qalanadək iclasda "ONLİNE" iştirak üçün müvafiq kod alaraq qeydiyyatdan keçmələrini aşağıda qeyd olunan "WhatsApp" nömrəsi ilə təmin etsinlər. Qeydiyyata düşənlərə proqramdan istifadə üçün İclasa qoşulma linki və müvafiq təlimat göndəriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1)** Cəmiyyətin illik hesabatlarının təsdiqi.

**2)** Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə (10) 324-69-84 "Watsapp" nömrəsinə sorğu ünvanlamaqla tanış olmaq mümkündür.

2025-ci ilin yekunlarına görə səhmdarlara çatası olan dividendlərin alınması üçün səhmdarlardan öz hesablarını təqdim etmələri xahiş olunur.

**Cəmiyyətin hüquqi ünvanı:** Sumqayıt şəhəri, Səməd Vurğun küçəsi 1.

***"Sumqayıt Kompressorları" ASC-nin idarə heyəti***

---

## "Sumqayıt Tikinti Xidmət" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 9.00-da Sumqayıt şəhəri, Kimyaçılar küçəsi 55a nömrəli ünvanda cəmiyyətin illik yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1)** Cəmiyyətin illik hesabatlarının təsdiqi.

**2)** Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə (50) 255-66-62 "Watsapp" nömrəsinə sorğu ünvanlamaqla tanış olmaq mümkündür.

2025-ci ilin yekunlarına görə səhmdarlara çatası olan dividendlərin alınması üçün səhmdarlardan öz hesablarını təqdim etmələri xahiş olunur.

***"Sumqayıt Tikinti Xidmət" ASC-nin idarə heyəti***

---

## "Yevlax Elektrik Təmir Tikinti" ASC səhmdarlarının nəzərinə!

23 iyun 2026-cı il saat 15.00-da cəmiyyətin illik yığıncağı AR Mərkəzi Bankının "Səhmdarların ümumi yığıncağının məsafədən (onlayn) keçirilməsinə dair təlimat"a uyğun olaraq onlayn qaydada keçiriləcəkdir.

Onlayn platforma: "ZOOM" proqramı. İclasın video qeydiyyatı aparılacaqdır.

Bütün səhmdarlardan xahiş edilir ki, yığıncağın keçirilmə vaxtına 1 gün (24 saat) qalanadək iclasda "ONLİNE" iştirak üçün müvafiq kod alaraq qeydiyyatdan keçmələrini aşağıda qeyd olunan "WhatsApp" nömrəsi ilə təmin etsinlər. Qeydiyyata düşənlərə proqramdan istifadə üçün iclasa qoşulma linki və müvafiq təlimat göndəriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1)** Cəmiyyətin illik hesabatlarının təsdiqi.

**2)** Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə (50) 255-66-62 "Watsapp" nömrəsinə sorğu ünvanlamaqla tanış olmaq mümkündür.

2025-ci ilin yekunlarına görə səhmdarlara çatası olan dividendlərin alınması üçün səhmdarlardan öz hesablarını təqdim etmələri xahiş olunur.

**Cəmiyyətin hüquqi ünvanı:** Yevlax şəhəri, Şadlınski küçəsi 43.

***"Yevlax Elektrik Təmir Tikinti" ASC-nin idarə heyəti***

---

## "Yevlax Tikinti - 7" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 9.00-da Yevlax şəhəri, İnşaatçılar küçəsi 43 nömrəli ünvanda cəmiyyətin illik yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1)** Cəmiyyətin illik hesabatlarının təsdiqi.

**3)** Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə (55) 619-45-77 telefon nömrəsinə sorğu ünvanlamaqla tanış olmaq mümkündür.

2025-ci ilin yekunlarına görə səhmdarlara çatası olan dividendlərin alınması üçün səhmdarlardan öz hesablarını təqdim etmələri xahiş olunur.

***"Yevlax Tikinti - 7" ASC-nin idarə heyəti***

---

## "Əli Bayramlı Süni dəri" ASC səhmdarlarının nəzərinə!

22 iyun 2026-cı il saat 14.00-da Şirvan şəhəri, Neftçilər küçəsi 1 nömrəli ünvanda cəmiyyətin illik yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1)** Cəmiyyətin illik hesabatlarının təsdiqi.

**2)** Digər məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə (50) 200-40-41 "Watsapp" nömrəsinə sorğu ünvanlamaqla tanış olmaq mümkündür.

2025-ci ilin yekunlarına görə səhmdarlara çatası olan dividendlərin alınması üçün səhmdarlardan öz hesablarını təqdim etmələri xahiş olunur.

***"Əli Bayramlı Süni dəri" ASC-nin idarə heyəti***

---

## "Neftqazmaş" ASC səhmdarlarının nəzərinə!

16 iyun 2026-cı il saat 17.00-da "Neftqazmaş" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**I.** Səhmdar cəmiyyətin idarəetmə orqanlarının 2025-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabatı.

**II.** Cəmiyyətin nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi.

**III.** Mənfəətin bölüşdürülməsi

**Telefonlar:** (012) 5502341, (012) 5502361.

**Ünvan:** Bakı şəhəri, Sabunçu rayonu , I Zabrat qəsəbəsi, Oktyabr küçəsi 29.

***"Neftqazmaş" ASC***

---

## "Balakən Məişət Maye Qaz" ASC səhmdarlarının nəzərinə!

18 iyun 2026-cı il saat 11.00-da "Balakən Məişət Maye Qaz "ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin 2025-ci il üzrə maliyyə hesabatının müzakirəsi və təsdiqi.

Yığıncaqda bütün səhmdarların şəxsiyyətlərini təsdiqləyən sənədlə iştirakları vacibdir.

**Ünvan:** Balakən şəhəri, Sahil küçəsi 8.

***"Balakən Məişət Maye Qaz" ASC-nin rəhbərliyi***

---

## "ZƏYƏM TEXNOLOGİYALAR PARKI" ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 11.00-da (AZ5730) Şəmkir rayonu, Zəyəm ŞTQ, S.Vurğun küçəsi 24 nömrəli ünvanda "Zəyəm Texnologiyalar Parkı" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** "Zəyəm Texnologiyalar Parkı" ASC-nin 2025-ci il üzrə maliyyə hesabatı.

**2.** Digər cari məsələlər.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 75 (31044) 1 may 2026-cı il, cümə

## İDMAN

## “Prezident kuboku 2026”da daha 4 medal



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilən avarçəkmə və kanoe üzrə “Prezident kuboku-2026” beynəlxalq reqatasının ikinci yarış günü “Kür” Olimpiya Tədris-İdman Mərkəzində baş tutub. Azərbaycan Su İdmanı Növləri Federasiyasından verilən məlumata görə, idmançılarımız turnirin ikinci günündə 1 qızıl, 1 gümüş, 2 bürünc olmaqla 4 medala layiq görülüblər.**

Akademik avarçəkmədə 2008–2009-cu il təvəllüdlü idmançılar arasında 1500 metr məsafəyə yürüşdə Azər İlyasov birnəfərlik qayıqda qızıl medala sahib olub. Birnəfərlik kayakda 500 metr məsafədə 2008–2009-cu il təvəllüdlü idmançılar arasında Əlimurad Hacızadə gümüş medal qazanıb. Mustafa Vəlizadə - Elmir Tarverdiyev cütü ikinəfərlik kayak qayığında 500 metr məsafəyə yürüşdə 2010–2011-ci il təvəllüdlü idmançıların mübarizəsində üçüncü olub. Niyaz Məlikov - İvan Vorobjanski 2008–2009-cu il təvəllüdlü idmançıların mübarizəsində ikinəfərlik kayak qayığında 1000 metr məsafəyə yürüşdə fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Xatırladaq ki, “Prezident kuboku 2026” reqatasına bu gün yekun vurulacaq.

## Beynəlxalq Şahmat Festivalının açılışı



**Bakı Kristal Zalın Sərgi mərkəzində Azərbaycan Şahmat Federasiyası (AŞF) ilə Gənclər və İdman Nazirliyinin birgə təşkil etdiyi “Baku Open – 2026” Beynəlxalq Şahmat Festivalının açılış mərasimi keçirilib.**

Əvvəlcə Dövlət Himni səsləndirilib. AŞF-nin prezidenti Mahir Məmmədov festivalda rekord sayda – 980 iştirakçının mübarizə apardığını bildirib. O, Azərbaycanın dünyada aparıcı şahmat ölkələrindən biri kimi tanındığını qeyd edib. Qurum rəsmisi dövlət tərəfindən şahmata yüksək səviyyədə qayğı göstərildiyini vurğulayıb.

Gənclər və idman naziri Fərid Qayıbov Azərbaycanda şahmat ənənəsini olduğunu bildirib. O, idmançıların beynəlxalq yarışlarda uğurlu nəticələr əldə etdiyini söyləyib. Qeyd edib ki, Prezident İlham Əliyev bütün idman növlərinə yüksək səviyyədə qayğı göstərir.

## “Neftçi” “Qarabağ”a qalib gəldi



**Dünən Misli Premyer Liqasının XXI turunda təxirə salınmış “Neftçi” – “Qarabağ” oyunu keçirilib.**

“Palms Sports Arena”dakı qarşılaşma paytaxt klubunun qələbəsi ilə nəticələnib – 2:1. Bu oyundan sonra 59 xal toplayan “köhlən atlar” ikinci, Bakı klubu isə 47 xalla dördüncü pillədə qərarlaşıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Əbədiyyət ünvanı*

# Görkəmli oftalmoloqun xatirəsi anılıb

**İnsan üçün dünyada göz nurundan qiymətli heç nə yoxdur, ilahinin bəxş etdiyi bu xöşbəxtlik ömürlərə işıq saçır, həyatın gözəlliklərini seyr etməyə imkan yaradır. Həyatını və elmi fəaliyyətini Azərbaycanda göz xəstəliklərinə qarşı mübarizəyə həsr etmiş görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva qayğıkeşliyi, nəcibliyi ilə könüllərdə özünə uca taxt qurmuş, tibb elmində əldə etdiyi nailiyyətlərlə ölkəsini dünyaya tanıtmışdır.**



İmişli rayonunun Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 103-cü ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və rayon ictimaiyyəti iştirak ediblər. Əvvəlcə iştirakçılar ulu öndər Heydər Əliyevin və akademik Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş rəsm sərgisi ilə tanış olublar.

İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev bildirib ki, Zərifə xanım Əliyeva respublikamızda tibb eliminin inkişafına mühüm töhfələr verib. O, oftalmologiyanın aktual problemlərinə dair sanballı tədqiqatları ilə nəinki keçmiş SSRİ məkanında, dünya miqyasında da şöhrət qazanmışdır. Görkəmli alimin elmi-pedoqoji və ictimai fəaliyyəti yeni həkim nəslinin yetişməsinə və Azərbaycanda otalmologiya elminin inkişafına güclü təsir göstərmişdir. Görkəmli alimin traxoma xəstəliyinin müalicəsində təklif etdiyi metodlar respublikamızda tətbiq edilib və ölkəmiz bu ağır xəstəlikdən xilas olub.

YAP İmişli rayon təşkilatının sədri Səfa Ağayev, İmişli Rayon Xəstəxanasının Publik Hüquqi Şəxsin direktoru Şahin Qurbanov, göz həkimi Niyaməddin Abdullayev akademik Zərifə xanım Əliyevanın gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli tibb işçilərinin, layiqli Vətən övladlarının hazırlanmasında, həkim-oftalmoloqların ixtisaslarının ilbəil artırılmasında, professional elmi kadrların yetişdirilməsindəki xidmətlərindən danışıblar.

Akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi dərin ehtiramla yad edilib, onun Azərbaycan tibb elminin inkişafına verdiyi misilsiz töhfələrin heç zaman unudulmayacağı vurğulanıb.

*Ərəstun ABDULOV*
*XQ*

# Bədii Gimnastika üzrə Avropa Kubokunun açılış mərasimi




**Bakıda Bədii Gimnastika üzrə Avropa Kubokunun açılış mərasimi keçirilib.**

Milli Gimnastika Arenasında təşkil edilən tədbirdə əvvəlcə iştirakçı ölkələrin Dövlət bayraqları arenanın mərkəzinə gətirilib.

Gənclər və idman naziri, Avropa Gimnastikasının prezidenti Fərid Qayıbov çıxışında ölkədə idmanın sürətlə inkişaf etdiyini söyləyib və Bakının 2026-cı il üçün dünyanın idman paytaxtı seçildiyini, paytaxt şəhərin artıq bir neçə dəfə beynəlxalq gimnastika yarışlarına ev sahibliyi etdiyini xatırladıb.

Sonra Avropa Kuboku açıq elan olunub və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Açılış mərasimi bədii hissə ilə davam edib. Bədii gimnastlar tərəfindən musiqi sədaları altında rəqs şousu nümayiş olunub.

Qeyd edək ki, bu gün start götürən yarışda 31 ölkədən ümumilikdə 194 idmançı medallar uğrunda mübarizə aparır. Onlardan 137-si böyüklər, 57-si isə gənclər kateqoriyasında çıxış edir. Turnirdə Azərbaycanı 10 idmançı təmsil edir. Azadə Atakişiyeva və Ayla İsgəndərli gənclər, İlona Zeynalova, Şəms Müvəffəqi, Sofiya Məmmədova, Zəhra Cəfərova, İlahə Bahadırova, Alina Məmmədova, Fidan Qurbanlı və Kamilla Seyidzadə isə böyüklər kateqoriyasında qüvvələrini sınayırlar.

Qeyd edək ki, Avropa Kuboku mayın 3-dək davam edəcək.

***

Bakıda keçirilən bədii gimnastika üzrə Avropa Kubokunun ilk günü başa çatıb.

Milli Gimnastika Arenasında keçirilən turnirdə gənclər kateqoriyasında dörd proqramda ilk mükafatçılar bəlli olub.

Halqalarda Kseniya Savinova (AİN) qızıl, Patrisiya Stançiu (Rumıniya) gümüş, Sofiya Kulikova (Ukrayna) bürünc medal qazanıb.

Topla hərəkətlərin icrasında Kseniya Savinova (AİN) 1-ci, Aleksandra Petrova (Bolqarıstan) 2-ci, Sabina Kagirova (Özbəkistan) 3-cü yeri tutub.

Gürz proqramında Nita Jamagidze (Gürcüstan) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İana Zaikina (AİN) gümüş, Sofia Krainska (Ukrayna) bürünc mükafata sahib çıxıb. Lentlərdə isə İana Zaikina (AİN) 1-ci, Dea Emilova (Bolqarıstan) 2-ci, Alis Rozenberq (İsrail) 3-cü olub.

*XQ*

# AXC heyətinin milli geyimi ABŞ-ın Vilson muzeyində

**ABŞ-ın paytaxtı Vaşinqtonda yerləşən Vudro Vilson Ev Muzeyində dünya ölkələrinin milli geyimlərinə həsr olunmuş üçüncü ənənəvi sərgi təşkil edilib.**





Azərbaycan sərgidə ABŞ-dakı səfirliyimizin dəstəyi ilə Paris Sülh Konfransında iştirak etmiş və həmin dövrdə ABŞ prezidenti olmuş Vudro Vilson ilə görüşümüz Azərbaycan Xalq Cümhuriyyəti heyətinin milli kişi geyimi ilə təmsil olunur.

60-dan çox ölkənin milli geyimləri nümayiş olunan sərgidə təqdim edilən geyimlərin fotolarından ibarət xüsusi jurnal da hazırlanıb. Jurnalın Azərbaycan bölməsində nümayiş olunan geyimdə istifadə edilmiş parçalar və materiallar, eləcə də ABŞ–Azərbaycan münasibətlərinin ilkin mərhələlərindən biri kimi Paris Sülh Konfransı çərçivəsində Azərbaycan nümayəndə heyətinin Vudro Vilson ilə görüşü barədə məlumat verilib.

*XQ*

## “Neftqazmaş” ASC-nin 2025-ci il dekabrın 31-nə mühasibat balansı

| | 2025-ci il | 2024-cü il |
|---|---|---|
| | | *manatla* |
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Torpaq, tikili və avadanlıqlar | 1.663.089 | 1.924.814 |
| Qeyri-maddi aktivlər | 788 | 886 |
| Sair uzunmüddətli maliyyə aktivləri | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | ***1.663.877*** | ***1.925.700*** |
| *Qısamüddətli aktivlər* | | |
| Ehtiyatlar | 988.280 | 1.124.798 |
| Qısamüddətli debitor borcları | 615.235 | 429.431 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1.154.515 | 285.435 |
| Sair qısamüddətli aktivlər | 96.576 | 58.318 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | ***2.854.606*** | ***1.897.982*** |
| **CƏMİ AKTİVLƏR** | **4.518.483** | **3.823.682** |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 767.890 | 767.890 |
| Kapital ehtiyatları | 1.130.479 | 1.142.571 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 1.117.207 | 989.341 |
| Gələcək dövrlərin gəlirləri | 497.080 | |
| **CƏMİ KAPİTAL** | **3.512.656** | **2.899.802** |
| **ÖHDƏLİKLƏR** | | |
| *Qısamüddətli öhdəliklər* | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 338.511 | 242.956 |
| Qısamüddətli kreditor borcları | 79.639 | 209.536 |
| Sair qısamüddətli öhdəliklər | 0 | 424.963 |
| Dvidendlər üzrə təsisçilərə borclar | 587.676 | 46.425 |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | ***1.005.827*** | ***923.880*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **1.005.827** | **923.880** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **4.518.483** | **3.823.682** |

## HAVA

## Aranda yağmursuz, dağlıq rayonlarda yağış və dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi yerlərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim cənub-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 8-12, gündüz 15-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 7-12, gündüz 20-25, dağlarda gecə 3-8, gündüz 13-18 dərəcə isti təşkil edəcək.

*Q.ƏLİYEV*
*XQ*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3183
SİFARİŞ 545
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00